RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 169 (10189) 17 sentyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanda hərrac vasitəsilə həyata keçirilən ilk layihə

## Onun icrası ilə ildə 45 milyon kubmetr təbii qaza qənaət ediləcək

2



## Azərbaycan hər zaman ikili standartlara qalib gəlib

### Prezident İlham Əliyev bəzi Qərb təsisatlarının ölkəmizə qarşı qərəzli mövqeyini faktlarla ifşa etdi




Prezident İlham Əliyev bu tarixi həqiqəti və beynəlxalq təsisatların fəaliyyətsizliyini vurğulayaraq bildirib: "Dünya 30 il ərzində buna göz yumub. Ermənistanın arxasında duran böyük dövlətlər, o cümlədən və ilk növbədə mənfur Minsk qrupunun həmsədr ölkələri bütün bu işləri ört-basdır etmək istəyirdi. Ermənistan işğal edilmiş torpaqlara heç bir xarici müşahidəçi buraxmırdı. Ancaq Qərbdən və digər ölkələrdən olan pulla alınmış bəzi siyasətçiləri, ictimai xadimləri gətirirdilər ora göstərsinlər ki, onlar burada necə yaşayırlar. Amma beynəlxalq təşkilatlar buna səssiz qalıb. Birləşmiş Millətlər Təşkilatı, - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb".

Həqiqətən, 30 il ərzində cərəyan edən proseslər göstərdi ki, vasitəçilik missiyasını üzərinə götürmüş subyektlər ədalətli sülhün bərqərar olunmasında deyil, mövcud status-kvonun saxlanılmasında maraqlı idilər. İşğal müddətində törədilən cinayətlərin ört-basdır edilməsi, rüşvət və müxtəlif vasitələrlə ələ alınmış xarici siyasətçilər vasitəsilə saxta reallıqların yaradılması cəhdləri məhz bu yanaşmanın tərkib hissəsi idi. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasız qalması, Minsk qrupu kimi təşkilatların fəaliyyətsizliyi beynəlxalq hüququn kağız üzərində qaldığını sübut edirdi.

5

## Əsrlərdən gələn, bu günümüzü və sabahımızı işıqlandıran milli-mənəvi irs



Sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev Azərbaycan xalqının zəngin mədəniyyətə malik olduğunu vurğulayıb. Dövlətimizin başçısı bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının və böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirildiyini qeyd edib: "Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır".

Dövlətimizin başçısı Azərbaycan xalqının dünya mədəniyyətinə bir çox dahi şəxsiyyət, şair, mütəfəkkir bəxş etdiyini diqqətə çatdırıb: "Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün islam aləmi üçün çox böyük dəyərdir".

8

## Sülhə xidmət edən türk dünyası birliyi

### Azərbaycan Türk Dövlətləri Təşkilatının əmin-amanlığa xidmət missiyasına öz töhfələrini verir

Ölkəmizin tarixinə baxanda açıq-aydın görünür ki, qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud olub və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi. Qəbələ bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir. Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

Türk Dövlətləri Təşkilatı bu baxımdan regional dayanıqlılığı artıran, iqtisadi inkişafı dəstəkləyən, beynəlxalq əməkdaşlığa açıq bir vizyon daşıyır.



Xəzər və müxtəlif marşrutlar üzrə enerji və nəqliyyat sahəsində əməkdaşlıq, ticarət əlaqələri, rəqəmsal iqtisadiyyat, süni intellekt, təbii fəlakətlər və fövqəladə hallara hazırlıq da daxil olmaqla bir çox sahədə yaradılan tərəfdaşlıqlar türk dünyasının malik olduğu böyük potensialı ortaya qoyur.

6

## *Azərbaycanda sahibkarlığın inkişafı: yeni imkanlar və müasir çağırışlar*

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" da bu xətti davam etdirərək iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi, özəl sektorun fəallığının yüksəldilməsi, investisiya və ixrac imkanlarının artırılması üçün konkret tədbirlər müəyyən edir. Növbəti 2027-2030-cu illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması isə ölkənin iqtisadi siyasətində bu xəttin davamlı xarakter daşıdığını göstərir.

Yeni mərhələnin mühüm imkanlarından biri rəqəmsal transformasiya ilə bağlıdır. Elektron xidmətlərin genişlənməsi, rəqəmsal ödəniş sistemləri, onlayn satış kanalları, süni intellekt həlləri və yeni texnoloji platformalar biznesin təşkilində və bazara çıxış imkanlarında ciddi dəyişikliklər yaradır. 2026-2029-cu illər üçün rəqəmsal iqtisadiyyatın inkişaf strategiyası da sahibkarlıqda rəqəmsal infrastrukturun genişləndirilməsini, innovasiya əsaslı inkişafı və rəqəmsal bacarıqların gücləndirilməsini ön plana çıxarır. Bu imkanlar xüsusilə mikro və kiçik sahibkarların fəaliyyət xərclərinin azalması, yeni bazarlara çıxışı və rəqabət qabiliyyətinin yüksəlməsi baxımından əhəmiyyətlidir.



10

## Dağıntılardan dirçəlişə, müharibədən sülhə

### Böyük qayıdış Qarabağ və Şərqi Zəngəzura yeni həyat gətirir

Otuz ilə yaxın öz doğma yurdlarından kənarda yaşayan keçmiş məcburi köçkünlərin geri dönüşü Qarabağın dirçəlişinin əsas göstəricilərindəndir.

Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri və müşahidəçiləri, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçıları və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən Böyük qayıdışın hazırkı miqyasına diqqət çəkib: "Bu gün Qarabağda və Şərqi Zəngəzurda artıq 48 şəhər və kənddə insanlar yaşayır. Yəni keçmiş köçkünlər qayıdıb, orada işləyənlər, təhsil alanlar məskunlaşıb. "Böyük qayıdış" proqramı uğurla icra edilir. Bax, dediyim bu şəhər və kəndlərdə artıq 90 mindən çox insan yaşayır. Yəni həyat qayıdıb və bu bizim böyük nailiyyətimizdir, tarixi nailiyyətimizdir. Xalqımız 30 il ərzində əzab-əziyyət içində yaşayıb. Bu gün isə qalib xalq kimi, müzəffər dövlət kimi yaşayırıq".



5

# Azərbaycanda hərrac vasitəsilə həyata keçirilən ilk layihə

## Onun icrası ilə ildə 45 milyon kubmetr təbii qaza qənaət ediləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da paytaxtın Qaradağ rayonunda 100 MVt gücündə "Qobustan" Günəş-Elektrik Stansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov, Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey, "Universal International Holdings Limited" şirkətinin baş icraçı direktoru Yi Nan dövlətimizin başçısını qarşıladılar.

Prezident İlham Əliyevə "Qobustan" Günəş-Elektrik Stansiyası, "Universal Energy" şirkəti və onun Azərbaycandakı fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Çinin Şanxay şəhərində yaradılmış şirkət "yaşıl enerji" və enerji saxlanc sistemləri üzrə həllər təqdim edir.

"Universal Energy" Çinlə yanaşı, Qazaxıstan və Özbəkistanda da bərpaolunan enerji layihələri həyata keçirir.

Nazirlər Kabinetinin 2023-cü ildə qəbul etdiyi qərarla Bakı şəhərinin Qaradağ rayonunun Pirsaat qəsəbəsində 300,77 hektar torpaq sahəsi günəş-elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyənləşdirilib.

Bu ərazi günəş-elektrik stansiyasının tikintisi məqsədilə hərraca çıxarılıb və Çinin "Universal International Holdings Limited" şirkəti 2024-cü ildə hərracın qalibi olub.

"Qobustan" Günəş-Elektrik Stansiyası layihəsi Azərbaycanda hərrac vasitəsilə həyata keçirilən ilk, eyni zamanda "Universal Energy" şirkətinin ölkəmizdə icra etdiyi birinci layihədir.

Stansiyada Günəş panelləri ilə yanaşı, sahə invertorları və transformatorlar quraşdırılıb, kabelləşdirmə işləri tam yerinə yetirilib.

"Qobustan" Günəş-Elektrik Stansiyasının istismara verilməsindən sonra hər il təxminən 200 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 45 milyon kubmetr təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 97 min ton azaltmağa imkan verəcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən enerji siyasətinin prioritet istiqamətlərindən biri də bərpaolunan enerji mənbələrinin geniş tətbiqidir.









Azərbaycanda "yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. İqtisadi potensial 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 QVt, Günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmində qiymətləndirilir. "Qobustan" Günəş-Elektrik Stansiyasının istismara verilməsi ilə ölkəmizdə bərpaolunan enerji mənbələrinin ümumi gücü 2170 MVt, stansiyaların sayı isə 85 olacaq. Onlarında 65-i su-elektrik stansiyası (1443,5 MVt), 6-sı külək-elektrik stansiyası (306,5 MVt), 10-u günəş-elektrik stansiyası (378,2 MVt), 3-ü hibrid elektrik stansiyası (7,3 MVt), 1-i isə BİO elektrik stansiyasıdır (37 MVt). Bərpaolunan enerji mənbələri ölkəmizin ümumi enerji gücünün təxminən 21,5 faizini təşkil edir. 2027-ci ilin sonunadək təxminən 1,5 QVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur. Yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən bu layihələr ölkəmizin elektrik enerjisi ilə təminatı məsələsinə töhfə verməklə yanaşı, təbii qaza qənaət etməyə və atmosferə atılan karbon emissiyalarını xeyli azaltmağa şərait yaradır.

# "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakıda Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransda səmimi-qəlbdən salamlayıram.

Müstəqil Azərbaycan dövlətinin tərəqqisi və iqtisadi qüdrətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar çərçivəsində müasir audit institutunun formalaşdırılması və inkişafı xüsusi əhəmiyyət kəsb etmişdir. "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi Ümummilli Lider Heydər Əliyevin demokratik idarəetmə prinsiplərinə və bazar iqtisadiyyatının institusional əsaslarının formalaşdırılmasına verdiyi yüksək önəmin, ölkədə maliyyə intizamının və şəffaflığın, hesabatlılığın təmin edilməsinə xidmət edən uzaqgörən və məqsədyönlü dövlət siyasətinin mühüm təzahürü idi. Həmin Qanuna uyğun olaraq yaradılmış Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövr ərzində ölkədə müstəqil audit sisteminin institusional əsaslarının möhkəmləndirilməsi, peşəkar auditor kadrlarının hazırlanması, şəffaflıq və hesabatlılıq mühitinin inkişaf etdirilməsi, habelə beynəlxalq qabaqcıl təcrübəyə uyğun müasir audit modelinin formalaşdırılması istiqamətində olduqca əhəmiyyətli və zəruri işlər görmüşdür. Nəticə etibarilə, auditor xidmətlərinin əhatə dairəsi xeyli nəzərəçarpacaq dərəcədə genişlənmiş, maliyyə hesabatlarının etibarlılığının təmin edilməsində, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və kölgə iqtisadiyyatının azaldılmasında audit institutunun rolu daha da artmışdır.

Auditorlar Palatasının yubileyi münasibətilə təşkil olunmuş beynəlxalq konfransın ölkəmizdə auditor peşəsinin son otuz ildə keçdiyi inkişaf yolunun elmi və praktik müstəvidə təhlili, auditor fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, peşəkar özünüidarəetmə institutunun möhkəmləndirilməsi, keyfiyyətə nəzarət mexanizmlərinin inkişaf etdirilməsi və beynəlxalq audit standartlarının tətbiqi ilə bağlı mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Eyni zamanda konfrans çərçivəsində audit fəaliyyətinin rəqəmsal transformasiya şəraitində yeni inkişaf istiqamətlərinin, böyük verilənlərin analitikası və süni intellekt texnologiyalarının audit prosesinə inteqrasiyasının, auditin ənənəvi uyğunluq funksiyasından kənara çıxaraq strateji tərəfdaş və dəyər yaradan institut kimi rolunun genişləndirilməsinin, habelə peşə etikası və ictimai etimad prinsiplərinin möhkəmləndirilməsinin müzakirə olunması müasir dövrün tələbləri baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı və texnoloji transformasiyanın geniş vüsət aldığı müasir şəraitdə audit fəaliyyətinin yeni keyfiyyət mərhələsinə yüksəldilməsi hər bir ölkə qarşısında duran mühüm vəzifələrdən biridir. Bu xüsusda audit fəaliyyətinin rəqəmsal əsaslarda təşkili, süni intellekt və müasir məlumat analitikası alətlərinin tətbiqinin genişləndirilməsi, audit proseslərində şəffaflığın və operativliyin artırılması, habelə beynəlxalq peşəkar standartlara uyğun innovativ audit metodologiyalarının inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi Auditorlar Palatasının fəaliyyətinin səmərəliliyi nöqteyi-nəzərindən xüsusi önəm daşıyır. Bununla yanaşı, auditor peşəsinin nüfuzunun və ona olan ictimai etimadın qorunması, yüksək peşəkarlıq və etik davranış prinsiplərinin daha da möhkəmləndirilməsi, habelə peşəkar kadr potensialının gücləndirilməsi qarşıda duran əsas prioritetlər sırasındadır.

Əminəm ki, konfrans çərçivəsində aparılacaq müzakirələr və irəli sürüləcək təşəbbüslər ölkəmizdə auditor fəaliyyətinin daha da təkmilləşdirilməsinə, auditdə rəqəmsal transformasiyanın və süni intellektin tətbiqinə, beynəlxalq əməkdaşlığın genişlənməsinə, audit institutunun nüfuzunun yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə Auditorlar Palatasının kollektivini və konfrans iştirakçılarını bir daha təbrik edir, tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2026-cı il*

# Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin və əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illiyi münasibətilə **qərara alıram:**

Auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Auditorlar Palatasının aşağıdakı üzvləri və əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Akif Ağa oğlu
Axundov Vaqif Xəlil oğlu
Bayramova Lamiyə Qəşəm qızı
Bənnayev Elxan Bəhmən oğlu
Cavadov Vasif Tofiq oğlu
Cəbiyev Hüseyn Kommuna oğlu
Eyvazova Mətanət Gümüş qızı
Əliyev Azər Hüseyn oğlu
Fətiyev Üzeyir Cəmil oğlu
Hacıəzizov İlham İsfəndiyar oğlu
Həsənova Adilə Teymur qızı
Qarayev Fəqan Şakir oğlu
Qurbanlı Ziya Tofiq oğlu
Məmmədov Şahbaz Müseyib oğlu
Süleymanova Elzadə Süleyman qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2026-cı il*

# Ü.Z.Quliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Ülvi Zahid oğlu Quliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 297** **Bakı şəhəri, 15 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 749 (Cild I); 2024, № 7, maddə 910; 2025, № 3, maddə 267, № 7, maddə 709) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "I. Büdcədən maliyyələşdirilən qurumlar" bölməsinin "1. Təhsil müəssisələri" hissəsinin 1.93-cü və 1.133-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

"1.93. Füzuli şəhər Kurmanqazı adına İncəsənət Məktəbi";

"1.133. Xankəndi şəhər İncəsənət Məktəbi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Qarayazı Dövlət Təbiət Qoruğunun sanitariya-mühafizə zonasının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 298** **Bakı şəhəri, 16 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 166 nömrəli Fərmanının 1.4.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikasının Qarayazı Dövlət Təbiət Qoruğunun sanitariya-mühafizə zonası əlavə olunmuş xəritədə göstərilən 3230,81 hektarlıq sahədə təsdiq edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Pan- Afrika Parlamentinin prezidenti ilə görüşüb

**Sentyabrın 16-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Pan- Afrika Parlamentinin prezidenti Fatih Boutbiqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, cari ilin iyul ayında Cənubi Afrika Respublikasında Pan-Afrika Parlamentinin Milli və Regional Parlamentlərin Sədrlərinin Konfransı çərçivəsində qonaqla keçirdiyi görüşü məmnuniyyətlə xatırlayan Sahibə Qafarova həmin tədbirin yüksək səviyyədə təşkilinə və oraya dəvətə görə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Pan-Afrika Parlamenti Afrika qitəsində parlamentlərarası dialoqun təşviqində, üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsində və ümumi inkişaf məqsədlərinin irəli aparılmasında mühüm rol oynayır.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Milli Məclisi Afrika ölkələrinin parlamentləri ilə münasibətlərin inkişafına xüsusi önəm verir. Bu baxımdan parlament diplomatiyasının inkişafı, parlamentlər arasında əlaqələrin daha da genişləndirilməsi, siyasi dialoqun möhkəmləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Görüşdə Milli Məclisin Sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (GHGT) fəaliyyəti, Azərbaycanın QHPŞ-yə sədrliyi dövründə görülmüş işlər, ölkəmizin irəli sürdüyü təşəbbüslər barədə məlumat verib. Spiker bundan sonra Pan-Afrika Parlamentinin Afrika dövlətlərinin parlamentləri ilə əlaqələrimizin inkişaf etdirilməsi üçün daha bir uğurlu platforma olacağına əminliyini ifadə edib.

Qonağın Pan-Afrika Parlamentini təmsil etməklə yanaşı, eyni zamanda Əlcəzair parlamentinin üzvü olduğunu bildirən spiker Sahibə Qafarova, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif səviyyələrdə məmnunluq hissi doğurduğunu qeyd edib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Pan-Afrika Parlamentinin prezidenti Fatih Boutbiq bu vəzifəyə seçiləndən sonra Afrika hüdudlarından kənarda səfər etdiyi ilk ölkənin Azərbaycan olduğunu vurğulayıb. Parlament diplomatiyasının artan rolundan danışan qonaq, rəhbərlik etdiyi təşkilatın ölkələrin parlamentləri, həmçinin beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığa hazır olduğunu qeyd edib.

Bu səfərin əməkdaşlıq üçün irəliyə atılmış mühüm bir addım olduğunu deyən Fatih Boutbiq, Pan-Afrika Parlamenti ilə QHPŞ arasında imzalanacaq memorandumun iki parlament təsisatı arasında əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə və gələcək fəaliyyət üçün möhkəm zəmin yaradılmasına xidmət edəcəyini deyib.

Söhbət zamanı Pan-Afrika Parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi, habelə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında əməkdaşlığın inkişafı və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Pan-Afrika Parlamenti ilə QHPŞ arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Milli Məclisin və QHPŞ-nin Sədri Sahibə Qafarova və Pan-Afrika Parlamentinin prezidenti Fatih Boutbiq imzalayıblar. Spiker Sahibə Qafarova bu sənədin iki parlament platforması arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından mühüm addım olduğunu diqqətə çatdırıb.

*"Azərbaycan"*

# Milli Məclisin komitə iclaslarında



**Sentyabrın 16-da Milli Məclisin Regional məsələlər komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Siyavuş Novruzov komitə üzvlərinə qarşıdakı sessiyada uğurlar arzulayıb.**

Komitə sədri bildirib ki, iclasın gündəliyinə 3 məsələ - 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Regional məsələlər komitəsində görülən işlər barədə hesabat, komitənin 2026-cı il payız sessiyası üçün iş planının layihəsi və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi daxil edilib.

Bildirilib ki, 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində Regional məsələlər komitəsinin 5 iclası keçirilib, eyni zamanda komitə üzvləri yerli və beynəlxalq əhəmiyyətli tədbirlərdə aktiv iştirak ediblər. Ötən sessiya dövründə ümumilikdə komitəyə vətəndaşlardan 1359 müraciət daxil olub, onlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb. Komitə sədri bildirib ki, seçicilərlə görüşlər keçirilib, onların müraciətləri dinlənilib və zəruri izahatlar verilib.

Sonra komitə sədri Regional məsələlər komitəsinin qarşıdakı payız sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, iş planında qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, komitənin profilinə uyğun müzakirələrin təşkili və digər məsələlər öz əksini tapıb.

Gündəlikdə üçüncü məsələ - "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı komitə sədri deyib ki, layihəyə əsasən, Quba rayonunun Timiryazev-Alekseyevka bələdiyyəsinin Bəhrəli-Çınarlı bələdiyyəsi, Vladimirovka bələdiyyəsinin isə Elbir bələdiyyəsi adlandırılması təklif olunur.

Müzakirədə komitə üzvləri Aydın Mirzəzadə, Elşən Musayev, Arzuxan Əli-zadə, Tahir Rzayev, Məzahir Əfəndiyev, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev və Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov çıxış edərək, gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər.

İclasda komitənin ötən sessiyada görülmüş işlər barədə hesabatı məqbul hesab olunub, payız sessiyası üçün iş planının layihəsi təsdiqlənib və gündəlikdəki qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Tədbirdə komitə sədrinin müavini Nurlan Həsənov, deputatlar Səttar Möhbalıyev, Vasif Qafarov və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Sentyabrın 16-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib.

İclası açan komitə sədri Arzu Nağıyev Azərbaycanda həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyimizin etibarlı təmin olunması istiqamətində əldə edilmiş mühüm nəticələrdən danışıb. Arzu Nağıyev bu siyasətə uyğun olaraq parlamentin və komitənin qarşıdakı sessiyada da dövlətin təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edən qanunvericilik fəaliyyətini uğurla davam etdirəcəyinə əminliyini bildirib.

Gündəliyi təqdim edən komitə sədri müzakirəyə 4 məsələnin çıxarıldığını deyib. O, əvvəlcə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində görülən işlər barədə hesabatı təqdim edib. Məlumat verilib ki, sessiya dövründə komitənin 11 iclası keçirilib və 17 məsələyə baxılıb. Yaz və növbədənkənar sessiyalar dövründə komitədə 7 qanun layihəsi müzakirə olunub.

Bildirilib ki, 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olmuş 150 ərizə və məktuba, digər müxtəlif xarakterli sənədlərə komitədə baxılıb, onlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər həyata keçirilib.

Daha sonra Arzu Nağıyev Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edib. O bildirib ki, növbəti sessiyada əsasən büdcə məsələləri müzakirə ediləcək, təqdim olunmuş qanun layihələrinə baxılacaq. Komitənin səlahiyyət dairəsinə daxil olan mövzular üzrə müzakirələrin təşkili və digər məsələlər də nəzərdə tutulub.

Komitə sədri gündəliyin üçüncü məsələsi olan "Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"in təsdiq edilməsi barədə" qanun layihəsi ilə bağlı diqqətə çatdırıb ki, sənəd 2026-cı il iyulun 8-də Bakı şəhərində imzalanıb. Saziş 17 maddədən ibarətdir. Sənədin məqsədi tərəflər arasında mübadilə edilən və ya yaradılan məxfi məlumatların mühafizəsini təmin etməkdir.

Sonuncu məsələ - "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd hərbi qulluqçuların hərbi rütbədə olma müddətlərində onların təhsil və elmi fəaliyyətinin nəzərə alınması ilə bağlı məsələləri əhatə edir.

Müzakirələr zamanı komitə sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Hikmət Məmmədov, Səbinə Salmanova, Gülşən Paşayeva, Aqil Abbasov çıxış ediblər, təqdim olunan sənədlər barədə fikir və qeydlərini açıqlayıblar.

İclasda komitənin ötən sessiyada görülmüş işlər barədə hesabatı məqbul hesab olunub, payız sessiyası üçün iş planının layihəsi təsdiqlənib və gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

*"Azərbaycan"*

# Pan-Afrika Parlamentinin prezidenti Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib





**Ölkəmizdə səfərdə olan Pan-Afrika Parlamentinin prezidenti Fateh Butbiqin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə gül dəstələri düzüb. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Diplomatların səfərinə revanşistlərin reaksiyası

## Bu, qəbuledilməz və təəssüf doğuran haldır

**Sentyabrın 11-də Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura növbəti səfəri təşkil olunub. 58 ölkəni və 9 beynəlxalq təşkilatı təmsil edən 150 nümayəndənin iştirak etdiyi səfər ilk növbədə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesinin nümayişi baxımından diqqət çəkdi. Eyni zamanda səfərin əhəmiyyəti yalnız bu istiqamətlə məhdudlaşmır. Bu təşəbbüs Azərbaycanın azad edilmiş ərazilərdə apardığı siyasətin beynəlxalq ictimaiyyətə çatdırılması və ölkənin mövqeyinin diplomatik müstəvidə təqdim edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.**



Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfəri Ermənistan cəmiyyətinin müəyyən dairələrində ciddi narazılıq və aqressiv reaksiyalara səbəb oldu. Xarici diplomatların Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə səfər etməsinə qarşı yönəlmiş bu kampaniya yalnız diplomatik etiket baxımından deyil, həm də Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınması istiqamətində verdiyi bəyanatlarla ziddiyyət təşkil etməsi baxımından diqqət çəkdi.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərinə Ermənistan cəmiyyətinin müəyyən dairələrinin reaksiyası qəbuledilməz və təəssüf doğuran haldır. Xarici diplomatların səfərinin hədəfə alınması, onların təmsil etdikləri dövlətlərin mövqeyinə qarşı təzyiq xarakterli kampaniyaların aparılması Ermənistan daxilində revanşist düşüncənin hələ də kifayət qədər güclü olduğunu göstərir.

Diplomatik korpus nümayəndələrinin Azərbaycan ərazisinə səfəri tamamilə təbii və legitim diplomatik fəaliyyətdir. Bu səfərlərin Ermənistan cəmiyyətində müəyyən qüvvələri narahat etməsi isə, əslində, həmin dairələrin Azərbaycanın mövcud reallıqlarını qəbul etmək istəmədiklərini göstərir.

Qarabağ Azərbaycanın suveren ərazisidir. Azərbaycan öz ərazisində xarici diplomatların səfərlərinin təşkili və keçirilməsi ilə bağlı qərarları müstəqil şəkildə qəbul edir. Odur ki, həmin səfərə görə xarici diplomatların hədəfə alınması və onların fəaliyyətinin qınanması Azərbaycanın daxili işlərinə müdaxilə cəhdidir.

Burada mühüm məqam ondan ibarətdir ki, diplomatik korpus nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfəri onların təmsil etdikləri ölkələrin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə münasibətini də nümayiş etdirir. Ermənistan cəmiyyətində bu reallığın qəbul edilməməsi isə regionda formalaşmış yeni siyasi-hüquqi vəziyyətlə ziddiyyət təşkil edir.

Erməni revanşist dairələrinin reaksiyasında diqqəti çəkən digər məqam tarixi irslə bağlı birtərəfli və ziddiyyətli yanaşmadır. Bir tərəfdən, Gəncəsər və Xudavəng kimi Azərbaycan ərazisində yerləşən alban tarixi abidələri erməni irsi kimi təqdim edilir, digər tərəfdən isə, müasir Ermənistan ərazisində Azərbaycan xalqının əsrlər boyu mövcud olmuş tarixi və mədəni izlərinin tanınmasından imtina edilir.

Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyası irsi Ermənistan cəmiyyətinin müəyyən dairələrinin təhrif etməyə çalışdığı tarixi mövzulardan biridir. Qafqaz Albaniyasının regionun tarixində mühüm siyasi, dini və mədəni rol oynaması tarixşünaslıqda geniş araşdırılmış məsələlərdəndir.

Azərbaycan ərazisindəki tarixi-mədəni irsin mənsubiyyəti ilə bağlı mübahisələrə siyasi və etnik çaların gətirilməsi elmi yanaşmanı zəiflədir. Tarixi abidələrin qorunması və tədqiqi siyasi qarşıdurma vasitəsinə deyil, elmi və mədəni əməkdaşlıq predmetinə çevrilməlidir.

Azərbaycan Respublikasının ərazisində yerləşən bütün tarixi və mədəni abidələr dövlət tərəfindən qorunur. Bu irsin qorunması Azərbaycanın üzərinə düşən məsuliyyət kimi qəbul edilir və həmin abidələr ölkənin çoxəsrlik tarixinin ayrılmaz hissəsidir.

Ermənistan daxilində revanşist mövqeləri müdafiə edən qüvvələrin mövcudluğu yeni məsələ deyil. Bununla belə, son kampaniyada yayılan bəzi məlumat və paylaşımların yalnız radikal müxalif dairələrin fəaliyyəti ilə məhdudlaşmadığı müşahidə olunur.

Müxtəlif məlumatların hakim siyasi dairələrə yaxın informasiya resurslarında da yayılması Ermənistan hakimiyyətinin revanşist ritorikaya münasibəti ilə bağlı suallar yaradır. Bu vəziyyət rəsmi İrəvanın bir tərəfdən, sülh və normallaşma mesajları verməsi, digər tərəfdən isə, cəmiyyətdə Azərbaycanın ərazi bütövlüyünün nəticələrini qəbul etməyən narrativlərin yayılmasına imkan verməsi baxımından ziddiyyətli görünür.

Mövzu ilə bağlı Ermənistan parlamentinin sədri Ruben Rubinyanın açıqlaması da qəbuledilməzdir. Azərbaycanın suveren ərazisində keçirilən diplomatik səfərə münasibət bildirilməsi Ermənistanın Azərbaycanın daxili məsələlərinə müdaxilə etmək cəhdləridir.

Sentyabrın 14-də Ermənistan parlamentində 12-13 sentyabr 2022-ci il hadisələri zamanı həlak olmuş hərbçilərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi də siyasi kontekstdən kənarda nəzərdən keçirilə bilməz. 2022-ci ilin sentyabr hadisələri Azərbaycan-Ermənistan sərhədində ciddi hərbi eskalasiya ilə müşayiət olunmuşdu. Bu hadisələrin yalnız bir tərəfinin təqdimatı üzərindən ictimai-siyasi gündəmin formalaşdırılması isə revanşist əhvali-ruhiyyənin gücləndirilməsi riskini artırır.

Baş verənlər Ermənistanın sülh prosesinə münasibətilə bağlı suallar doğurur. Son illərdə rəsmi İrəvan sülh və normallaşma istiqamətində müxtəlif bəyanatlar səsləndirsə də, cəmiyyət daxilində Azərbaycanın ərazi bütövlüyü və Qarabağın hüquqi statusu ilə bağlı köhnə təsəvvürlərin tam aradan qalxmadığı görünür.

2023-cü ildən sonra bölgədə yaranmış yeni reallıq Ermənistanı Azərbaycanla münasibətlərin normallaşdırılması istiqamətində daha praqmatik siyasət yürütməyə vadar edib. Lakin Ermənistan cəmiyyətində və siyasi mühitində revanşist ritorikanın yenidən gücləndirilməsi sülh prosesinin dayanıqlılığı üçün ciddi risk yaradır.

Diplomatik səfərlərə qarşı təşkil olunan kampaniyalar isə sülh gündəminə deyil, qarşıdurma ritorikasına xidmət edir. Bu baxımdan son reaksiyalar Ermənistanın sülh prosesində nə dərəcədə ardıcıl və səmimi olduğu barədə əsaslı suallar doğurur.

Ermənistanın tarixi irs məsələsində nümayiş etdirdiyi selektiv yanaşma Qərbi Azərbaycandakı Azərbaycan mədəni irsi məsələsini də gündəmə gətirir. Azərbaycan xalqının əsrlər boyu indiki Ermənistan ərazisində yaşaması, burada yaşayış məskənləri salması və zəngin mədəni irs yaratması ilə bağlı çoxsaylı tarixi faktlar mövcuddur.

Məscidlər, qəbiristanlıqlar, tarixi yaşayış məskənləri və digər mədəni irs nümunələrinin zamanla dağıdılması və ya öz ilkin kimliyindən uzaqlaşdırılması regionun tarixi yaddaşına ciddi zərbə vurur. Tarixi və mədəni irsin siyasi məqsədlərlə dəyişdirilməsi və ya bir xalqın izlərinin silinməsi cəhdləri isə regionda uzunmüddətli barışığın formalaşmasına xidmət etmir.

Mədəni irsin qorunması beynəlxalq hüququn və UNESCO-nun müvafiq prinsiplərinin də əsas tələblərindən biridir. Bu baxımdan tarixi abidələrin qorunması məsələsinə etnik və siyasi ayrı-seçkilikdən kənar, universal prinsiplər əsasında yanaşılmalıdır.

Erməni revanşist dairələrinin diplomatik səfərə reaksiyası bir daha göstərir ki, Azərbaycan-Ermənistan münasibətlərində qarşıda duran əsas məsələlərdən biri yalnız siyasi sənədlərin imzalanması deyil, həm də cəmiyyətlərdə mövcud olan stereotiplərin aradan qaldırılmasıdır.

Sülh yalnız hökumətlər arasında razılaşma ilə məhdudlaşmır. Davamlı sülh üçün ərazi bütövlüyü və suverenliklə bağlı əldə olunmuş reallıqların cəmiyyətlər tərəfindən də qəbul edilməsi vacibdir. Xarici diplomatların Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrinə səfərinə qarşı aqressiv kampaniyaların aparılması isə Ermənistan cəmiyyətinin müəyyən hissəsinin hələ də bu reallıqla barışmadığını nümayiş etdirir.

Bu baxımdan Azərbaycanın mövqeyindən də aydındır ki, davamlı və dayanıqlı sülh yalnız qarşılıqlı hörmət, suverenliyə və ərazi bütövlüyünə ehtiram, tarixi reallıqların obyektiv qəbul edilməsi əsasında mümkündür. Ermənistanın isə revanşist ritorikadan uzaqlaşması, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməsi, eləcə də regionun mürəkkəb tarixini obyektiv şəkildə qəbul etməsi gələcəkdə dayanıqlı sülhün təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 17 sentyabr 2026-cı il

# Azərbaycan ilə Afrika ölkələri arasında əlaqələr son illərdə dinamik şəkildə inkişaf edir

**Sentyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Pan-Afrika Parlamentinin prezidenti Fateh Butbiqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov Azərbaycan ilə Afrika ölkələri arasında əlaqələrin son illərdə dinamik şəkildə inkişaf etdiyini qeyd edib. Bu xüsusda qarşılıqlı səfərlərin, siyasi məsləhətləşmələrin, habelə parlamentlərarası əlaqələrin ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Azərbaycanın Afrika qitəsi ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyi bildirilib.

Ölkəmizin Afrika ölkələri ilə qarşılıqlı səfərlərin intensivləşdirilməsi və müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Nazir Ceyhun Bayramov Azərbaycan Milli Məclisinin parlament diplomatiyasının inkişaf etdirilməsi, Afrika ölkələrinin parlamentləri ilə əlaqələrin möhkəmləndirilməsi və Pan-Afrika Parlamenti ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini xüsusi qeyd edib. Milli Məclis ilə Pan-Afrika Parlamenti arasında imzalanmış anlaşma memorandumunun mühüm əhəmiyyət daşıdığı bildirilib.

Tərəflər Azərbaycanın beynəlxalq və regional platformalarda sədrliyi və fəaliyyəti barədə də fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə hərəkatın institusional inkişafına mühüm töhfələr verdiyini bildirib. Bu çərçivədə Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılmasının, eləcə də hərəkat çərçivəsində həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

COVID-19 pandemiyası dövründə Azərbaycanın beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində irəli sürdüyü təşəbbüslər barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycan pandemiya ilə mübarizə çərçivəsində əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla 80-dən çox ölkəyə maliyyə və humanitar yardım göstərib, həmçinin postpandemiya dövründə Afrikada və Kiçik Ada İnkişaf etməkdə olan Dövlətlərində bərpa proseslərinin dəstəklənməsi üçün vəsait ayırıb. Bununla yanaşı, vaksinlərin bərabər paylanması ilə bağlı qətnamənin qəbul olunduğu xatırlanıb.

Azərbaycanın COP29 sədrliyi çərçivəsində inkişaf etməkdə olan ölkələrin, o cümlədən Afrika dövlətlərinin iqlim maliyyəsinə çıxışının genişləndirilməsi istiqamətində aparılan işlər və Bakıda qəbul olunmuş qərarların əhəmiyyəti qeyd olunub.

Görüş zamanı Azərbaycanın yerləşdiyi regionda oynadığı rol, Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər, habelə keçmiş Ermənistan-Azərbaycan münaqişəsindən sonra regionda yaranmış yeni reallıqlar barədə qarşı tərəfə məlumat verilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın ərazilərinin işğaldan azad edilməsindən sonra həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərindən bəhs edib. Azərbaycanın Afrika ölkələri ilə əməkdaşlığının yalnız siyasi və diplomatik sahə ilə məhdudlaşmadığı, enerji, nəqliyyat, kənd təsərrüfatı, mədən sənayesi, təhsil, humanitar və digər istiqamətlərdə əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu qeyd olunub. Azərbaycan tərəfindən Afrikada təhsil və tibbi proqramlara, eləcə də institusional potensialın inkişafına göstərilən dəstəyin əhəmiyyəti vurğulanıb.

Pan-Afrika Parlamentinin prezidenti Fateh Butbiq Azərbaycanın Afrika qitəsi ilə əlaqələrin inkişaf etdirilməsinə verdiyi önəmi, habelə parlament diplomatiyası və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi istiqamətində həyata keçirdiyi təşəbbüsləri yüksək qiymətləndirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokuror Şamaxı rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Sentyabrın 16-da baş prokuror Kamran Əliyev Şamaxı Rayon Prokurorluğunun inzibati binasında Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak etmiş 33 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*"Azərbaycan"*

# Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Qazaxıstan Respublikasına səfər edib

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti Mərkəzi Asiya dövlətləri və Azərbaycan Respublikası xüsusi xidmət orqanları rəhbərlərinin Qazaxıstan Respublikasında "Müasir təhdidlər şəraitində regional təhlükəsizliyin təmin olunması" mövzusunda keçirilən görüşündə iştirak edib.**




Bu barədə AZƏRTAC-a DTX-nin Mətbuat xidmətindən məlumat verilib.

Tədbirdə çıxış edən general-polkovnik Əli Nağıyev Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə iştirakının ölkələrimiz arasında münasibətlərin strateji xarakterini aydın şəkildə əks etdirdiyini vurğulayaraq Azərbaycanın bu formatın tamhüquqlu iştirakçısına çevrilməsinin regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edən tarixi addım olduğunu, ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə əlaqələrinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib.

DTX rəisi regional təhlükəsizliyə təhdidlər sırasında beynəlxalq terrorçuluq və dini ekstremizm, transmilli cinayətkar qruplaşmaların fəaliyyəti, narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsi ilə yanaşı, kibercinayətkarlığın müasir formalarının, habelə kritik infrastruktura yönəlmiş digər təhlükələrin də yer aldığını, cinayətkar və terrorçu qruplaşmaların nəqliyyat, kommunikasiya və digər həyati əhəmiyyətli obyektlərin fəaliyyətinə təsir göstərmək məqsədilə müasir informasiya texnologiyalarından istifadə imkanlarının xüsusi narahatlıq doğuran amil olduğunu qeyd edib.

General-polkovnik Əli Nağıyev dövlətlərimiz arasında münasibətləri səciyyələndirən qardaşlıq, qarşılıqlı hörmət və etimad mühitinin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Görüşün sonunda regional təhlükəsizliyin və sabitliyin daha da möhkəmləndirilməsi məqsədilə xüsusi xidmət orqanları arasında sıx əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə olunub.

# Seyid Yəhya Bakuviyə həsr olunmuş konfransın iştirakçıları Şuşa şəhəri ilə tanış olublar

**Görkəmli azərbaycanlı alim, ilahiyyatçı filosof Şeyx Seyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın iştirakçıları Qarabağa səfər proqramı çərçivəsində Şuşa şəhərində də olublar.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Cıdır düzünə gələn nümayəndə heyəti buradan açılan möhtəşəm mənzərəni seyr ediblər.

Sonra Yuxarı Gövhər ağa məscidini ziyarət edən nümayəndə heyətinin diqqətinə çatdırılıb ki, 30 ilə yaxın işğal dövründə şəhərdəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra şəhərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşanın tarixi-mədəni irsinin bərpası və qorunması istiqamətində də mühüm işlər görülüb.

Məlumat verilib ki, qədim Şuşada 17 məhəllə olub. Hər məhəllədə hamam, məscid və bulaq var idi. Qədim məhəllələrdəki tarixi-memarlıq nümunəsi olan bu tikililər, o cümlədən məscidlər də erməni vandalizminə məruz qalıb. Şəhər işğaldan azad olunduqdan sonra Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı, Mamayı və Çöl Qala məscidləri bərpa olunub, Yeni Şuşa məscidinin inşasına başlanılıb.

Konfrans iştirakçıları sonda tikintisi aparılan Yeni Şuşa məscidi ilə tanış olublar.

# Yəhya Bakuvi Beynəlxalq Konfransı Ağdamda davam edib

**Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində islam dünyasının mötəbər mütəfəkkiri, görkəmli azərbaycanlı alim, ilahiyyatçı filosof Şeyx Seyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın iştirakçıları Ağdam şəhərinə gəliblər.**





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, elmi-praktiki konfrans işini Ağdam şəhərində davam etdirib. Əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Ağdam Cümə məscidi Birinci Qarabağ müharibəsi dönəmində "şəhid məscidi" kimi yadda qalmışdı: "İşğal dövründə Qarabağda yerləşən 67-dən çox məscid, məbəd dağıdılıb, Ağdam məscidində isə donuz saxlanılıb. Hətta məscidin divarlarına islama qarşı yazılar yazılıb. Bu, yalnız Azərbaycan müsəlmanlarına deyil, bütün dünya müsəlmanlarına qarşı təhqirdir".

Şeyxülislam əlavə edib ki, hazırda dövlətimizin başçısının rəhbərliyi ilə Qarabağa yenidən həyat qayıdır, dağıdılan yerlər yenidən qurulur, məscidlər bərpa edilir və tikilir.

Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarındakı xüsusi nümayəndəsi Emin Hüseynov vurğulayıb ki, Ağdam şəhəri vaxtilə dağıntı və kədərin simvolu, "Qafqazın Hiroşiması" kimi xarakterizə olunurdusa, bu gün o, sülhün, təhlükəsizliyin və gələcəyə inamın rəmzinə çevrilir: "Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində dağıntıların yerində yeni həyat qurulur, məscidlər bərpa edilir, yaşayış məhəllələri salınır, məktəblər, xəstəxanalar, mədəniyyət və ictimai obyektlər inşa olunur. Bu, Qarabağın yalnız fiziki deyil, həm də mənəvi dirçəlişidir.

İşğaldan azad olunmuş ərazilərdə yalnız dağıdılmış məscidlər bərpa edilmir, yeni məscidlər də inşa olunur. Qarabağ yalnız yenidən qurulmur. Onun mənəvi həyatı da yenidən canlanır".

Ümumdünya İslam Məzhəblərinin Yaxınlaşdırılması Beynəlxalq Assambleyasının baş katibi Həmid Şəhriyari çıxışında regionda və dünyada sülhün, sabitliyin təmin olunmasına çağırış edib: "Ümid edirik ki, tezliklə Cənubi Qafqazda da davamlı sülh əldə ediləcək".

Türkiyədən olan dini nümayəndə Fatih Mehmet Karaca vurğulayıb ki, Türk Dövlətləri Təşkilatının müsəlman dini liderlərinin bir araya gəlməsi gələcəyə ümid və inam ifadə edən təşəbbüsdür: "Mən Ağdam Cümə məscidini təkrar ibadətə açan Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm. Məscid bir simvoldur, əsas məsələ bölgədə dağıdılan tarixin bərpası, yenidən inşasıdır. Bunu bacaran hər kəsə təşəkkür edirəm".

Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Xaliknazarov çıxışında Ağdam Cümə məscidinin yenidən öz əhlinə, öz müsəlmanlarına qayıtmasından məmnunluq ifadə edib: "Mən Özbəkistan müsəlmanları adından bu məscidin yenidən öz əhlinə, öz müsəlmanlarına qayıtmasından, öz diyarında yenə öz camaatına qovuşmasından məmnunluğumu bildirirəm. Bu məscid, bu diyar neçə-neçə günahsızların gözyaşlarının şahidi olub, şəhidlərin qanı bahasına azad edilib".

Digər çıxışlarda da tədbirin əhəmiyyəti yüksək qiymətləndirilib, işğaldan azad edilmiş ərazilərdə məscidlərin bərpa olunmasından məmnunluq ifadə edilib.

Sonra namaz qılınıb.

Konfrans iştirakçıları Ağdam Şəhidlər xiyabanını ziyarət ediblər.

# Yəhya Bakuvi Beynəlxalq Konfransının iştirakçıları Xankəndi şəhərində olublar

**İslam dünyasının mötəbər mütəfəkkiri, görkəmli azərbaycanlı alim, ilahiyyatçı filosof Şeyx Seyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın iştirakçıları Qarabağa səfər çərçivəsində Xankəndi şəhərinə gəliblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Zəfər meydanında olub. Qonaqlara Xankəndi şəhərində həyata keçirilən bərpa-quruculuq işləri, infrastrukturun yenidən qurulması haqqında məlumat verilib.

Konfrans iştirakçıları sonra Xankəndi şəhərində yaradılan Zəfər parkı ilə yaxından tanış olublar. Onlara məlumat verilib ki, park Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir.

Xankəndi şəhəri ilə tanışlıqdan sonra nümayəndə heyəti Şuşaya yola düşüb.

# "Azərbaycan türk dünyası ilə Qafqaz arasında mühüm geosiyasi körpüdür"

**Azərbaycan həm türk dünyasının, həm də Qafqazın ayrılmaz tərkib hissəsi kimi bu iki coğrafiyanı birləşdirən mühüm siyasi, iqtisadi və mədəni mərkəzlərdən biridir. Azərbaycanın yerləşdiyi strateji coğrafiya onun türk dövlətləri arasında əməkdaşlığın inkişafında, eyni zamanda Qafqazda sabitlik və regional inteqrasiya proseslərində rolunu daha da artırır.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk siyasi ekspert, Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri Bilal Dündar deyib.

Onun sözlərinə görə, Azərbaycanı yalnız Cənubi Qafqaz ölkəsi kimi qiymətləndirmək ölkənin regional və beynəlxalq əhəmiyyətini tam ifadə etmir.

"Azərbaycan tarix, dil, mədəniyyət və milli kimlik baxımından türk dünyasının mühüm hissəsidir. Eyni zamanda ölkənin Qafqazdakı coğrafi mövqeyi onu regionun siyasi və iqtisadi proseslərində əsas aktorlardan birinə çevirir. Son illərdə türk dövlətləri arasında münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etməsi Azərbaycanın bu prosesdəki rolunu daha da önə çıxarıb. Azərbaycan Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərini inkişaf etdirməklə yanaşı, Mərkəzi Asiyanın türk dövlətləri ilə də siyasi, iqtisadi və mədəni əlaqələrini genişləndirir. Azərbaycanın üstünlüklərindən biri onun həm Qərbə, həm Şərqə, həm də türk dünyasının müxtəlif coğrafiyalarına çıxış imkanlarının olmasıdır. Bakı bu baxımdan yalnız bir ölkənin paytaxtı deyil, müxtəlif regionları birləşdirən mühüm kommunikasiya və əməkdaşlıq mərkəzidir", - deyə Bilal Dündar qeyd edib.

Onun fikrincə, türk dünyasının inteqrasiyası yalnız mədəni və tarixi yaxınlıqla məhdudlaşmamalı, iqtisadiyyat, nəqliyyat, enerji, təhsil, elm, rəqəmsal texnologiyalar və humanitar əlaqələri də əhatə etməlidir. Bu baxımdan Azərbaycan-Türkiyə münasibətləri türk dünyasında əməkdaşlığın inkişafı üçün nümunə təşkil edir.

Ekspert Qafqaz amilinə də diqqət çəkərək qeyd edib ki, regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması bütün ölkələrin iqtisadi və sosial inkişafı üçün mühüm əhəmiyyət daşıyır: "Azərbaycanın Qafqazda nəqliyyat və kommunikasiya layihələrinin inkişafında iştirakı ölkənin regional bağlantıların gücləndirilməsinə verdiyi töhfəni artırır. Türk dünyası və Qafqaz bir-birindən ayrı geosiyasi məkanlar kimi deyil, qarşılıqlı əlaqədə olan regionlar kimi nəzərdən keçirilməlidir. Azərbaycanın bu iki məkanın kəsişməsində yerləşməsi isə onun regional əməkdaşlıq proseslərində xüsusi mövqeyini şərtləndirir. Azərbaycan türk dünyasının Qafqaza açılan qapılarından biridir. Eyni zamanda Qafqazın türk dünyası ilə əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayır. Buna görə də Azərbaycanın inkişafı və sabitliyi yalnız Azərbaycan üçün deyil, daha geniş coğrafiya üçün əhəmiyyətlidir".

Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri bildirib ki, qarşıdakı dövrdə Azərbaycan, Türkiyə və digər türk dövlətləri arasında əlaqələrin daha da genişləndirilməsi həm türk dünyasının potensialının üzə çıxarılmasına, həm də Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin güclənməsinə xidmət edə bilər.

Bilal Dündarın sözlərinə görə, ortaq tarixi və mədəni dəyərlər üzərində qurulan əməkdaşlıq müasir dövrün iqtisadi və geosiyasi reallıqları ilə tamamlandıqda türk dünyası ilə Qafqaz arasında daha sıx əlaqələrin formalaşması üçün geniş imkanlar yaranır.



# Azərbaycan hər zaman ikili standartlara qalib gəlib

## Prezident İlham Əliyev bəzi Qərb təsisatlarının ölkəmizə qarşı qərəzli mövqeyini faktlarla ifşa etdi

**Beynəlxalq münasibətlər sistemində ədalət və hüquq prinsiplərinin ikili standartların kölgəsində qalması heç kimə sirr deyil. Azərbaycan torpaqlarının işğal altında qaldığı 30 il ərzində bir sıra Qərb təsisatlarının sərgilədəyi qərəzli və qeyri-obyektiv yanaşma bunu aydın şəkildə nümayiş etdirdi. İşğal dövründə təcavüzkar Ermənistana qarşı heç bir addım atmayan, münaqişəni dondurmağa çalışan həmin mərkəzlər bu gün Azərbaycanın öz gücü hesabına ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini həzm edə bilmirlər. Vaxtilə işğalçıya göstərilməyən təzyiqlərin ədaləti öz gücünə bərpa etmiş Azərbaycana qarşı tətbiq edilməsi Qərb təşkilatlarının beynəlxalq hüquq prinsiplərindən nə qədər uzaqlaşdığını və öz siyasi maraqları naminə açıq şəkildə ikiüzlülük nümayiş etdirdiyini bir daha təsdiqlədi.**

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 15-də Bakıda keçirilən beynəlxalq konfrans iştirakçılarını qəbul edərkən səsləndirdiyi mühüm fikirlər həmin tarixi və siyasi reallıqların dəqiq təhlili olmaqla yanaşı, beynəlxalq aləmə ünvanlanmış prinsipial mesajlar kimi xüsusi əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, torpaqlarımızın otuzillik işğalı dövründə Ermənistanın həyata keçirdiyi vandallığa, tarixi və dini irsimizin təhqir olunmasına qarşı nümayiş etdirilən susqunluq və Azərbaycanın öz suverenliyini tam bərpa etməsindən sonra başlanan hücumlar eyni ədalətsiz yanaşmanın təzahürüdür.

İşğal dövründə torpaqlarımızın vəhşicəsinə talan edilməsi, şəhər və kəndlərimizin yerlə yeksan olması, tarixi-dini abidələrimizin ağır təhqirlərə məruz qalması dünya birliyinin və beynəlxalq təşkilatların gözü qarşısında baş verirdi. Lakin bu fəlakətlərə nəinki reaksiya verilirdi, əksinə, prosesləri tənzimləməli olan qurumlar faktiki olaraq işğalın ömrünü uzatmağa çalışırdılar.

Prezident İlham Əliyev bu tarixi həqiqəti və beynəlxalq təsisatların fəaliyyətsizliyini vurğulayaraq bildirib: "Dünya 30 il ərzində buna göz yumub. Ermənistanın arxasında duran böyük dövlətlər, o cümlədən və ilk növbədə mənfur Minsk qrupunun həmsədr ölkələri bütün bu işləri ört-basdır etmək istəyirdi. Ermənistan işğal edilmiş torpaqlara heç bir xarici müşahidəçi buraxmırdı. Ancaq Qərbdən və digər ölkələrdən olan pulla alınmış bəzi siyasətçiləri, ictimai xadimləri gətirirdilər ora göstərsinlər ki, onlar burada necə yaşayırlar. Amma beynəlxalq təşkilatlar buna səssiz qalıb. Birləşmiş Millətlər Təşkilatı, - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb".

Həqiqətən, 30 il ərzində cərəyan edən proseslər göstərdi ki, vasitəçilik missiyasını üzərinə götürmüş subyektlər ədalətli sülhün bərqərar olunmasında deyil, mövcud status-kvonun saxlanılmasında maraqlı idilər. İşğal müddətində törədilən cinayətlərin ört-basdır edilməsi, rüşvət və müxtəlif vasitələrlə ələ alınmış xarici siyasətçilər vasitəsilə saxta reallıqların yaradılması cəhdləri məhz bu yanaşmanın tərkib hissəsi idi. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasız qalması, Minsk qrupu kimi təşkilatların fəaliyyətsizliyi beynəlxalq hüququn kağız üzərində qaldığını sübut edirdi.

Hiddət doğuran məqam bu təşkilatların passivliyindən daha çox Avropanın aparıcı strukturlarının birbaşa təcavüzkarın yanında yer alaraq işğalçılıq siyasətinə siyasi dəstək verməsi idi. Dövlətimizin başçısı Avropa Şurası və Avropa Parlamentinin sərgilədiyi açıq tərəfkeşliyə də diqqət çəkib: "Avropa Şurası faktiki olaraq işğalı dəstəkləyib. Avropa Parlamenti işğalçı Ermənistana hər zaman dəstək verib və bu gün də bu belədir. Yəni bax, bu, bizə olan münasibətin kiçik bir təsviridir. Görün, biz kimlərlə üzbəüz qalmışdıq, yəni Ermənistan təkbaşına deyildi. Ermənistan təkbaşına olsaydı, bu məsələ çoxdan həll olunardı. Yaxud da ki, o vaxt bu işğala, bu vəhşiliyə, bu soyqırımına görə Ermənistana beynəlxalq sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan həll olunardı. Eləmədilər, bilərəkdən, qəsdən. İndi yeri gəldi-gəlmədi, hər yerə sanksiyalar qoyulur. Amma yaxşı, Ermənistan burada başqa dövlətin 20 faiz torpağını zəbt edib, 700 min insanı oradan qovub, 250 min insanı - azərbaycanlıları Ermənistandan qovub, dağıdıb hər şeyi, bütün şəhərləri. Sən niyə ona sanksiya tətbiq etmirsən? Bu, deməli, ikili standartlardır. Haradan gəlir bu ikili standartlar, aydın məsələdir".

Dövlət başçısının bu məsələyə yanaşması beynəlxalq siyasətdəki ikili standartların mahiyyətini ortaya qoyur. Yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının tapdanmasına, torpaqlarımızın zəbt olunmasına və şəhərlərimizin xarabalığa çevrilməsinə baxmayaraq, otuz il ərzində təcavüzkara qarşı heç bir sanksiya tətbiq edilmədi. Qərb institutlarının bu mövqeyi Ermənistanda arxayınlıq hissi yaradaraq onu yeni təxribatlara həvəsləndirirdi. Bu reallıq göstərir ki, Azərbaycan sadəcə Ermənistanla yox, onun arxasında duran və işğala göz yuman məkrli güclərlə və beynəlxalq şəbəkələrlə də üz-üzə qalmışdı.

Zaman keçdikcə və Azərbaycan öz hərbi-siyasi, iqtisadi potensialı hesabına ərazi bütövlüyünü bərpa etdikdən sonra həmin dairələrin qərəzi daha da kəskinləşdi. Ermənistana "gözünün üstündə qaşın var" deməyənlər Azərbaycanın öz suverenliyini təmin etməsi ilə barışa bilmədilər. Prezident İlham Əliyev bu gün də davam edən qarayaxma kampaniyasının səbəblərinə toxunaraq bildirib: "Baxın, indi Azərbaycan gücləndikcə, necə deyərlər, öz potensialını tam işə saldıqca, yenə də bizə qarşı Qərbdən çirkin media kampaniyası aparılır. Yəni bizi qaralayırlar, Azərbaycan haqqında hər gün yalan, iftira, böhtanla dolu yazılar dərc edilir".

Xüsusilə 2023-cü ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda separatçılığın kökünün kəsilməsi Qərbdəki bəzi mərkəzləri hərəkətə keçirdi. İşğal dövründə təcavüzkarı cəzalandırmayan Avropa strukturları ədaləti bərpa edən Azərbaycana qarşı təzyiq alətlərini işə salmağa cəhd göstərdilər. Dövlətimizin başçısı Avropa Şurasının bu addımını və Avropa Parlamentinin korrupsiyaya bulaşmış daxili mühitini ifşa edib: "Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər".

Bu faktlar Qərb institutlarının mənəvi və siyasi böhran içində olduğunu gözlər önünə sərir. Öz daxilindəki korrupsiya qalmaqallarını ört-basdır edən bir qurumun başqa dövlətlərə "demokratiya" və "insan hüquqları" dərsi keçməyə çalışması riyakarlıqdır. 2023-cü ilin sentyabrında separatçılığa son qoyulmasından cəmi dörd ay sonra Azərbaycana qarşı sanksiya xarakterli addımların atılması həmin təsisatların əsl simasını və qərəzli mahiyyətini bir daha nümayiş etdirdi.

Lakin bütün təzyiqlərə, yalan və böhtan kampaniyalarına baxmayaraq, Azərbaycan öz müstəqil xarici və daxili siyasətindən bir addım da geri çəkilmir. Şübhə yox ki, dövlətimizə və xalqımıza qarşı aparılan sistemli informasiya müharibəsinin kökündə duran əsas səbəb ölkəmizin nümayiş etdirdiyi prinsipiallıq və milli maraqlara söykənən mövqedir. Prezident İlham Əliyev çıxışında bu məqama xüsusi diqqət yönəldib: "Bizə qarşı elan edilməmiş bu qarayaxma kampaniyası heç vaxt dayanmayacaq. Nə üçün? Çünki biz heç kimin qabağında baş əymirik və əyməyəcəyik, öz sözümüzü deyirik, öz milli mənliyimizi qoruyuruq, öz həyat tərzimizi qoruyuruq. İmkan vermirik ki, xalqımıza və dinimizə yad olan bəzi meyillər Azərbaycanda kök salsın. Mənəviyyat keşikçiləriyik. Bax, buna görə bizə qarşı bu kampaniyalar aparılır".

Nəticə etibarilə Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər yalnız keçmişin acı reallıqlarına tutulan işıq deyil, həm də gələcək strategiyamızın ana xəttini təşkil edir. Azərbaycan məhz öz gücünə və milli birliyinə arxalanaraq tarixi zəfər qazandı və regionda yeni reallıqlar yaratdı. Qərbin bəzi dairələrinin, saxta dəyərlər pərdəsi arxasında gizlənən təşkilatların ikili standartları, təzyiq və böhtan cəhdləri Azərbaycanı haqq yolundan döndərə bilməz. Öz dəyərlərinə sahib çıxan Azərbaycan dövləti bundan sonra da heç bir təzyiqə boyun əymədən suveren inkişaf yolunu qətiyyətlə davam etdirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Dağıntılardan dirçəlişə, müharibədən sülhə

## Böyük qayıdış Qarabağ və Şərqi Zəngəzura yeni həyat gətirir

**Qarabağın son otuz ildən artıq tarixi Azərbaycan üçün müharibə və işğalın ağır nəticələri, məcburi köçkünlük, dağıdılmış şəhər və kəndlərlə yanaşı, torpaqların azad edilməsi, böyük quruculuq və insanların doğma yurdlarına qayıdışı ilə də yadda qalır. Bir zamanlar həyatın dayandığı, evlərin xarabalığa çevrildiyi ərazilərdə bu gün yeni yaşayış məhəllələri salınır, məktəblər tikilir, yollar çəkilir, müəssisələr yaradılır. Qarabağın mənzərəsi dəyişdikcə onun tarixində də yeni səhifə açılır.**





Lakin quruculuq keçmişi unutmaq demək deyil. Əksinə, bu torpaqlarda yüksələn hər yeni bina, bərpa edilən hər abidə və doğma yurduna qayıdan hər ailə ötən onilliklərin nə qədər ağır olduğunu bir daha xatırladır. Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında qaldı. Nəticədə yüzminlərlə azərbaycanlı məcburi köçkün vəziyyətinə düşdü, 20 mindən çox insan həlak oldu.

1988-1993-cü illərdə yüzlərlə yaşayış məntəqəsi, minlərlə yaşayış və ictimai bina, məktəb, tibb müəssisəsi, kitabxana və digər obyektlər dağıdılmışdı. İşğal yalnız insanların öz evlərindən didərgin düşməsi ilə nəticələnməmişdi. Qarabağ və Şərqi Zəngəzurun tarixi-mədəni simasına, dini irsinə, iqtisadi və sosial infrastrukturuna da böyük ziyan dəymişdi. Ağdam, Füzuli və digər yaşayış məntəqələrinin azad edilməsindən sonra üzə çıxan mənzərə dağıntıların miqyasını açıq-aydın göstərdi.

Tarixi və dini abidələr də bu dağıntılardan kənarda qalmayıb. İşğaldan azad olunmuş ərazilərdə məscidlərin, qəbiristanlıqların və digər mədəni irs nümunələrinin dağıdılması və təhqir olunması ilə bağlı faktlar göz önündədir. Azərbaycan tərəfinin açıqladığı məlumatlarda işğal altındakı ərazilərdə mövcud olmuş 67 məsciddən 65-i tamamilə dağıdılıb. Bu gün həmin abidələrin bir hissəsi bərpa olunur, digərləri isə konservasiya edilərək gələcək nəsillər üçün qorunur. Bu mənada Qarabağın bərpası yalnız şəhərsalma layihəsi deyil. Bu proses həm də tarixi yaddaşın, mədəni irsin və bir vaxtlar pozulmuş həyat ritminin bərpasıdır.

2020-ci ildən sonra Qarabağ və Şərqi Zəngəzurda başlanan genişmiqyaslı bərpa-quruculuq işləri regionun simasını sürətlə dəyişir. Yeni avtomobil yolları, tunellər, körpülər, elektrik stansiyaları, hava limanları, yaşayış kompleksləri, məktəblər, xəstəxanalar və istehsal müəssisələri yaradılır. Şəhər və kəndlər müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulur. Bu prosesin ən mühüm istiqaməti isə insanların geri qayıtmasıdır. Çünki şəhəri yalnız binalar deyil, orada yaşayan insanlar yaşadır. Otuz ilə yaxın öz doğma yurdlarından kənarda yaşayan keçmiş məcburi köçkünlərin geri dönüşü Qarabağın dirçəlişinin əsas göstəricilərindəndir.

Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri və müşahidəçiləri, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçıları və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən Böyük qayıdışın hazırkı miqyasına diqqət çəkib: "Bu gün Qarabağda və Şərqi Zəngəzurda artıq 48 şəhər və kənddə insanlar yaşayır. Yəni keçmiş köçkünlər qayıdıb, orada işləyənlər, təhsil alanlar məskunlaşıb. "Böyük qayıdış" proqramı uğurla icra edilir. Bax, dediyim bu şəhər və kəndlərdə artıq 90 mindən çox insan yaşayır. Yəni həyat qayıdıb və bu, bizim böyük nailiyyətimizdir, tarixi nailiyyətimizdir. Xalqımız 30 il ərzində əzab-əziyyət içində yaşayıb. Bu gün isə qalib xalq kimi, müzəffər dövlət kimi yaşayırıq".

Bu rəqəmlərin arxasında minlərlə insan taleyi dayanır. İllərlə doğma yurdlarını yalnız xatirələrində yaşadan insanlar indi həmin torpaqlarda yenidən ev qurur, övladlarını məktəbə aparır, təsərrüfat yaradır, işləyirlər. Bir vaxtlar köçkünlük ünvanı olan ailələrin həyatında "qayıdış" anlayışı artıq arzu deyil, reallıqdır. Böyük qayıdışın mahiyyəti də məhz bundadır, insanları yalnız əvvəl yaşadıqları coğrafiyaya qaytarmaq yox, həmin ərazilərdə dayanıqlı həyat qurmaq. Bunun üçün yaşayış evləri ilə yanaşı, iş yerlərinin, məktəblərin, səhiyyə və sosial xidmətlərin, nəqliyyat və kommunal infrastrukturun yaradılması vacibdir.

Quruculuğun sürəti nə qədər yüksək olsa da, Qarabağın keçmişi yeni şəhərlərin kölgəsində qalmamalıdır. Çünki otuz ilə yaxın davam edən münaqişənin ağrısı minlərlə ailənin həyat tarixinin bir hissəsidir. Prezident İlham Əliyev sentyabrın 15-dəki çıxışında müharibə illərində Azərbaycanın mövqeyini belə ifadə edib: "Biz Ermənistandan fərqli olaraq, əliyalın, mülki şəxslərə qarşı heç vaxt müharibə aparmamışıq. Bu, bizim xalqımızın mentalitetinə də, adətlərinə də ziddir. Mən hələ müharibə dövründə demişdim ki, biz intiqamımızı, qisasımızı döyüş meydanında almalıyıq və artıqlaması ilə aldıq da. Şəhidlərimizin qanı yerdə qalmadı. Biz şəhidlərimizin qanını düşməndən aldıq, düşməni məhv etdik, təslim olmağa məcbur etdik. Bir daha deyirəm, bu gün müzəffər xalq kimi qürurla yaşayırıq, qururuq".

Qarşıda duran əsas məsələlərdən biri müharibədən sonrakı mərhələdə regionda uzunmüddətli sabitliyin təmin olunmasıdır. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi son illərdə regional siyasətin əsas mövzularından birinə çevrilib. Bakı sülh prosesini dəstəklədiyini bəyan edir və regionda qarşıdurma səhifəsinin bağlanaraq əməkdaşlıq imkanlarının genişlənməsini öz mövqeyində önə çəkir. Ancaq sülh keçmişin silinməsi deyil. Tarixi yaddaşla gələcəyə baxmaq, bir-birini istisna edən anlayışlar olmamalıdır. Əksinə, yaşanmış faciələrin unudulmaması gələcək nəsillərin müharibənin hansı nəticələrə gətirib çıxardığını bilməsi baxımından əhəmiyyətlidir.

İşğaldan azad edilmiş ərazilərdə yaradılan İşğal və Zəfər muzeyləri, bərpaolunan tarixi və dini abidələr, qorunan dağıntılar da bu yaddaşın gələcək nəsillərə çatdırılmasına xidmət edir. Bir tərəfdə işğal dövrünün izləri, digər tərəfdə isə həmin torpaqlarda qurulan yeni şəhərlər, kəndlər dayanır. Bu iki mənzərə əsarətdən xilas olmuş torpaqların dünəni ilə bu günü arasındakı fərqi aydın şəkildə göstərir. Qarabağ məsələsinin sonrakı mərhələsi Azərbaycanın beynəlxalq və regional əlaqələri ilə də sıx bağlıdır. Türk dünyası, Qafqaz ölkələri və islam dünyası ilə münasibətlərin genişləndirilməsi Bakının xarici siyasət gündəliyində mühüm istiqamətlərdəndir. Prezident İlham Əliyev sentyabrın 15-dəki görüşdə bu məsələyə toxunaraq bildirib: "...Bizim birliyimiz hər birimizi gücləndirəcək. Çünki biz hər birimiz tək qalanda çətinliklərlə üzləşə bilərik. Amma Türk dünyası, Qafqaz, islam aləmi bir yerdə olanda heç kim bizə bata bilməz. Heç kim bizə qarşı ədalətsizlik edə bilməz. Ona görə də biz dövlət olaraq və dövlət siyasəti apararaq bu amili həmişə üstün tuturuq".

Otuz ilə yaxın davam edən işğalın vurduğu zərərin aradan qaldırılması uzunmüddətli prosesdir. Dağıdılmış şəhəri yenidən tikmək mümkündür, yolları və körpüləri bərpa etmək olar. İnsanların yaddaşında qalan itkiləri isə heç bir tikinti əvəz edə bilməz. Azərbaycan üçün Qarabağın yeni mərhələsinin əsas mənası da burada üzə çıxır: keçmişi unutmadan gələcəyi qurmaq. Müharibənin dağıtdığını sülh və quruculuqla əvəz etmək, doğma yurdlarına qayıdan insanların təhlükəsiz və davamlı həyatını təmin etmək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Qafqaz İslam Ordusunun komandanı İstanbulda yad edilib

**Qafqaz İslam Ordusunun Bakını daşnak-bolşevik işğalından azad etməsinin 108-ci ildönümü münasibətilə ordu komandanı Nuru Paşa Türkiyənin İstanbul şəhərində yad olunub.**



AZƏRTAC xəbər verir ki, İstanbul-Azərbaycan Həmrəylik və Mədəniyyət Dərnəyi (İSTAD) ilə Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) birgə təşəbbüsü ilə Nurun Paşanın dəfn edildiyi məzarlıqda təşkil olunan anım tədbirində ölkəmizin İstanbuldakı baş konsulu Zamin Əliyev, Ənvər Paşanın qardaşı oğlu Enis Buldanlıoğlu, Çekmeköy Bələdiyyəsinin sədr müavini Vefa Budak, TADEF-in sədr müavini Pərviz Məmmədzadə, çox sayda qeyri-hökumət təşkilatlarının rəhbərləri, media nümayəndələri və digərləri iştirak ediblər.

Şəhidlərin xatirəsinin yad edilməsi ilə başlayan tədbirdə İSTAD-ın rəhbəri və TADEF-in mətbuat katibi Səfər Qaraqoyunlu, baş konsul Zamin Əliyev, TADEF-in sədr müavini Pərviz Məmmədzadə və digərləri çıxış ediblər.

Natiqlər Qafqaz İslam Ordusunun Bakıya gəlişinin və şəhərin işğaldan azad edilməsinin türk dünyasının tarixi baxımından böyük əhəmiyyət daşıdığını bildiriblər.

Qeyd edilib ki, Nuru Paşa ən çətin günlərdə Azərbaycanın yanında olub. O, yalnız hərbi komandan kimi deyil, iki ölkə arasındakı qardaşlığın tarixi rəmzlərindən biri kimi xatirələrə həkk olunub və daima Azərbaycan xalqı tərəfindən minnətdarlıqla yad edilir.

Mərasimdə Azərbaycanın müstəqillik mübarizəsi, 44 günlük Vətən müharibəsinə gedən yol və tarixi Zəfərdən bəhs edilib. Bu Qələbənin Azərbaycan və Türk dünyası üçün tarixi əhəmiyyətinə toxunulub.

Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını vurğulayaraq, Türkiyə ilə Azərbaycan arasındakı sarsılmaz qardaşlıq bağlarına xüsusi diqqət çəkiblər.



# Yaralar sağalacaq, amma qan yaddaşımız heç vaxt unudulmayacaq

**"Ancaq biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq. Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun".**

Sentyabrın 15-də Prezident İlham Əliyevin beynəlxalq konfrans iştirakçıları ilə görüşündəki nitqi bir daha göstərdi ki, Azərbaycan öz haqq savaşında qazandığı Zəfərlə yanaşı, 30 illik işğal dövründə qarşılaşdığı vəhşilikləri də heç vaxt unutmayacaq.

Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edən zaman dövlətimizin başçısı qonaqların Qarabağa - Ağdam, Xankəndi, Xocalı və Şuşa şəhərlərinə səfər edəcəklərini xatırladaraq bildirdi ki, onlar burada həm 30 illik işğalın ağır fəsadlarını, həm də bu gün dirçələn yeni Qarabağın simasını öz gözləri ilə görəcəklər.

## Vandal düşmən tərəfindən 65 məscidimiz dağıdılıb

İki əsr boyu Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti aparan Ermənistan 1990-cı illərin əvvəllərində ərazilərimizin 20 faizini işğal edərək yüz minlərlə soydaşımızı doğma ocağından didərgin salıb. Xocalıda qanlı soyqırımı həyata keçirərək bəşəri cinayət törədən düşmən torpaqlarımızı 30 il ərzində işğal altında saxlayıb. Vətən müharibəsində Zəfər qazanan və 2023-cü il antiterror əməliyyatları zamanı suverenliyini tam bərpa edərək Qarabağda separatizmi məhv edən ölkəmiz xalqımıza qarşı törədilən cinayətlərin qisasını döyüş meydanında aldı. Müharibədən dərhal sonra quruculuq işlərinə start verən Azərbaycan çox keçmədən Böyük qayıdışı da uğurla həyata keçirməyə başladı.

Bütün bu faktları konfrans iştirakçılarının diqqətinə çatdıran Prezident İlham Əliyev söylədi ki, Ermənistan məscidlərdə bilərəkdən heyvan saxlayırdı: "Yəni bizi təhqir etmək, bizi aşağılamaq üçün, bizim həssaslığımızı dərk edərək, yəni qəsdən xalqımızı daha da incitmək üçün belə vəhşi əməllərdən də çəkinmədi. Əslində bu, təkcə bizə, xalqımıza yox, bütün islam dünyasına bir təhqir idi. Bax, budur Ermənistan dövlətinin əsl siması. Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq".

30 illik işğal dövründə Ermənistan Qarabağ və Şərqi Zəngəzurda tarixi, mədəni və dini irsimizə də qənim kəsilib.

ABŞ Dövlət Departamentinin dünyada dini etiqad azadlığının vəziyyəti ilə bağlı 2021-ci il üçün illik hesabatında da Ermənistanın işğal dövründə törətdiyi vandalizm ifşa edilir. Qeyd olunur ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş diplomatların, vətəndaş cəmiyyəti nümayəndələrinin və jurnalistlərin sözlərinə görə, Ermənistanın nəzarəti altında olarkən bu ərazilərdə yüzlərlə abidə, etnik azərbaycanlıların istifadə etdiyi məscidlər, ziyarətgahlar talan edilib, vandalizmə, təhqirlərə məruz qalıb və ya tamamilə dağıdılıb. Məsələn, Füzuli rayonundakı 19-cu əsrə aid olan Hacı Ələkbər məscidinin ermənilər tərəfindən dağıdılmasını, Ağdamdakı Cümə məscidinin üzərində erməni dilində qrafiti yazılmasını və mehrabının güllələnməsini qeyd etmək olar. Ağdam rayonundakı qəbiristanlıqlar, o cümlədən şəhərin Şəhidlər xiyabanı və İmarət Qərvənd qəbiristanlığının 18-ci əsrə aid müqəddəs və tarixi məqbərələri təhqir edilib, talan edilib və ya dağıdılıb.

Ümumiyyətlə, erməni barbarları mədəni irsimizə qənim kəsiliblər, tarixi Azərbaycan ərazisi olan İrəvan quberniyası ərazisində 300 məscidi Yer üzündən siliblər. 30 il ərzində işğalda saxladıqları Qarabağ və Şərqi Zəngəzurda 65 məscid Ermənistan dövləti tərəfindən tamamilə dağıdılıb.

Üç onillik boyu işğal altında olan ərazilərimizdə daşı daş üstündə qoymayan Ermənistan bununla həm azərbaycanlıların bir daha öz yurdlarına qayıtmasını əngəlləməyə çalışıb, həm də talançılıq həyata keçirib. Hətta vandal düşmən qəbir daşlarını, məzarları qazaraq rəhmətə getmiş insanların qızıl dişlərini belə söküb aparıb.

Sentyabrın 15-də Bakıda keçirilən beynəlxalq konfransların iştirakçıları ilə görüşdə ölkəmizin rəhbəri İlham Əliyev söylədi ki, bütün bunları dünya bilməlidir: "Dünya 30 il ərzində buna göz yumub. Ermənistanın arxasında duran böyük dövlətlər, o cümlədən və ilk növbədə, mənfur Minsk qrupunun həmsədr ölkələri bütün bu işləri ört-basdır etmək istəyirdi".

## Sülhü qorumağın ən etibarlı yolu

Ancaq Ermənistanın törətdiyi vəhşiliklər, bəzi xarici dairələrin qərəzli, ikilistandartlı yanaşmaları Azərbaycanı haqq işindən döndərə bilmədi. Qarabağ və Şərqi Zəngəzur əsl sahiblərinə qovuşdu. İkinci Qarabağ müharibəsindən dərhal sonra azad edilmiş torpaqlarda bərpa və quruculuq işlərinə start verildi. Dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda bərpa etdiyi ilk obyektin məhz Ağdam Cümə məscidi olmasının öz mənəvi rəmzi var idi. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu, xalqımızın öz milli-mənəvi dəyərlərinə və dininə olan sonsuz ehtiramının təzahürü idi.

İndiyə qədər Qarabağ və Şərqi Zəngəzurda 12 məscid ya tamamilə, ya da yarıdağılmış vəziyyətdən bərpa edilərək yenidən qurulub. Şuşada yeni məscidin tikintisi sürətlə davam edir.

Türk dünyasının və islam aləminin nümayəndələrinin azad edilmiş ərazilərə səfərləri, törədilmiş barbarlığı öz gözləri ilə görmələri beynəlxalq müstəvidə həqiqətlərin çatdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycanın qazandığı şanlı Zəfər bu gün Cənubi Qafqazda qan-qadaya son qoyub. Xüsusilə ötən il avqustun 8-də Vaşinqtonda imzalanan Birgə Bəyannamədən, paraflanan sülh sazişi mətnindən sonra Ermənistanla Azərbaycan arasında sülh prosesi irəliləyir, bu istiqamətdə əməli addımlar atılır. Bakının səyləri sayəsində regionda başlayan yeni dövr beynəlxalq əməkdaşlıq üçün də geniş qapılar açıb.

Azərbaycanın atdığı sülhpərvər addımlar və bölgədə yaratdığı yeni reallıqlar uzunmüddətli sabitliyə xidmət edir. Lakin keçmişin acı dərsləri bizə öyrədir ki, sülhü qorumağın ən etibarlı yolu güclü olmaqdan və tarixi yaddaşı unutmamaqdan keçir.

Prezident İlham Əliyevin vurğuladığı kimi: "Biz ayıq olmalıyıq, ayığıq və eyni zamanda öz hərbi gücümüzü də artırırıq. Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Sülhə xidmət edən türk dünyası birliyi

## Azərbaycan Türk Dövlətləri Təşkilatının əmin-amanlığa xidmət missiyasına öz töhfələrini verir

**Türk Dövlətləri Təşkilatının (TDT) əmin-amanlığa və sülhə xidmət missiyası dünyanın tərəqqipərvər insanlarında məmnunluq doğurur. Türk Dövlətləri Təşkilatı (TDT) hazırda ən effektiv təşkilatlardan biridir, onun regional və qlobal aləmdə ildən-ilə rolu artır. Bu, TDT-nin regional və beynəlxalq aktor kimi özünü təkmilləşdirməsi baxımından çox önəmlidir. Bu mənada Azərbaycan türk dünyasının və Qafqazın tərkib hissəsi kimi bölgədə yaşayan bütün xalqları dinindən və irqindən asılı olmayaraq bir-birinə bağlayan multikultural ölkə kimi mühüm dəyərə malikdir.**

Bəşəriyyətin narahat və qayğılı günlərində türk dünyasında köklü və mədəni bağları möhkəmləndirən və inkişaf etdirən Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarə Rəhbərləri Şurasının üzvləri və müşahidəçiləri, paytaxtda keçirilən Yəhya Bakuvi Beynəlxalq Konfransının iştirakçıları bir neçə gündür Bakıdadırlar. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən demişdir: "Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı keçirilir. Bu, özlüyündə böyük bir beynəlxalq tədbirdir. Eyni zamanda bu günlərdə Bakıda böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans keçirilir və çoxlu qonaqlarımız bu konfransda iştirak edirlər.

Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır".

Ölkəmizin tarixinə baxanda açıq-aydın görünür ki, qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud olub və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi. Qəbələ bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir. Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

Türk Dövlətləri Təşkilatı bu baxımdan regional dayanıqlılığı artıran, iqtisadi inkişafı dəstəkləyən, beynəlxalq əməkdaşlığa açıq bir vizyon daşıyır. Xəzər və müxtəlif marşrutlar üzrə enerji və nəqliyyat sahəsində əməkdaşlıq, ticarət əlaqələri, rəqəmsal iqtisadiyyat, süni intellekt, təbii fəlakətlər və fövqəladə hallara hazırlıq da daxil olmaqla bir çox sahədə yaradılan tərəfdaşlıqlar türk dünyasının malik olduğu böyük potensialı ortaya qoyur.

Gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü keçiriləcək. Siyasətçi-mütəxəssislərin fikrincə, dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi təsadüfi deyil. Azərbaycan Prezidentinin çıxışında deyildiyi kimi: "Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, islam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik. Ona görə hesab edirəm ki, sizin Bakıda olmağınız və bir yerdə tədbirlərdə iştirakınız, yenə də deyirəm, həm bölgəmizə, həm dünyaya çox ciddi və birmənalı mesajlar verəcəkdir".

Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri və müşahidəçiləri, böyük filosof, mötədil islamı təbliğ edən Seyid Yəhya Bakuvi Beynəlxalq Konfransının iştirakçılarının məram və məqsədindən aydın olur ki, türk dünyası, Qafqaz, islam aləmi bir yerdə olanda heç kim onlara qarşı ədalətsizlik edə bilməz. Ona görə də Türk Dövlətləri Təşkilatı öz fəaliyyətində əmin-amanlığa və sülhə xidmət etməklə bütün islam ölkələri və türk dövlətləri ilə əlaqələri genişləndirir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Ölkəmizin islam dünyasında uğurlu həmrəylik yolu

**Azərbaycan tarixən müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkanlardan biri olub. Bu, müasir dövrdə də ölkənin ictimai həyatında və xarici siyasətində özünü aydın şəkildə göstərir. Müxtəlif dini və etnik icmaların qarşılıqlı hörmət şəraitində yaşaması, mədəni müxtəlifliyin qorunması və dinlərarası dialoqun təşviqi respublikamızın multikulturalizm və tolerantlıq siyasətinin əsas istiqamətlərindəndir. Bu yanaşma Azərbaycanın yalnız ayrı-ayrı dövlətlərlə deyil, beynəlxalq və regional təşkilatlarla münasibətlərində də öz əksini tapır.**

Bu baxımdan son günlər Bakıda keçirilən tədbirlər xüsusi diqqət çəkir. Sentyabrın 14-də Türk Dövlətləri Təşkilatının üzv ölkələrinin Müsəlman Dini İdarə Rəhbərlərinin VII görüşünün keçirilməsi və Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın təşkili Azərbaycanın dini-mədəni irsə və dialoqa verdiyi əhəmiyyətin növbəti nümunəsidir. Ölkəmizin multikultural və tolerant mühiti onu müxtəlif dinlərin və sivilizasiyaların nümayəndələri arasında dialoqun aparılması üçün əlverişli məkana çevirib.

Sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev türk dünyası və Qafqaz xalqları ilə sıx əlaqələrimizin olduğunu vurğulayıb. Bu tədbirlərin əhəmiyyətini diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir: "Müsəlman dini liderlərin hər bir sözü, təbii ki, müsəlman icmaları üçün çox dəyərlidir, qiymətlidir. Bu sözlər sülhə, əməkdaşlığa, əmin-amanlığa, barışığa istiqamətləndirilirsə, deməli, yaşadığımız bölgələrdə də sülh və əmin-amanlıq üstünlük təşkil edəcək".

Dövlətimizin başçısı bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələrdən narahatlığını ifadə edib. Bildirib ki, biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, islam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək.



Beynəlxalq siyasətində dini dəyərlərə hörmətə, müxtəlifliyin qorunmasına və qarşılıqlı anlaşmanın təşviqinə böyük əhəmiyyət verən Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətləri xüsusi əhəmiyyət daşıyır. Böyük regional qurum olan İslam Əməkdaşlıq Təşkilatı üzv dövlətlərin sosial-iqtisadi, ictimai-siyasi, elmi və mədəni həyatında mühüm rol oynayır.

Azərbaycanın İƏT ilə əlaqələri də müxtəlif sahələri əhatə edir. Ölkəmiz təşkilat çərçivəsində əməkdaşlığın inkişafına, üzv dövlətlər arasında qarşılıqlı əlaqələrin genişləndirilməsinə və ümumi problemlərin həlli istiqamətində birgə fəaliyyətə xüsusi əhəmiyyət verir. Bu əlaqələr Azərbaycanla islam dünyası arasında siyasi münasibətlərlə yanaşı, sosial, iqtisadi, humanitar, elmi və mədəni əməkdaşlığın da inkişafına xidmət edir.

Azərbaycan İƏT məkanında fəal təşəbbüslərlə çıxış etməklə yanaşı, təşkilat çərçivəsində müxtəlif beynəlxalq tədbirlərin keçirilməsinə də mühüm töhfələr verib.

2013-cü ilin aprelində Bakıda İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin konfransının keçirilməsi də belə təşəbbüslərdən biri olub. Tədbirdə əmək, miqrasiya, işçi qüvvəsi, təcrübə mübadiləsi və sosial müdafiə sahələrində gələcək əməkdaşlığın prioritetlərini müəyyənləşdirən Çərçivə Sənədi qəbul edilib, Azərbaycanın təşəbbüsü ilə İƏT Əmək Mərkəzinin yaradılması barədə qərar verilib. Həmin ilin oktyabrında Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrliyi dövründə BMT və İƏT arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi mövzusunda yüksəksəviyyəli iclasın keçirilməsi də Azərbaycanın islam dünyası ilə əməkdaşlığa beynəlxalq müstəvidə də əhəmiyyət verdiyini göstərib.

Dövlətimizin başçısı Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı və ICESCO xətti ilə bir çox tədbirin keçirildiyini diqqətə çatdırıb: "Hələ təxminən 10 il bundan əvvəl - 2017-ci ildə bizim təşəbbüsümüzlə və bütün müsəlman ölkələrinin dəstəyi ilə Bakıda IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Biz də bu Oyunları, sadəcə olaraq, idman yarışı kimi deyil, böyük birlik bayramı kimi qəbul edirdik".

2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi və Azərbaycan Prezidentinin sərəncamı ilə həmin ilin "İslam Həmrəyliyi İli" elan edilməsi islam həmrəyliyinin möhkəmləndirilməsi, islam dəyərlərinin dünyada təbliği baxımından mühüm hadisələrdən olub. Bakıda keçirilən Oyunlar İslam dünyasının müxtəlif ölkələrindən olan idmançıları bir araya gətirməklə yanaşı, ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün mühüm platformaya çevrilib.

"İslam Həmrəyliyi İli"ndə islam dünyasının ortaq dəyərlərinin qorunması və gələcək nəsillərə çatdırılması, müsəlman ölkələri arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılan mühüm addımlar sonrakı illərdə də davam etdirilib.

Gələn il islam dünyasının diqqəti yenidən Azərbaycana yönələcək. İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü ölkəmizin paytaxtında keçiriləcək. Dövlətimizin başçısının bildirdiyi kimi, dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi təsadüfi deyil. Azərbaycanın təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış etdiyini vurğulayan Prezident İlham Əliyev gələn il Azərbaycanda keçiriləcək bu Zirvə görüşünün çox gözəl nəticələri olacağına əminliyini ifadə edib: "Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, islam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik".

Azərbaycanın qarşısında duran əsas məqsədlərdən biri müxtəlif dini və mədəni platformalarda əməkdaşlığın daha da genişləndirilməsi, xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi və dialoq imkanlarının artırılmasıdır. İƏT Zirvə görüşünün 2027-ci ildə Bakıda keçirilməsi də Azərbaycanın islam dünyası ilə münasibətlərinin inkişafı baxımından mühüm hadisə olacaq. Dünyada və xüsusilə müsəlman aləmində mürəkkəb proseslərin davam etdiyi bir vaxtda belə bir toplantının Azərbaycanda keçirilməsi ölkəmizin dialoqa, əməkdaşlığa və həmrəyliyə verdiyi əhəmiyyətin növbəti ifadəsinə çevriləcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



# Prezident İlham Əliyevin geosiyasətin etikası barədə mühüm mesajları

**Prezident İlham Əliyevin müsəlman dünyasında ayrı-seçkilik yaradılması cəhdləri ilə bağlı mesajları, ATƏT, Avropa Parlamenti və Avropa Şurasına yönələn haqlı tənqidləri geosiyasətin mənəviyyatdan ayrı olmadığını göstərir.**

## İslam dünyasının vahid cəbhədə birləşdirilməsi ideyası

Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq konfransların iştirakçıları ilə görüşündə XII əsrdən XVI əsrə qədər (Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Yəhya Bakuvi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli) uzanan böyük bir irsi sadalayıb. Bununla da Azərbaycanın əsrlər boyu elmə, mədəniyyətə, ədəbiyyata fasiləsiz töhfə verdiyi barədə dərin məzmunu bölüşüb.

Dövlətimizin başçısından sitat: "Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün islam aləmi üçün çox böyük dəyərdir".

Deməli, Prezident İlham Əliyev Azərbaycanın dünyaya bəxş etdiyi tarixi şəxsiyyətlər və onların irsi üzərindən formalaşmış dəyərləri gələcəyə baxışda vacib nüans hesab edir.

Bu anlayışlarla geosiyasi səbəb-nəticə əlaqələrinin qurulmasına baxmaq lazımdır. Prezident İlham Əliyevin tezislərinin dərin geosiyasi məzmunu həmin strukturda iki əsas məqamı nəzərə çatdırır:

*- Geosiyasi maraqlar ədalətə əsaslananda onun nəticələrinin uğurlu qalması dayanıqlı və davamlı olur. Azərbaycanın xarici siyasətdəki yanaşmaları məhz bu formula əsaslanır;*

*- Azərbaycanın qazandığı geosiyasi nailiyyətlərin arxasında güclü genetik və mənəvi kodlar, dərin tarixi miras dayanması həqiqətdir.*

Prezident İlham Əliyevin irəli sürdüyü konsepsiya regionlararası sivilizasiya modelinə fundamental tərəflərdən yanaşır. Bu cəhətdən müsəlman-türk dünyasının bir parçası olan Azərbaycan üçün ortaq irs əsasında multiregional mənəvi bağlantılar ön planda dayanır.

Bunun qarşısında dayanan maneələri aradan qaldırmaq üçün Azərbaycanın səyləri diqqətəlayiqdir. Prezident İlham Əliyevin çağırışlar barədəki formulunu belə xarakterizə etmək olar:

*- Müsəlman dünyasındakı gərginliklərdən narahat olan Azərbaycan islam həmrəyliyini idman və mədəniyyət platformaları vasitəsilə praktiki müstəviyə daşıyır;*

*- İslam Əməkdaşlıq Təşkilatının Bakıda keçiriləcək növbəti zirvə görüşü ölkəmizin qlobal arenadakı birləşdirici və barışdırıcı vasitəçi rolunun növbəti təsdiqi olacaq;*

*- Azərbaycanın əsas hədəfi müsəlman ölkələri arasındakı ixtilafları müştərək səylərlə bitirmək və islam dünyasını parçalamaq istəyən xarici təhdidlərə qarşı vahid cəbhə formalaşdırmaqdır. Burada digər məqsəd islam dininə zərbə vurmaq istəyən qüvvələri yerində oturtmaqdır.*

Bu mövqe müsəlman coğrafiyasına ünvanlanan çağırış olmaqla, iki əsas məqamı geosiyasətin sərhədlərində müəyyənləşdirir. Birincisi, Azərbaycan geosiyasi ambisiyaların mənəvi dəyərləri üstələdiyi müasir dünya nizamında tarixə, onun mirasına və cəmiyyətlərdəki inanclara dərin hörmətlə yanaşır. Bu, beynəlxalq hüququn praktiki olaraq icrasına dair yaxşı presedentdir.

İkincisi, müsəlman dünyasına qarşı qlobal məkanda nümayiş etdirilən selektiv yanaşmalara qarşı birlik nümayiş etdirilməsi vacibdir. Azərbaycan bu məsələyə dair böyük məsuliyyəti üzərinə götürür.

## Avropa Parlamentinin ifşası

Azərbaycan beynəlxalq hüquqda ayrı-seçkiliyə məruz qalan ölkə olub. Ermənistan-Azərbaycan münaqişəsi zamanında nə BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilib, nə də rəsmi İrəvana qarşı sanksiyalar tətbiq edilib.

Bunlar yetmirmiş kimi, Avropa Şurası, Avropa Parlamenti kimi qurumlar Ermənistanın və erməni lobbisinin maraqları çərçivəsində Azərbaycana qarşı mövqe tutublar. Qarayaxma kampaniyası əsasında strukturlaşdırılan qərəzli mövqe Azərbaycan ərazi bütövlüyü və suverenliyini təmin etdikdən sonra daha açıq müstəviyə keçib.

Prezident İlham Əliyev keçirdiyi qəbulda Qərb geosiyasətində təzyiq alətinə çevrilən Avropa Şurası və Avropa Parlamentinin "fəlsəfəsi" ifşa edilib.

Dövlətimizin başçısı bununla beynəlxalq münasibətlər sisteminin ən ağrılı nöqtəsini - geosiyasətin mənəviyyatdan təcrid edilməsini Avropa Şurası və Avropa Parlamentinin timsalında aşağıdakı faktlarla göstərir:

*- Avropa Şurasının Azərbaycan öz suverenliyini və beynəlxalq hüququ bərpa etdikdən cəmi dörd ay sonra Bakıya qarşı sanksiya mexanizmini işə salması qlobal ədalətsizliyin bariz nümunəsidir;*

*- Başqalarına şəffaflıq və demokratiya dərsi keçməyə çalışan Avropa Parlamentinin özü rüşvətxorlar yuvasıdır.*

Xatırladaq ki, 2022-ci ildəki "Qatargate" kimi irimiqyaslı korrupsiya qalmaqalı (məsələn, AP-nin vitse-prezidenti Eva Kailinin evindən nağd pul kisələrinin tapılması) Avropa Parlamentinin daxilindəki çirkli maliyyə və lobbi mexanizmlərini açıq şəkildə üzə çıxarır. O, 2022-ci il dekabrın 13-də Avropa Parlamentində keçirilən səsvermə nəticəsində (625 lehinə, 1 əleyhinə səslə) bu vəzifədən azad edilib. Bu faktlar Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qərəzli qətnamələrin arxa planını və ikili standartlarını aydın nümayiş etdirir.

*- Avropa Parlamenti islamofoblardan ibarət bir təşkilatdır. Bu, Şərqə və müsəlman-türk dünyasına baxışdakı ayrı-seçkilik xəttini həyata keçirir.*

## Nəticə

Müasir beynəlxalq münasibətlər sistemində güc mərkəzlərinin geosiyasi maraqları tez-tez ədalət və beynəlxalq hüquq prinsiplərinin üstündən xətt çəkir. Belə mürəkkəb qlobal mühitdə Azərbaycan milli maraqlarını, mənəvi dəyərlərini qorumaqla sivilizasiyalararası dialoqa əsaslanan müstəqil siyasət nümunəsi ortaya qoyur.

Prezident İlham Əliyev çıxışında qeyd olunan prizmalardan uğurlu geosiyasətin mənəvi dəyərlərdən və tarixi köklərdən ayrı təsəvvür edilmədiyini göstərir. Dövlətimizin başçısı bununla da geosiyasətin etikası barədə mühüm yanaşmalar sərgiləyir.

Azərbaycan müsəlman coğrafiyasında mövcud olan gərginlikləri aradan qaldırmağa, islam həmrəyliyini gücləndirməyə və ortaq maraqlar ətrafında vahid cəbhə yaratmağa çalışır.

Ermənistan-Azərbaycan münaqişəsi dövründə səssiz qalan beynəlxalq qurumlar ölkəmiz suverenliyini bərpa etdikdən sonra açıq təzyiq və sanksiya siyasətinə keçiblər. Bu, onların ikili standartlarına aid təkzibedilməz faktdır.

Avropa Parlamenti və Avropa Şurasının Azərbaycana qarşı qəbul etdiyi qərəzli qərarlar bu təşkilatların islamofob mahiyyətini və maliyyə-lobbi maraqlarından asılılığını açıq şəkildə nümayiş etdirir. Azərbaycana qarşı kampaniyaları icra edən qurumların özləri isə indi institusional böhran keçirirlər.

Beləliklə, Azərbaycan zəngin tarixi-mədəni irsinə güvənərək, qlobal müstəvidə ədalətsizliklərə qarşı barışdırıcı və prinsipial mövqeyini qətiyyətlə qoruyur.

# Qafqaz Albaniyası: tarixi irs və varislik ənənəsi

**E.ə. IX əsrin birinci yarısında Şərqi Anadoluda Van gölü hövzəsində yaşayan tayfaların siyasi birliyi kimi meydana gəlmiş Urartu dövləti Orta Araz hövzəsi ilə Göyçə gölü arasındakı torpaqlarda yaşayan yerli tayfalar üzərinə həm xərac almaq, həm də canlı qüvvə olaraq çoxsaylı əsirlər ələ keçirmək məqsədi ilə hərbi yürüşlər etmişdir.**




Cənubi Qafqazda Alban ölkəsinin adına ilk dəfə e.ə. VIII əsrin ortalarına aid Urartu mixi yazılı kitabəsində rast gəlinir. Ümumiyyətlə, Urartu mixi yazılı kitabələrində albanlarla yanaşı, bir çox tayfaların müasir dövrdə Ermənistan adlandırılan Azərbaycanın tarixi qərb torpaqlarının qədim sakinləri olduğu məlumdur. Bu kitabələrdə albanların, iskitlərin və utilərin adları çəkilir, amma nə hay, nə də erməni adlı etnik ünsürdən bəhs edilmir. Urartu kitabələri sübut edir ki, müasir Ermənistan ərazisində ən qədim dövlətçilik ənənələri məhz Azərbaycan xalqının etnogenezində fəal iştirak etmiş iskitlər, albanlar və utilər kimi böyük tayfa birliklərinin hərbi-siyasi fəaliyyəti ilə bağlı olaraq təşəkkül tapmışdır. Urartulular Uti ölkəsini Etiuni, Alban ölkəsini isə Ku-Alban adlandırırdılar. E.ə. IX əsrin sonundan etibarən Urartu hökmdarları İşpuini və oğlu Minuanın hakimiyyəti dövrlərinə aid mixi yazılı kitabələrdə Göyçə gölünün qərbini əhatə edən Etiuni ölkəsində (KUR.Etiuni [illegible]), e.ə. 743-742-ci illərdə isə II Sardurinin hücumlarından bəhs edən qədim Tuşpa (Van) qalasındakı Analıqız (Xəzinə qapısı) mixi yazılı kitabəsində Ku-Alban (KUR.Ku-Alban [illegible]) ölkəsindən bəhs edilir. Bu mənbələrdən məlum olur ki, e.ə. I minilliyin əvvəllərində Alban və Uti ölkələrinin tarixi-coğrafi hüdudları Kür çayının sağ sahili torpaqlarını, yəni Göyçə gölü hövzəsini əhatə edirmiş.



**Analıqız kitabəsi - Ku-Alban ölkəsindən bəhs edən ilk mənbə *(e.ə.VIII əsrin ortaları)***

Alban ölkəsinin adının e.ə.VIII əsrin ortalarına aid Urartu kitabəsində, həmçinin Göyçə gölünün cənub-şərqinə aid bölgədə çəkilməsi, əslində, albanların Kür çayının sağ sahilində, daha qədim zamanlardan yaşadığını sübut edən tutarlı dəlildir. Halbuki müasir albanşünaslıq elmində belə bir fikir var ki, Albaniya dövləti Kürün sol sahilində meydana gəlib, sonrakı dönəmlərdə, yəni artıq erkən Orta əsrlər dövründə Kürün sağ sahilinə genişlənib və bizim eranın IV əsrinin sonlarından başlayaraq Kürün sol sahili ilə yanaşı, sağ sahilində də möhkəmlənib. Bu konsepsiyaya görə, V əsrin ortalarında Albaniyanın paytaxtı Bərdə şəhərinə köçürüldüyünə görə, Kürün sağ sahili yalnız bu dövrdən etibarən Alban torpaqları olub. Əslində isə, bu cür yanaşma tarixi obyektivliyi yox, məhz qərəzli yanaşmanı göstərir. Göyçə gölü hövzəsində Alban ölkəsindən bəhs edən Urartu kitabəsi isə bu cür yanlış konsepsiyaların üzərindən bilavasitə xətt çəkir və albanların Qərbi Azərbaycan ərazisində yaşayan qədim etnoslardan biri olduğunu təsdiq edir.

Alban tayfalarından əvvəl Qərbi Azərbaycan ərazisində tayfa ittifaqı yaradan, yerli tayfaları vahid dövlətin tərkibində birləşdirən etnos etiular olmuşdur. Urartu mənbələrində albanların, lipinlərin və digər tayfaların hərəsinin tayfa başçısının və ya hökmdarının adı çəkilir. Amma etiular, yəni utilər haqqında məlumat verən mixi yazılı mətnlərdə onların bir neçə hökmdarının olmasından, çoxsaylı şəhərlərindən və Göyçə gölünün



qərbini əhatə edən geniş ərazili dövlətə sahib olmasından bəhs edilir. E.ə. VIII əsrin birinci yarısında Etiuni ölkəsi müasir Qarsa, Sarıqamışa qədər, Ağbaba, Şörəyel, Dərəçiçək, Qərbi Azərbaycanın şimal-qərb bölgələri, hətta Çıldır gölü də daxil olmaqla böyük bir coğrafiyanı əhatə edirdi. Urartu mixi yazılı kitabələrində Etiuni tayfa ittifaqından Qərbi Azərbaycan ərazisini ilk dəfə vahid dövlət halında birləşdirən güclü etnos kimi bəhs edilməsi, bölgədə yerli dövlətçilik ənənələrinin qədim ənənələrə malik olduğunu sübut edir.

Azərbaycanın qərb torpaqlarında etiuların vahid dövlətçilik xəttini əvvəlcə iskitlər, daha sonra isə albanlar davam etdirmişlər. Cənubi Qafqazı ilk dəfə vahid dövlət halında birləşdirən İskit dövlətinin adı e.ə. VIII əsrin əvvəllərində Urartu mixi yazılı kitabələrində, eləcə də Şörəyel mahalında Qanlıca kəndindən tapılmış qayaüstü kitabədə İşkiqulu, e.ə. VII əsrin 70-ci illərindən etibarən Aşşur hökmdarı Asarhaddonun kitabələrində Aşquz (İşquz) kimi çəkilmişdir. Bir çox mənbələrdə (əsasən qədim fars, yunan və latındilli mənbələrdə) İskit elat tayfaları Sak və ya Skolati (Sak+elatı) adı ilə də tanınırdılar. İskit dövləti süqut etdikdən sonra onun torpaqları Mada (Midiya) imperiyasının tərkibinə daxil olmuşdur. Mada imperiyasına son qoyan Əhəməni dövləti Araz çayından şimaldakı torpaqlarda (Sakasayana - İskit dövlətinin mərkəzi bölgəsi) möhkəmlənmək üçün ciddi cəhd göstərsə də, bu coğrafiyada uzun müddət hakimiyyətini bərqərar edə bilməmişdi.

Qədim yunan müəllifləri öz əsərlərində Albaniya dövlətindən bəhs etdikləri zaman artıq Əhəməni imperiyası dağılmış, Makedoniyalı İsgəndərin diadoxlarının (sərkərdə) isə qısamüddətli və müvəqqəti bir hakimiyyət mərhələsi başlamışdır. Bu diadoxlar arasında uzun sürən çəkişmələr regionda siyasi dağınıqlıq vəziyyəti yaratmışdı. E.ə. IV əsrin sonunda Azərbaycanın şimalında Albaniya dövlətinin yenidən bərpa olunması və güclənməsi məhz regionda bu cür siyasi dağınıqlığın davam etdiyi şəraitdə və İskit dövlətinin mərkəzi bölgəsində - Kür və Araz çayları hövzəsində iskitlərin hərbi-siyasi ənənələrinin təsiri nəticəsində baş vermişdir. Erkən Orta əsrlər dövrünün ilk mərhələsində (e.ə.III-VII əsrlər) Qarabağın Qafqaz Albaniyasının tərkibində olduğu dövrdə buranın əhalisinin böyük bir hissəsi iskit-sak tayfaları ilə yanaşı, hunlar idi. Burada yaşayan hunların əksəriyyəti xristianlığı qəbul etmişdir.

Təsadüfi deyil ki, VII əsrdə yaşayan Alban tarixçisi Moisey Kalankatlı "Alban ölkəsinin tarixi" kitabında Alban ölkəsinin ilk hökmdarının Sak (=İskit) soyundan olan Aran olması haqqında məlumat vermişdir. Bu kitabın ilk variantı Alban dilində yazılsa da, sonralar erməni keşişləri qrabar dilinə tərcümə edərək üzünü köçürmüş, yeni mətnlər əlavə edərək ciddi təhriflərə yol vermişlər. Əsəri diqqətlə oxuyanda, tarixi-filoloji və mətnşünaslıq baxımından analiz edəndə aydın olur ki, bu əsərin ilk variantı Alban dilində olub. Alban hökmdarı Cavanşirin dövründə (VII əsr) yaşayan Moisey Kalankatlı onun tapşırığı ilə bu əsəri qələmə almışdır. Məşhur albanşünas alim K.Trever "Qafqaz Albaniyasının tarixi və mədəniyyətinin oçerki" adlı kitabında qeyd edir ki, Alban tarixi əsərində rast gəlinən ermənilərlə bağlı məlumatlar, sonradan erməni keşişləri tərəfindən bu əsərə daxil edilmiş kompilyativ fraqmentlərdir. K.Trever burada böyük bir sualın cavabını açıqlayır və məlumat verir ki, ona görə erməni keşişləri Orta əsrlər dövründə Alban tarixi əsərinə ermənilər haqqında olan uydurmaları və əfsanələri daxil edirdilər ki, erməni xalqı ilə alban xalqının tarixini eyniləşdirsinlər, bunların bir kökdən olduğunu əsaslandırsınlar və sübut etsinlər. Bu cəfəngiyyatı hələ 70 il bundan öncə sovet dövründə yaşamış albanşünas alim K.Trever müəyyən etmişdi. Bundan sonra aparılan tədqiqatlar erməni və alban mədəniyyətlərinin tamamilə bir-birinə yad mədəniyyət olduğunu sübut etdi. Albanların xristianlığı ermənilərdən 270 il əvvəl qəbul etdiyini yazan Moisey Kalankatlı qeyd edir ki, albanlar İsanın dinini qəbul edəndə, kilsələrə gedəndə, ibadət edəndə ermənilər hələ də bütpərəst toplum idilər. Ermənilərin bütpərəst toplum olmasını özlərinin tarixçisi kimi qələmə verdikləri, əslində, yunan mənşəli tarixçi, din xadimi olan Favstos Buzand da qeyd etmişdir. O, "Tarix" əsərində yazır ki, ermənilərin hökmdarı olan Tiran hakimiyətdə olduğu zaman (339-350-ci illər) Ərzurum yaxınlığında Tordanda erməni kilsəsində, o kilsəni idarə edən parfiyalı Müqəddəs Qriqorisin nəvəsi İusik idi, İusik ermənilərin yeni dini rəhbəri seçilmişdi. Əslində, katolikos rütbəsi ermənilərdə yox idi. O, erməni kilsəsinə rəhbərlik edən keşiş idi. 347-ci ildə yeni il günü Tiran kilsəyə girərək dini bayramı qeyd etmək istəyərkən İusik ona mane olur. İusik kilsənin qapısı ağzında duraraq Tiranı buraxmır. İusikin erməni hökmdarına qarşı məşhur çıxışı var. Favstos Buzand bu çıxışı öz əsərində ətraflı verir. İusik erməni çarına deyir ki:"sən o qədər murdar əməllər törətmişsən ki, adın xristianlıq qoyub, İsanın dinini qəbul etmək qoyub, o bəhanə ilə, əslində, bütpərəst məbədlərinə getmisən, xristian olmamısan və xristianlığa qarşı qəddar tədbirlər görmüsən, keşişləri, din xadimlərini qətlə yetirmisən". Favstos Buzand yazır ki, buna görə də İusikin bu sözündən sonra Tiran öz nahararlarına, yəni ətrafında olan sərkərdələrə əmr verib ki, onlar zopayla keşiş İusiki kilsənin içərisində döyüb öldürsünlər. IV əsrdə albanlar xristianlığı rəsmən qəbul etmişdilər. Bu dövrdə Albaniyada xristianlıq dövlət səviyyəsində təbliğ olunurdu. Amma ermənilər həmin dövrdə xristian din xadimlərini kilsənin içində qətlə yetirirdilər. Buna görə də albanlarla ermənilərin xristianlıq tarixi tamamilə başqa-başqa məsələlərdir.

***Ramin ƏLİZADƏ,***
***AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi***

# "Türkiyə-Azərbaycan Universiteti elm və texnologiya mərkəzinə çevriləcək"

**Türkiyə-Azərbaycan Universiteti (TAU) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə 2024-cü ildə təsis edilib. Bu ali təhsil müəssisəsi iki qardaş ölkə arasında bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də əməkdaşlığın yeni strateji mərhələyə keçməsinin bariz təzahürüdür. Universitet əsrlərə söykənən tarixi qardaşlığın, qarşılıqlı etimadın və ortaq gələcəyə baxışın təhsil sahəsindəki təcəssümüdür.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri TAU-nun rektoru Nəcibə Nəsibova Bilik Günü münasibətilə keçirilən tədbirdə çıxışında bildirib. Rektor vurğulayıb ki, iki dövlət başçısının təşəbbüsü ilə yaradılan bu universitet Azərbaycan gənclərinə geniş imkanlar açır: "Gənclərimiz ölkə xaricinə getmədən, öz Vətənimizdə Türkiyənin Orta Doğu Texnik Universiteti (ODTÜ), İstanbul Texnik Universiteti (İTÜ) və Hacettepe Universiteti kimi nüfuzlu ali məktəblərinin professor-müəllim heyətindən dərs almaq imkanı əldə edirlər. Onların modern elmi mühitdə yetişməsi üçün bütün yollar açıqdır. Bu, gənclərimiz üçün dəyərli bir fürsətdir və onların yüksəkixtisaslı mühəndislər kimi yetişməsi üzərimizə böyük məsuliyyət qoyur".

Nəcibə Nəsibova TAU-nun perspektivlərinə toxunaraq qeyd edib ki, universitet bu gün yalnız kadrlar və mühəndislər hazırlayan bir təhsil müəssisəsi kimi görünə bilər, lakin zaman keçdikcə Azərbaycan və Türkiyənin elm, innovasiya və texnologiya sahələrindəki əməkdaşlığını daha da dərinləşdirən mühüm bir mərkəzə çevriləcək.

"Universitetimizin əsas məqsədi yalnız ixtisaslı kadr hazırlamaq deyil, eyni zamanda ölkəmizin gələcəyini formalaşdıracaq güclü insan kapitalı yaratmaq və cəmiyyətə faydalı vətəndaşlar yetişdirməkdir. Bu yolda bütün tələbələrimizə uğurlar arzulayıram", - deyə rektor bildirib.

# Əsrlərdən gələn, bu günümüzü və sabahımızı işıqlandıran milli-mənəvi irs

**Hər bir xalqın tarixini yaşadan, onun milli kimliyini qoruyan və gələcəyə daşıyan əsas mənəvi dayaqlardan biri mədəniyyətdir. Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin mədəni irs öz miqyası, çoxşaxəliliyi və bəşəri dəyərləri ilə seçilir. Əsrlərin sınağından keçərək günümüzə gəlib çatan bu böyük mənəvi xəzinə xalqımızın keçdiyi mürəkkəb tarixi yolu, həyat tərzini, dünyagörüşünü, mənəvi dəyərlərini, yaradıcı təfəkkürünü özündə yaşadır.**





Qayaüstü rəsmlərdən möhtəşəm memarlıq nümunələrinə, şifahi xalq yaradıcılığından klassik ədəbiyyata, muğamdan operaya, xalçaçılıqdan müasir təsviri sənətə, xalq teatrından professional səhnəyə, ilk kino nümunələrindən müasir ekran əsərlərinədək uzanan böyük bir yol xalqımızın misilsiz yaradıcılıq imkanlarını nümayiş etdirir.

Azərbaycan torpağı tarixboyu böyük sənətkarlar, şairlər, mütəfəkkirlər, bəstəkarlar, memarlar və elm xadimləri yetişdirib. Onların yaradıcılığı zaman və məkan sərhədlərini aşaraq xalqımızın adını dünya mədəniyyət tarixinin səhifələrinə yazıb.

Sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev Azərbaycan xalqının zəngin mədəniyyətə malik olduğunu vurğulayıb. Dövlətimizin başçısı bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının və böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirildiyini qeyd edib: "Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır".

Dövlətimizin başçısı Azərbaycan xalqının dünya mədəniyyətinə bir çox dahi şəxsiyyət, şair, mütəfəkkir bəxş etdiyini diqqətə çatdırıb: "Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün islam aləmi üçün çox böyük dəyərdir".

Bu böyük ədəbi irsin hər səhifəsində Azərbaycan xalqının mənəvi dünyası, həyat fəlsəfəsi, dünyaya baxışı öz əksini tapıb. Nizami Gəncəvinin humanizmi, Məhəmməd Füzulinin məhəbbət fəlsəfəsi, İmadəddin Nəsiminin insan və azadlıq, Şah İsmayıl Xətainin dövlətçilik haqqında düşüncələri, Yəhya Bakuvinin mənəvi-fəlsəfi görüşləri əsrlər keçməsinə baxmayaraq, öz aktuallığını qoruyur.

Azərbaycan mədəniyyətinin qüdrəti musiqi sənətimizdə də əks olunub. Milli musiqi irsimizin ən möhtəşəm nümunələrindən biri olan muğam əsrlər boyu xalqımızın mənəvi dünyasını ifadə edib. Milli musiqi yaddaşımızın nəsildən-nəslə ötürülən bu əsrarəngiz nümunələrində xalqın duyğuları, sevinc və kədəri, həyat haqqında fəlsəfi düşüncəsi öz əksini tapıb.

Azərbaycan musiqi sənəti sonrakı dövrlərdə də dünya mədəniyyətinə böyük töhfələr verib. Dahi bəstəkar Üzeyir bəy Hacıbəyli milli musiqi ənənələrini Qərb professional musiqisinin nailiyyətləri ilə birləşdirərək tamamilə yeni bir yaradıcılıq məktəbi formalaşdırıb. O, Şərqdə ilk operanın - "Leyli və Məcnun" operasının müəllifidir. Üzeyir bəyin "Koroğlu" operası, "Arşın mal alan", "O olmasın, bu olsun" və başqa əsərləri də Azərbaycan səhnə və musiqi sənətinin qiymətli nümunələridir. Üzeyir bəy Hacıbəylinin yaradıcılığı göstərib ki, milli musiqinin köklərinə söykənərək dünya səviyyəli sənət əsərləri yaratmaq mümkündür.

Qeyd edək ki, Şərqdə qadın bəstəkarlar arasında ilk operanı yazan da azərbaycanlıdır. Görkəmli bəstəkar Şəfiqə Axundovanın adı həmin əsəri - "Gəlin qayası" operası ilə tarixə düşüb. Bəstəkar həm də yüzlərlə mahnı, romans və digər musiqi əsəri ilə Azərbaycan musiqi xəzinəsini zənginləşdirib.

Milli musiqimizin dünya miqyasında tanınmasında görkəmli ifaçıların da böyük rolu olub. Bülbül, Rəşid Behbudov, Müslüm Maqomayev, Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Rübabə Muradova və başqa sənətkarlar bənzərsiz ifaları ilə Azərbaycan musiqisinin şöhrətini dünyaya yayıblar.

Azərbaycanın zəngin mədəniyyət xəzinəsində aşıq sənətinin də xüsusi yeri vardır. Aşıq yaradıcılığı xalqın sözünü, musiqisini və həyat fəlsəfəsini bir araya gətirən nadir sənət nümunəsidir.

Xalq mərasimləri, oyunlar, meydan tamaşaları və aşıq yaradıcılığı professional teatrın formalaşması üçün zəngin zəmin yaradıb. XIX əsrin ikinci yarısında maarifçilik hərəkatının güclənməsi ilə Azərbaycan teatrında yeni mərhələ başlayıb. Sonrakı dövrlərdə Azərbaycan səhnəsi böyük aktyor və rejissorların yaradıcılığı ilə zənginləşib.

Azərbaycan mədəniyyətinin dünyada tanınan qədim sahələrindən biri də xalçaçılıqdır. Qarabağ, Quba, Şirvan, Gəncə, Qazax və Təbriz xalça məktəblərinin yaratdığı zəngin ənənələr milli sənətimizin çoxşaxəliliyini göstərir.

Memarlıq irsimiz də xalqımızın zəngin yaradıcılıq ənənələrinin parlaq nümunələrindəndir. Qədim və Orta əsrlərdən günümüzədək gəlib çatan abidələr Azərbaycanın müxtəlif memarlıq məktəblərinin inkişafından xəbər verir.

Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Azərbaycanın böyük mədəni irsini daha da zənginləşdirmək, qorumaq və gələcək nəsillərə çatdırmaqdır. Mədəniyyət dövlət siyasətinin prioritet sahələrindən biridir. Prezident İlham Əliyev avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində də mədəniyyət sahəsinin inkişafının vacib məsələ kimi daim diqqət mərkəzində olduğunu qeyd edib. Dövlətimizin başçısı vurğulayıb ki, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir: "Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox abidələr dünya əhəmiyyətli abidələrdir". Səfər çərçivəsində Möminə xatun məqbərəsinin bərpası ilə bağlı görülən işlərlə tanış olduğunu bildirən Prezident İlham Əliyev eyni zamanda digər tarixi-mədəni obyektlərin konservasiyası, qorunması və bərpasının nəzərdə tutulduğunu nəzərə çatdırıb: "Bütün bu məsələlər böyük əhəmiyyət daşıyır. Çünki təbii ki, sosial-iqtisadi inkişaf, enerji təhlükəsizliyi vacib məsələlərdir. Ancaq bütün bu görülən işlərin təməlində bizim milli kimliyimiz dayanır, milli ruhumuz dayanır, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, tariximiz dayanır. Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik".

Mədəniyyət milli yaddaşdır. Onu qorumaq, yaşatmaq və inkişaf etdirmək hər bir azərbaycanlının mənəvi borcudur. Çünki bu mənəvi irs əsrlərdən gələn, bu gün yolumuzu və sabahımızı aydınladan işıqdır.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Bakıdan verilən qlobal mesaj islam həmrəyliyini və sülh gündəliyini ön plana çıxarır

**Azərbaycan növbəti dəfə mühüm beynəlxalq tədbirə evsahibliyi edərək, islam dünyasının və türk dövlətlərinin dini rəhbərlərini, tanınmış mütəfəkkirlərini və beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirib. Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı və böyük şair, filosof-mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans uğurla keçirilib.**



Prezident İlham Əliyevin sentyabrın 15-də TDT-nin Müsəlman Dini İdarə Rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Seyid Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Müsəlmanları Ali Dini Şurasının üzvlərindən ibarət geniş nümayəndə heyətini qəbul etdiyini xatırladan **Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında bildirib ki, görüşdə TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyə Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Şimali Kiprin dini rəhbərləri, Müsəlman Ağsaqqalları Şurası, IRCICA, Beynəlxalq İslam Fiqhi Təşkilatı və digər nüfuzlu qurumların nümayəndələri iştirak ediblər. Prezident İlham Əliyev iki mühüm tədbirin Bakıda keçirilməsinin xüsusi əhəmiyyətini vurğulayıb: "Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır. Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün islam aləmi üçün çox böyük dəyərdir".

Dövlətimizin başçısının nümayəndə heyəti ilə görüşdəki nitqi Azərbaycanın islam dünyasındakı strateji mövqeyini, sülhməramlı missiyasını və mənəvi birliyə verdiyi töhfələri aydın şəkildə əks etdirir. Çıxışın ana xəttini islam həmrəyliyinin yalnız nəzəri çağırışlarla deyil, konkret və əməli addımlarla möhkəmləndirilməsi ideyası təşkil edir. K.Bayramov qeyd edib ki, dövlət başçısı dini liderlərin cəmiyyətdəki böyük nüfuzuna və sözlərinin kəsərinə diqqət çəkərək, bu təsirin regionda sülh, sabitlik və barışıq üçün ən mühüm vasitələrdən biri olduğunu vurğulayıb. Fərqli ölkələrdən olan din xadimlərinin Bakıda bir araya gəlməsi həm islamofobiya ilə mübarizədə, həm də müsəlman aləmini parçalamağa çalışan xarici qüvvələrə qarşı vahid mövqeyin nümayiş etdirilməsində güclü mesaj xarakteri daşıyır. Müasir dünyada, xüsusilə müsəlman aləmində cərəyan edən mürəkkəb proseslər, baş verən gərginliklər və daxili nifaq cəhdləri hər birimizi haqlı olaraq narahat edir. Belə bir həssas dövrdə Azərbaycan dövləti islam həmrəyliyini sadəcə şüarlarla deyil, konkret və əməli-praktiki addımlarla möhkəmləndirmək xəttini ardıcıl şəkildə davam etdirir.

Deputat vurğulayıb ki, ölkəmiz illərdir İslam Əməkdaşlıq Təşkilatı və ICESCO xətti ilə çoxsaylı möhtəşəm tədbirlərə evsahibliyi edir: "Xüsusilə 2017-ci ildə Bakıda təşkil olunan IV İslam Həmrəylik Oyunları sadəcə bir idman yarışı deyil, müsəlman xalqlarının dostluğunu və mənəvi birliyini nümayiş etdirən böyük bir birlik bayramı kimi yadda qalıb. Bu ardıcıl və məqsədyönlü siyasətin məntiqi davamı olaraq, gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Dünyada gedən gərgin proseslərin fonunda belə bir mötəbər tədbirin məhz Azərbaycanda təşkil olunması tamamilə qanunauyğundur və böyük əhəmiyyət kəsb edir. Azərbaycan təmsil olunduğu bütün beynəlxalq platformalarda hər zaman birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Bu baxımdan gələcək Zirvə görüşünün müsəlman aləmi üçün çox müsbət və tarixi nəticələr verəcəyinə inam böyükdür. Əsas ümid və hədəf ondan ibarətdir ki, bu Zirvə görüşünə qədər bəzi müsəlman ölkələri arasında mövcud olan anlaşılmazlıqlar, gərginliklər və toqquşmalar tamamilə başa çatsın. Azərbaycan öz tərəfindən müsəlman aləminin vahid bir ailə kimi bir araya gəlməsi, daxili qarşıdurmaların və lazımsız söz-söhbətlərin dayandırılması üçün əlindən gələni edəcək. Müsəlmanları bir-birindən ayırmağa və bununla da islam dininə zərbə vurmağa çalışan qüvvələrə qarşı yalnız müştərək səylərlə mübarizə aparmaq mümkündür. Dini liderlərin və nümayəndə heyətlərinin Bakıda bir araya gəlməsi həm regiona, həm də bütün dünya ictimaiyyətinə sülhün, birliyin və əmin-amanlığın təntənəsi barədə çox ciddi və birmənalı mesaj verir".

Deputat diqqətə çatdırıb ki, Azərbaycan xalqı 30 illik işğala, etnik təmizləməyə və böyük dövlətlərin ikili standartlarına baxmayaraq, milli birlik və hərbi güc sayəsində ərazi bütövlüyünü, suverenliyini və tarixi ədaləti özü bərpa edib. Separatçılığa son qoyularaq beynəlxalq hüququn aliliyi təmin olunub və dünya hərb və siyasət tarixində nadir bir presedent yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə törədilmiş kütləvi dağıntılara, talançılığa və 65 məscidin məhv edilməsinə baxmayaraq, dövlət bərpa işlərinə dərhal və ilk növbədə dini-mənəvi dəyərlərdən - məscidlərin bərpasından başlayıb. Böyük qayıdış proqramının uğurlu icrası nəticəsində artıq 90 mindən çox keçmiş məcburi köçkün öz doğma torpaqlarına qayıdaraq məskunlaşıb və regionda həyat yenidən dirçəlib.

"İkinci Qarabağ müharibəsində tam qələbə qazanılmasına və istənilən şərtin diktə edilməsi imkanının olmasına baxmayaraq, Azərbaycan qisasçılıq yolunu deyil, regionda davamlı sabitliyi təmin edən müdrik sülh gündəliyini seçib. Azərbaycan liderinə təqdim edilən mötəbər "Zayed İnsan Qardaşlığı" mükafatı və Əbu-Dabidə keçirilən təntənəli mərasim ölkəmizin bu sülh mövqeyini beynəlxalq miqyasda daha da möhkəmləndirib və verilən siyasi bəyanatlara güclü dəstək olub. Müasir dünyada güc amilinin ön plana çıxdığı, Avropa təşkilatlarının ikili standartlar nümayiş etdirdiyi və islamofobiyanın məqsədyönlü şəkildə körükləndiyi bir şəraitdə ölkənin müstəqilliyinin, təhlükəsizliyinin və sülh şəraitində yaşamasının yeganə zəmanəti xalqın sarsılmaz iradəsi, güclü ordu, hərbi-vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik və türk-islam dünyasının sıx həmrəyliyidir",- deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# "Prezident İlham Əliyev Qərb mediasında saxta narrativlərin necə formalaşdırıldığını faktlarla göstərir"

**Pakistanın "Dispatch News Desk" (DND) portalında kommunikasiya fəlsəfəsi üzrə tədqiqatçı Şazia Ənvər Çimanın Prezident İlham Əliyevin Qərb mediası və Avropa Parlamentinin ikili standartları ilə bağlı mövqeyinə həsr olunmuş məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, müəllif Prezident İlham Əliyevin müxtəlif çıxışlarında Qərb mediasında faktların manipulyasiya olunması, məqsədyönlü narrativlərin formalaşdırılması və media məkanından siyasi təsir aləti kimi istifadə edilməsi məsələlərinə dəfələrlə diqqət çəkdiyi barədə yazıb. Tədqiqatçının fikrincə, Azərbaycan Prezidenti bu cür informasiya kampaniyalarını konkret faktlar və nümunələr əsasında təhlil edən siyasi liderlərdən biridir.

Şazia Ənvər Çima vurğulayır ki, uzun müddətdir Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdəki çıxışlarını izləyir. Onun sözlərinə görə, dövlət başçısının rəsmi internet saytında yayımlanan çıxışlarının mətnləri kommunikasiya fəlsəfəsi və narrativlərin formalaşdırılması prosesini öyrənən tədqiqatçılar və tələbələr üçün mühüm materialdır. Bu çıxışlarda saxta narrativlərin necə yaradılması, xarici təsir mexanizmləri və gənclərin informasiya kampaniyalarının əsas hədəfinə çevrilməsi kimi məsələlərə də toxunulur.

Müəllif yazır ki, müəyyən xarici güclərin hegemonluğunu qəbul etmək əvəzinə müstəqil və balanslaşdırılmış xarici siyasət yürütmək istəyən Azərbaycan kimi ölkələrə qarşı media təzyiqi daha da güclənir. Şazia Ənvər Çimanın fikrincə, Qərb media mühitinin özündə də, xüsusilə akademik fəaliyyətlə praktik medianı birləşdirən mütəxəssislər arasında bu yanaşmaya tənqidi münasibət formalaşmağa başlayıb. Onlar bildirirlər ki, ictimaiyyət üçün müxtəlif mənbələrdən faktları yoxlamaq imkanlarının artması fonunda Qərb mediasının etibarlılığı zəifləyir. Müəllif qeyd edir ki, bu ekspertlər Qərb mediasını öz roluna yenidən baxmağa, ölkələrə nə etməli olduqlarını diktə etmək əvəzinə onların özləri üçün hansı yolun daha uyğun olduğuna qərar verməsinə imkan yaratmağa çağırırlar. Onların qənaətinə



görə, media artıq Qərb dövlətlərinin siyasi xəttinin köməkçi aləti kimi çıxış etməməlidir.

Şazia Ənvər Çima hesab edir ki, Prezident İlham Əliyev sübutlar, konkret nümunələr və məlumatlar təqdim etməklə Qərb mediasındakı bu yanaşmaları ifşa edən nadir siyasi liderlərdən biridir. Məqalədə Prezident İlham Əliyevin narrativin həqiqətə əsaslanmalı, reallığı əks etdirməli və qərəzli olmamalı olduğu barədə mövqeyi də xüsusi vurğulanır. Pakistanlı tədqiqatçı bu baxımdan Şuşada keçirilən Qlobal Media forumlarındakı müzakirələrə də toxunub. O qeyd edib ki, Prezident İlham Əliyev koordinasiyalı və məqsədyönlü informasiya kampaniyalarını "media hücumu" kimi xarakterizə edib, bu cür kampaniyaların çox vaxt mühüm geosiyasi proseslərlə eyni dövrə təsadüf etdiyinə diqqət çəkib. Prezident İlham Əliyev daha əvvəl də media materiallarının obyektiv olmasının vacibliyini vurğulayıb.

Məqalədə Prezident İlham Əliyevin sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının baş katibini, təşkilatın müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri və müşahidəçilərini, eləcə də bir sıra beynəlxalq dini qurumların nümayəndələrini qəbul edərkən səsləndirdiyi fikirlərə xüsusi yer ayrılıb.

Şazia Ənvər Çima yazır ki, dövlətimizin başçısı Azərbaycanın uzun illər ərzində Avropa institutlarında üzləşdiyi münasibətdən danışaraq ikili standartlarla bağlı mövqeyini ifadə edib. Prezident İlham Əliyev Azərbaycanın güclənməsi fonunda ölkəyə qarşı yenidən "çirkli Qərb media kampaniyası" aparıldığını bildirib və Azərbaycan haqqında yalan və böhtan xarakterli materialların dərc olunduğunu deyib.

Müəllif yazır ki, dövlətimizin başçısı həmin görüşdə bəzi ölkələrin ikili yanaşma və ikili standartlarından danışıb, Azərbaycanın təxminən 30 il davam edən Ermənistan işğalı dövründə üzləşdiyi vəziyyətə beynəlxalq ictimaiyyətin münasibətini konkret faktlarla izah edib.

Şazia Ənvər Çimanın sözlərinə görə, Prezident İlham Əliyev böyük dövlətlərin, o cümlədən keçmiş Minsk qrupuna daxil olan ölkələrin Ermənistana dəstək verdiyini bildirib. Məqalədə həmçinin bildirilir ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edən dörd qətnaməsinin olmasına baxmayaraq, beynəlxalq təşkilatlar uzun müddət bu məsələyə təsirli reaksiya verməyiblər.

Müəllif yazısını saxta narrativlərin müasir dövrdə ciddi təsir alətinə çevrildiyini vurğulamaqla yekunlaşdırıb və bu problemin beynəlxalq səviyyədə daha geniş müzakirəsinə ehtiyac olduğunu bildirib.

Qeyd edək ki, Şazia Ənvər Çima Pakistanın İdarəetmə və Texnologiya Universitetində (UMT) kommunikasiya fəlsəfəsi üzrə assistant professordur. O, beynəlxalq münasibətlər, geosiyasət, xarici siyasət və regional məsələlər üzrə ixtisaslaşmış pakistanlı akademik, tədqiqatçı, media analitiki və şərhçidir.

# "TÜRKPOL hüquq-mühafizə sahəsində əməkdaşlığı daha da institusionallaşdıracaq"



Son dövrlərdə TDT çərçivəsində transmilli və mütəşəkkil cinayətkarlıq, terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq və qeyri-qanuni miqrasiya ilə mübarizə mexanizmləri hazırlanır. 2025-ci ildə türk dövlətlərinin polis akademiyaları platformasının yaradılması və 11 sentyabr 2026-cı ildə Astanada keçirilmiş TDT daxili işlər nazirlərinin üçüncü iclasında Cinayətkarlıqla Mübarizə Şurasının yaradılması barədə razılığın əldə olunması təhlükəsizlik sahəsində əməkdaşlığın müəyyən institusional səviyyəyə çatdığını göstərir. Bu mənada TÜRKPOL-un yaradılması təklifinə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində təhlükəsizlik və hüquq-mühafizə sahəsində əməkdaşlığın daha institusional əsaslara keçirilməsi istiqamətində səylərin davamı kimi baxmaq lazımdır.

Bu fikirləri **türk ekspert Zeynəb Gizem ÖZPINAR** Türkiyənin daxili işlər naziri Mustafa Çiftçinin TÜRKPOL-un yaradılması ilə bağlı son təklifini AZƏRTAC-ın müxbirinə şərh edərkən deyib.

Onun sözlərinə görə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın daxili işlər nazirlərinin bu təklifə müsbət münasibət bildirməsi siyasi zəminin formalaşmağa başladığını göstərir: "Beləliklə, TÜRKPOL-u uzun illər ərzində TDT çərçivəsində inkişaf edən hüquq-mühafizə orqanları arasında əməkdaşlığın daha inkişaf etmiş institusional struktura çevrilməsinə yönəlmiş təşəbbüs kimi nəzərdən keçirmək lazımdır".

Zeynəb Gizem Özpınar qeyd edir ki, TÜRKPOL-un yaxın illərdə fəaliyyətə başlaması üçün bir sıra addımların atılması zəruridir. İlk növbədə Cinayətkarlıqla Mübarizə Şurasının təsis sazişinin imzalanması, daha sonra isə məlumat mübadiləsi üzrə ümumi standartların müəyyənləşdirilməsi, axtarışda olan şəxslər və transmilli cinayətlərlə bağlı məlumat mübadiləsinin tənzimlənməsi, qurumlar arasında səlahiyyət və öhdəliklərin müəyyənləşdirilməsi, habelə birgə əməliyyat potensialının yaradılması tələb olunacaq.

"Burada iştirakçı ölkələrin hüquq sistemləri, təhlükəsizlik sistemləri və məlumat mübadiləsi sahəsində qanunvericiliyindəki fərqlər bu prosesin sürətini müəyyən edən əsas amillərdən biridir. Eyni zamanda TDT üzvü olan ölkələrin siyasi iradəsini və hüquq-mühafizə orqanları arasında mövcud əməkdaşlıq mexanizmlərini nəzərə alaraq, ilk mərhələdə daimi fəaliyyət göstərən koordinasiya və məlumat mübadiləsi strukturunun yaradılması, daha sonra isə TÜRKPOL-un Türk Dövlətlərinin Hüquq-Mühafizə Orqanları ilə Əməkdaşlıq Agentliyinə çevrilməsi real ssenari kimi irəli sürülür", - deyə ekspert izah edib.

Zeynəb Gizem Özpınar hesab edir ki, yaxın bir neçə il ərzində TÜRKPOL-un institusional struktura çevrilməsi ehtimalı yüksəkdir. Bununla belə, onun miqyası və əməliyyat potensialı üzv dövlətlər arasında hüquqi və siyasi uzlaşmanın səviyyəsindən asılı olacaq.

**Tarixin izi ilə**

# Çobankərəli Saleh kişi

**1918-ci il mayın 29-da İrəvan siyasi mərkəz kimi ermənilərə güzəştə gediləndə çobankərəlilərin yaşam taleyi daha da ağırlaşdı, yerli əhali nə qədər çalışsa da, erməni dövlətinin silahlı birləşmələrinin fasiləsiz hücumlarının qarşısını ala bilmədi. Terror və qırğınlar kənd camaatını əldən salmışdı. Heç bir yerdən dəstək almayan çobankərəlilərin pulu, qızıl-zinət əşyaları, xalı-xalçası əlindən alınaraq vəhşicəsinə qətlə yetirilir, ev-eşiyi ilə birlikdə yandırılırdı... 1918-ci ildə kənd ermənilər tərəfindən tam boşaldılır, bu qırğında qaçıb canını salamat qurtaran əhali İrana, Türkiyəyə, habelə Azərbaycanın kənd və şəhərlərinə üz tutur. Bu zaman Saleh Musayev və yaxınları Türkiyəyə, İğdır vilayətinə gedirlər. Lakin el-oba xiffəti az müddətdən sonra onları geri dönməyə məcbur edir. Arazı keçəndən sonra Saleh kişi tanış-bilişdən Çobankərənin taleyi ilə maraqlanır. Vəziyyətin əvvəlkindən də betər olduğunu biləndə Saleh kişi ailəsi ilə Naxçıvanın Xanlıqlar kəndində məskunlaşmalı olur.**

Haqsızlığa dözməyən 66 çobankərəli 1922-ci ildə yenidən doğulub boya-başa çatdığı kəndə dönür. Məlum olur ki, İrəvanın yaxınlığında, Zəngi çayı ilə Qarasu çayının arasında, səfalı məkanda yerləşən, 5000 nəfərdən çox əhalisi olan qədim Çobankərədən azərbaycanlılar tamamilə çıxarılıb, onların ev-eşiklərində gəlmə ermənilər yerləşdirilib. Gedənlər Çobankərəyə yaxın ərazilərə üz tutmalı olurlar. 1930-cu ildə isə Çobankərə kənd kimi, ümumiyyətlə, Yer üzündən silinir, burada hərbi aerodrom yaradılır. İndi həmin ərazidə Ermənistanın məşhur Zvartnots Beynəlxalq Hava Limanı fəaliyyət göstərir.

Əslən Qərbi Azərbaycandan olan akademik Budaq Budaqov "Həyat anlarımdan olan səhifələr" kitabında yazır: "1918-ci ildə Çobankərə kəndinin əhalisi erməni silahlı qüvvələri tərəfindən qovulduqdan sonra kəndə od vurub yandırmışdılar. Ailəmiz Çobankərəyə qayıdandan sonra biz uşaqlar kəndin xarabalıqları arasında dolanır və orada gizlənpaç oynayırdıq".

Bu "gizlənpaç" oyunlarını ermənilər çobankərəlilərin yaşlı sakinləri ilə, el-oba təəssübü çəkən qeyrətli oğulları ilə oynayırdılar. Harada gözə dəyən, erməniyə "bəli" deməyən türk görsəydilər, dərhal axırına çıxırdılar. Erməni məmurlar Mürsəqulular (Dəvəçilər də deyirlər) nəslindən olan Vəli kişinin oğlu Salehi əliçıraqlı axtarırdılar.

Saleh Musayev 1889-cu ildə Çobankərədə dünyaya göz açmışdı, adlı-sanlı nəslin sayılanı idi. Molla yanında "Quranı-Kərim"i başa vurandan, ərəb əlifbası ilə yazıb-oxumağı öyrənəndən sonra beşsinifli rus-tatar məktəbini bitirmişdi. Boyu qalxandan əmisi Rüstəm kişidən qalma tacirliklə məşğul olurdu. Tehranda, Təbrizdə, Ankarada, Qarsda, Trabzonda, Orta Asiya və Suriyadan belə yaxşı tacir kimi tanınırdı. Hətta bu ölkələrdə alqı-satqı işləri ilə əlaqədar aylarla, bəzən illərlə yaşamalı olurdu. 56 baş dəvəsi var idi, özü də karvanbaşı idi, karvanı yolda qaçaq-quldurdan özü qoruyardı. Bundan əlavə, ailənin sürü ilə mal-qarası və qoyun-quzusu vardı.

Naxçıvanda bolşevik hökuməti xüsusiyyətçiliyə son qoymaq üçün ümumi təsərrüfat yaradanda Salehin mal-qarasını və qoyun sürüsünü tamamilə artelin tövləsinə apardılar. 1927-1928-ci illərdə isə kolxoz quruculuğu başlayanda Saleh kişi ailəyə məxsus bir sürü mal-qarasını, habelə dəvələrin yarısını, yəni 28-ni kolxoza bağışlayır. Lakin ondan tələb edirlər ki, qalan 28 dəvədən də 25-ni kolxoza verməlisən. Saleh kişi bu təklifdən imtina etdiyinə görə, ilkin repressiya tədbiri kimi onu səsvermə hüququndan məhrum edirlər. Vəziyyəti belə görən Saleh Musayev dəvələrin 25 başını Araz çayından keçirib İranda qızıl pula satır. Qayıdandan sonra ona qarşı təzyiqlər artdığından Saleh kişi Ordubad rayonunun Keçili kəndində başlanmış üsyana qoşulur...

Xanlıqlar kəndində hamı 1931-ci ilin ikinci Novruz çərşənbəsini qeyd edirdi. NKVD-çilər tam yəqin edirlər ki, bu əziz gündə Saleh kişi mütləq evində olar. Odur ki, axşamtərəfi həyətdə tonqallar yandırılanda NKVD işçiləri Saleh kişinin evinə gəlir, fürsəti fövtə verməyib onu birbaşa rayon miliş şöbəsinə aparırlar.

Milis şöbəsinin rəisi onu görən kimi "Saleh kişi, qar əriyəndə hər şey üzə çıxır" deyə əlindəki qovluğu ona göstərərək "Siz sovet dövlətinin düşmənisiniz. Bu qovluqda yığılanlar sizin haqqınızdakı məlumatlardır. Bu il yanvarın 5-də verilmiş qərarla siz həbs olunursunuz...

Get, müstəntiq Simonyan gəlib hər şeyi həll edər".

Azərbaycan Dövlət Siyasi İdarəsinin xüsusi işlər üzrə müstəntiqi Simonyan bu barədə ad çıxarmışdı, SSRİ Xalq Komissarları Sovetinin 2 fevral 1930-cu il tarixli "Mülkədarlarla mübarizə işinin təşkili və bütün SSRİ ərazisində kolxozların təşkili" barəsində qərarının maddə və müddəalarını xüsusi canfəşanlıqla yerinə yetirmək üçün əlindən gələni edirdi. İlk növbədə məğrur azərbaycanlılardan qisas alırdı. Andronikin sadiq əsgərinə tabe olmayanları istədiyi kimi güdaza verirdi.

Saleh kameraya girəndə gördü ki, burdakıların hamısı onunla birlikdə ermənilərə qarşı vuruşan adamlardı. Salamlaşıb bir-bir hal-əhval tutdu. Adamın çoxluğundan burada güclə oturmaq olurdu. Gecədən keçirdi, birdən nəzarətçinin gür səsi eşidildi:

- Saleh Vəli oğlu, sizi müstəntiq gözləyir.

Saleh astaca ayağa durdu, qaranlıqda məhbuslara toxuna-toxuna qapının ağzında zəif yanan çırağa tərəf getdi.

Saleh müstəntiqin otağına daxil olanda gördü ki, uzunburun, sifəti kələ-kötür, alçaqboylu bir adam başıaşağı yazı yazır. Diqqətini qarşısındakı sənədlərdən ayırmadan Salehin adını, atasının adını, təvəllüdünü, ailəli olub-olmadığını soruşdu.

O, "neçə uşağın var" sualına "yoxdu" cavabı alanda özündən çıxdı:

- Necə yəni yoxdu, axı burada yazılıb ki, sən ikiarvadlısan (Uzun illər övladı olmadığından Saleh bəy həyat yoldaşı Leylanın təkidli təşəbbüsü və qohum-əqrəba ağsaqqallarının məsləhəti ilə ikinci dəfə Tərlanla evlənmişdi). Bu da sovet hökumətinin qanunlarına ziddir. İkinci yoldaşınız sizdən 20 yaş kiçikdir. Ondan da bir oğlunuz var, adı Rüstəmdir. Belə çıxır ki, ilk istintaqdan yalan danışırsınız. Buna görə bir maddə də əlavə olunur. Yəni dövlət istintaq orqanlarını aldatdığınıza görə bir ildən üç ilə qədər iş sizin işinizin üstünə gələcək.

Bu sözləri dedikcə Dövlət Siyasi İdarəsinin (QPU) xüsusi işlər üzrə müstəntiqi Simonyan fikirlərini daha ciddi şəkildə əsaslandırmağa çalışaraq:

- Sizin kimi adamlar Sovet hökumətinin qanun-qaydasını pozur, dini yaymaqla məşğul olur. Hər həyətdə tonqal qalayırsınız ki, baxın, ay yazıq ermənilər, sizi beləcə odda yandıracağıq. Elə dünən çərşənbə axşamı tonqal yandırdığınız üçün də sizə yeni bir maddə açacağam ki, o da bir ildən üç ilə qədər iş deməkdir. Hələlik altı il həbsiniz var. Köhnə işləri müəyyənləşdirib, yəqin ki, sizə ölüm hökmü verəcəklər. Ermənilərə göz verib-işıq vermirsiniz. Naxçıvandan, Vedidən bəri hansı ermənini dindirirsən, sənin əlindən dad edir. Neçə vaxtdır səni axtarırıq. Yaxşı yadıma düşdü, bir il bundan əvvəl daxili işlər idarəsinin üç nəfər nümayəndəsi kəndin ətrafında sizdən soruşublar ki, dəvəçililərdən Vəli kişinin oğlu Saleh kənddədir? Siz onlara demisiniz ki, bax, o, dağda dəvələrin yanındadır. Onlar dağa çıxanda siz qaçmısınız... Bilmirdin ki, səni əvvəl-axır həbs edəcəyik, indi qaç görüm hara qaçırsan?!

Əlindəki yazılı vərəqi ona sarı uzatdı: "Gəl, qol çək!"

- Ver oxuyum, sonra.

- Siz dediniz savadsızam.

- Savadsızam, amma türk və rus dilində yazıb-oxuya bilirəm. Beşillik rus-tatar məktəbini bitirmişəm...

Samson Salehin cəsarətli danışığından hiss etdi ki, bu adam başqa adamlar kimi deyil, səsinin tonunu bir az aşağı salıb "hə, neynək, onda qol çək, artıq gecə keçir. Sizin oxumağınız lazım deyil, məhkəmədə hamısını oxuyacaqlar", - dedi.

- Yox, oxumamış qol çəkməyəcəm.

Müstəntiq əsəbiləşib növbətçini çağırdı: - Aparın bunu içəri salın, nə vaxt ağıllanar, onda gətirərsiniz. Özünü də təkadamlıq kameraya salın, qoy onu gündə yarım saat çölə çıxarsınlar, heç kəslə əlaqəsi olmasın...

Kiçik məmur Salehi 7 nömrəli kameraya salıb, qapını üç yerdən kilidlədi. Kamera zülmət qaranlıq idi, göz-gözü görmürdü. Tavandan iynənin ucu qədər işıq düşürdü. İstədi ayağını uzatsın, hiss etdi ki, hər tərəf divardı. Başını əlləri arasına alıb ailəsini, oğlu Rüstəmi, müstəndiqin verdiyi ikibaşlı sualları xəyalında saf-çürük etməyə başladı.

Salehi nə vaxt yuxu aparmışdı bilmədi, onu səhərə yaxın kamera qapısının cıngiltisi və nəzarətçinin "Müstəntiq səni yanına çağırır" amiranə səsi yuxudan oyatdı.

Saleh müstəntiqin otağına daxil olar-olmaz o dilləndi:

- Hə, Saleh kişi, deyirsən ikiarvadlı deyilsən?!

- Yox.

- Onda bu suala cavab ver. Bilirdin ki, Şura hökuməti kolxoz qurur. Yəni kəndin bütün mal-qarasını toplayır bir yerə, nə bəy olacaq, nə rəiyyət, hamı bərabər yaşayacaq. Sən də aparıb dəvələri satmısan qızıl pula, məqamında qaçasan Türkiyəyə, bacın Ağgülün yanına...



Sonra da qoşulmusan Ordubadda "Keçili bandası"na, Dərələyəzdə Abbasqulu bəy Şadlinskinin əks-inqilabçı dəstəsinə. Ətrafına özün kimi silahlı adamlar toplayaraq bolşeviklərə qarşı qırğınlar, təxribatlar törətmisən, elə bilirdin bilməyəcəyik?!

- Bəli, olmuşam, amma mən bolşeviklərə qarşı yox, erməni silahlılarına qarşı vuruşmuşam. Adını bolşevik qoyan "Daşnaksütyun" partiyasının silahlı dəstələri kəndbəkənd hücum edib dinc əhalini qılıncdan keçirir, onların malını, var-dövlətini arabalara yığıb aparırdılar, camaatı kənddən qaçmağa məcbur edirdilər...

- Bəs Ordubad rayonunda "Keçili üsyanı"nda iştirakın necə? Azərbaycan Baş Siyasi İdarəsinin Naxçıvan Diyar Şöbəsinin rəis müavini Orbelyanın verdiyi məlumatlara görə, xalq sizin törətdiyiniz haqsızlıqlara görə ayağa qalxmışdı.

- Yox, Orbelyan vəzifəsindən istifadə edərək iki ərik ağacı, beş keçisi olanı "mülkədar" adlandırıb, ailəsini başsız qoyub, camatın malını, mülkünü müsadirə edib, özünü də qazamata, güllələnməyə məhkum edirdi, xalq buna görə ayağa qalxmışdı. Keçililərə kömək eləmək mənim borcum idi.

- Qılınc Qaya istiqamətində ermənilərin toplum halında qılıncdan keçirilməsində sən və sənin başçılığın altında bir neçə nəfər onlarca erməni öldürmüsünüz, niyə, o zavallı ermənilərin günahı nə idi?!

- Onlar "Daşnaksütyun" partiyasının qoşunları idi. Əyinlərinə bolşeviklərin geydiyi paltardan geyib, dinc əhalini üsyançı, sovetləşməyə qarşı çıxanlar adıyla qırırdılar, onda daha möhkəm hücuma keçdik...

- Mən sizə göstərəcəm sovet hökumətinə qarşı təxribat aparmaq nə deməkdir. Həm ermənilərə, həm də Şuraya qarşı vuruşmusan. Sizin kökünüzü kəsəcəm, sizləri güllələyəcəm, əziyyət verəcəm.

Əlindəki vərəqi başından yuxarı qaldıraraq, "Saleh bəy, görürsən, bu 98 bəyin hamısını bu qələmimlə güllələyəcəm, heç səsləri də çıxmayacaq" dedi.

Beləliklə, Azərbaycan Dövlət Siyasi İdarəsinin 187 N-li orderinə və idarənin əməkdaşı Samson Avanesovun təklifinə əsasən, Saleh Vəli oğlu Musayevin 55 nəfər həmfikirlisi ilə birlikdə "Şəxsi iş"i məhkəməyə göndərilir. İşdə kollegiyanın qərarından çıxarış ümumiləşdirilərək günahlandırma qərarına daha 54 nəfər də əlavə edilir. Bununla da Üçlüyün Məhkəmə Kollegiyasının 5 mart 1931-ci il tarixli qərarı ilə 1889-cu ildə İrəvan mahalının Çobankərə kəndində anadan olmuş Musayev Saleh Vəli oğlu Azərbaycan SSR CM-nin 64-cü maddəsi ilə "Keçili bandası" ilə əlaqədə təqsirli bilinərək, əmlakının bir hissəsi müsadirə olunmaqla, 10 il müddətinə azadlıqdan məhrum edilməklə həbs düşərgəsinə göndəriləcəyi bəyan edilir.

Şərur dəmir yolu stansiyasında yazın həlim nəfəsi gecəyə və dustaqlara rahatlıq gətirmişdi. Birdən əlisilahlı əsgərin amiranə səslə "Məhbuslar, düzlənin!" deməsi onları xəyallardan ayırdı, hamı cəld sıraya düzüldü.

Gecənin qaranlığında hər vaqona 60 nəfər yerləşdirildi. Vaqonun qapısının bağlanmaq əmrini gözləyən əlisilahlı, yanı itli əsgərin qapının digər küncündə dayanan yoldaşına "təlimata əsasən kim qanunu pozarsa, yerindəcə güllələnəcək, meyiti yerə atılacaq..." deməsini Saleh aydınca eşitdi. Odur ki, yoldaşlarına bərk-bərk tapşırdı ki, heç kim artıq-əskik hərəkət etməməlidir...

"Cinayətkarlar"la dolu qatar yavaş-yavaş yola düşəndə hamı sükut və hüznlə gəldikləri tərəfə baxır, nəyi isə xatırlayırdı. Qatar sürətini artırdıqca xəyallar da yollarda ilişib qalırdı. Beləcə, "cinayətkarlar"ın gedəcəyi ünvanı heç kimə bildirməyən "qara qatar" günlərlə yol qət etdi. Vaqondakılara gündə bir qədər quru çörək, bir qədər də su verilirdi. Dünyasını dəyişənləri qatar gedə-gedə yerə atır, ya da hardasa çayın üstündən keçəndə suya tullayırdılar. Acından ölməmək üçün onların dadına Salehin qardaşı Rzanın verdiyi keçi dərisinə yığılmış qovrulmuş ət və bir kisə qurudulmuş lavaş çatırdı. Vaqonda bu qovurmadan və lavaşdan hamı istifadə etmişdi, hətta keşikçi əsgərlər də...

Üzüntülü günlərdən sonra, nəhayət, qatar Qazaxıstanın şimalına, qarlı-şaxtalı Sibirə çatır. Gətirilən dustaqlar əlitüfəngli adamlar və yanlarındakı böyük itlərlə mühasirəyə alınırlar. Məhbusların döşündəki nömrələri, habelə ad və familyalarını ucadan oxuyaraq, ölənləri-itənləri çıxmaqla qeydiyyata götürürdülər. Heç kimin bir-biri ilə danışa bilmədiyi bu yerdə məsələni qəlizləşdirən həm də dustaqların rus dilini bilməməsi idi. Birdən zabit əsəbi və amiranə səslə "Sizin içinizdə rus dilini bilən varmı", - deyə müraciət edəndə rəisin nə dediyini bilmək üçün hamının nəzər-diqqəti bir anlığa Salehə yönəldi. Saleh bir addım irəli durub "Mən bilirəm" dedi.

Zabit Salehin sinəsindəki nömrəyə diqqətlə baxaraq "21.456 nömrəli Saleh Musayev, irəli gəl, mənim dediklərimi məhbuslara tərcümə et" dedi.

- Kiminsə buradan qaçması ölüm deməkdir, yəni Sibir elə bir yerdir ki, ayağını səhvən başqa yerə qoyan özü də bilmədən yarğanın dərinliyinə gedə bilər. Buralarda ancaq bələdçi vasitəsilə hərəkət etmək olar. Kim qanunu pozarsa, yerindəcə güllələnəcək. Aydındır?! İndi yolu davam edək.

Saleh deyilənləri dustaqlara tərcümə etdikdən sonra insan axını yola düzəldi. Xeyli gedəndən sonra meşənin dərinliklərində, açıq bir ərazidə məhbusları saxlayıb əmr etdilər ki, dayanın, təlimata görə gecə hərəkət etmək olmaz, dincəlin, sübh tezdən məhbus düşərgəsinə yollanacağıq.

Səhər açılar-açılmaz dustaqlar yola düzəldi. Elə ki, axın düşərgəyə çatdı, Saleh "sıraya düzlən!" deyən zabitin hər kəlməsini açıqlamaqla, kimin cibində nəyi varsa, birinci posta təhvil verməsini tələb etdi.

Sonra məhbuslar yerbəyer edildi. Yenicə düzəldilmiş baraklardan yaş şam ağacının özünəməxsus iyi hələ çəkilməmişdi. 60 nəfərlik barakda iki nəfərdən ibarət yataq taxtları düzəldilmişdi. Salehgilin barakındakıların hamısı Şərurdan bir yerdə çıxanlar idi.

Sabahı düşərgə rəhbəri hər bir baraka briqadir-rəhbər təyin edirdi ki, onlar məhbusların hərəkətləri barədə məmurlara dəqiq məlumat versinlər. Həmin adam barakda olan dustaqların gündəlik iş normasının yerinə yetirilməsinə cavabdehlik daşısın. İyirmi səkkiz nömrəli barakın qabağında dayanan zabit "Sizə bu adamı briqadir təyin edirəm" deyərək, Salehi işarə ilə qabağa çağırdı və dedi:

- Hər briqadanın ayrı sahəsi var. Bir nəfər bələdçi-sibirli ilə gedib ağac qıracaqsınız. Adama 100 ağac. Gündəlik normanı kim doldurmasa, elə buradaca güllələyəcəyik. Yaşamaq istəyirsinizsə, işləmək lazımdır. Mənim sözüm bu qədər.

Saleh ilk gündən kollektiv qarşısında belə bir məsələ qoydu ki, bu 60 nəfərin 60-nın da evinə sağ-salamat qayıtması üçün hamı işləməlidir. Müəyyən səbəbdən normanı yerinə yetirə bilməyənin əvəzinə mütləq ağac qırılmalıdır ki, itkimiz olmasın.

Beləcə, günlər ayları, aylar illəri əvəzləyirdi. Salehin rəhbərliyi altında 60 nəfər həm yaxşı işləyir, həm də nizam-intizama riayət etdiklərindən saylarɪ azalmırdı. Bəlkə də bu səbəbdəndir ki, işgüzarlığı, dustaqlara qayğısı, heç zaman haqqı-nahaqqa verməyən Salehin düşərgədə hörməti-izzəti gündən-günə artırdı. Onu düşərgənin yeməkxanasına müdir təyin edəndə dustaqların sevinci yerə-göyə sığmırdı. Artıq Saleh türmədə ikinci adam hesab olunurdu. Həmyerlisi Cəfəri də yanına işə götürmüşdü. Bütün müsəlmanlara yaxşıca kömək edirdi. Yeməyin keyfiyyətini artırdığından, səliqə-sahman yaratdığından dustaqlar rəisdən, rəis də ondan razılıq edirdi.

Artıq 1940-cı il idi, Sibir düşərgəsi ilə vidalaşmağa sayılı günlər qalırdı.

Saleh Sibirlə, 9 ildən artıq bir yerdə duz-çörək kəsdiyi insanlarla ayrılanda sənədlərdən məlum oldu ki, ona Naxçıvanın Xanlıqlar kəndində yox, Azərbaycanın Yevlax rayonunda yaşamaq hüququ verilib.

Saleh atasının Qubadlı tərəflərdən olan ailə dostu Paşa bəyin oğlu (sonradan əmisi oğlu Çayqıraqlı Qasıma oğulluğa verilmiş) 1932-ci ildə Qarabağda milis nəfəri işləyərkən erməni basqınlarının qarşısının alınmasında fədakarlıq göstərdiyi üçün daşnakların əli ilə Qazaxıstan çöllərinə sürgün edilən, orada da azərbaycanlı ailələrini aşağılayan erməniəsilli məmura şillə vurduğu üçün Sibirə həbs düşərgəsinə göndərilən İsmixanın vaxtından iki il əvvəl azadlığa buraxılmasına nail olur. O, axşam İsmixana "hazırlaş, artıq getməyin vaxtıdır, sabah yola düşürük" deyəndə İsmixan qulaqlarına inanmadı: - Axı mənim...

Saleh kişi qoymadı ki, o, sözünün ardını gətirsin: "Sən yaxşı işlədiyinə görə rəhbərlik vaxtından iki il əvvəl azadlığa buraxılmağın haqqında qərar verib, al, bu da sənədlərin".

Saleh Musayev Sibirdən Yevlaxa qayıdanda artıq oğlu Rüstəm 14 yaşında idi. Qısa müddətdə Yevlaxda da el-obanın hörmətini qazandı. Oğul-qız toyu etdi...1947-ci ildə Yevlax rayon NKVD rəisi Saleh kişini yanına çağırtdırıb "sən dövlətin düşmənisən, Sibirdən vaxtından 6 ay tez gəlmisən. Özün də rahat adama oxşamırsan... Səni yenidən həbsə göndərəcəm " deyib, ona 5 il həbs cəzası təyin edir. Saleh kişi bu dəfə cəzasını çəkmək üçün Murmanskdakı həbsxanaya göndərilir. Bir neçə aydan sonra düşərgə rəisinin təklifi ilə, təcrübəsi nəzərə alınmaqla, o, buradakı yeməkxanaya müdir təyin edilir. Beş ili tamam olduqdan sonra rəis onu yanına çağırır. Saleh kişi kabinetə daxil olarkən həbs müddəti bitdiyi üçün rəisə "yoldaş" deyə müraciət edir. O isə Saleh kişiyə "nə" "yoldaş", sənə əlavə olaraq 5 il həbs cəzası vermişəm, ona görə də "vətəndaş" deyə müraciət etməlisən" deyir. Beləliklə, Saleh kişi yenidən 5 il də həbsxana həyatı yaşamalı olur.

1953-cü ildə Stalinin ölümündən sonra, SSRİ rəhbəri Xruşşovun verdiyi amnistiya əsasında Saleh Musayev 1955-ci ilin mart ayında həbsdən azad olunur, Azərbaycana, Yevlaxa qayıdır. Özü və övladları Rüstəm, Əhməd, Həmid, nəvələri Eldar, Xanlar, Şahmar, Yelmar, Şahlar, Tərlan, İlyas, Knyaz, Niyaz və Bahar, eləcə də nəticələri müstəqil Azərbaycan dövlətçiliyinə xidmətdə əllərindən gələni əsirgəmirlər. Saleh kişinin tərbiyəsi ilə böyüyən, onun ailə ənənələrini ləyaqətlə yaşadan və davam etdirən nəvə-nəticələri, eləcə də Mürsəqulular, Yavuxlular tayfalarının Yevlaxda, Bərdədə, Ağcabədidə, Şəmkirdə, Naxçıvanda, İğdırda, başqa ölkə və şəhərlərdə yaşayan nəsil davamçıları bu gün Çobankərəyə qayıtmaq arzusu ilə yaşayırlar, Prezident İlham Əliyevin müəllifi olduğu Qərbi Azərbaycana Qayıdış Konsepsiyası çərçivəsində Mürsəqulular nəslinin davamçıları, eləcə də Yevlax və onun ətraf kəndlərində yaşayan, qədim İrəvan mahalından qovulan, deportasiya olunan yüzlərlə ailənin törəmələri yaxın gələcəkdə öz dədə-baba torpaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

Ailədə, qohum-əqrəba yanında böyük nüfuz sahibi, el ağsaqqalı Saleh kişi həmişə doğma Çobankərənin - dədə-baba yurdlarının xiffətini çəkirdi, o yerlər haqqında nəvələrinə, yaxınlarına danışmaqdan doymurdu. Bu minvalla çobankərəli Saleh kişi Yevlaxda 40 ildən artıq ömür sürdü. 1981-ci ildə 91 yaşında həyatla vidalaşmalı oldu. Məzarı Yevlaxın Dəvəçilər qəbiristanlığındadır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycana qarşı bitməyən qərəz

**18 iyun 2026-cı il tarixdə Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) "V.T. və digərlərinin Azərbaycana qarşı" məhkəmə işi üzrə qərar qəbul edərək guya V.T. adlı erməni hərbçisinə işgəncə verilərək öldürülməsi və onun yaxınlarına mənəvi iztirablar verilməsinə görə Azərbaycan tərəfinin 104 min avro pul ödəməsini qət etmişdir.**



Hərbçi V.T.-nin valideynləri və bacısı AİHM-ə müraciət edərək 2016-cı ilin Aprel döyüşlərindən sonra humanitar təşkilatların dəstəyi ilə erməni hərbçilərinin meyitlərinin tapılaraq ailələrinə qaytarılmasını, lakin bəzi meyitlərdə başın, əllərin və digər orqanların aşkar olunmadığını bildirmişlər. Onların dediyinə görə, guya hadisədən bir il sonra internet resurslarında azərbaycanlı hərbçilər olması ehtimal edilən şəxslər tərəfindən kəsilmiş insan başı nümayiş etdirilmiş, həmin şəklin V.T-yə aid olduğunu yaxınları AİHM-ə bildirmiş, sonuncu adıçəkilən məhkəmə qərar çıxararkən əsas sübut kimi məhz bu xüsusatı daha "mötəbər" hesab etmişdir. Meyit erməni qüvvələri tərəfindən tapılaraq götürüldüyündən belə bir cinayətin həqiqətən baş verməsinin araşdırılması üçün Azərbaycan tərəfinin real imkanının olmadığını isə məhkəmə, ümumiyyətlə, nəzərə almamışdır.

Məhkəməyə təqdim edilən erməni tərəfinin arqumentlərindən birinin olduğu başın fotoşəklinin məhkəməyə inandırıcı görünməsi ilə bağlı qeyd etmək lazımdır ki, bu yanaşmanın nə qədər ədalətsiz, qərəzli və qeyri-obyektiv olması barədə qənaətə gəlmək üçün elə də xüsusi biliyə malik olmaq lazım deyil. Ən azından bədənin həmin hissəsinin kiçicik də olsa, nümunələrinin olacağı halda və bu nümunələrin bədəndən zəruri komponentlər götürülməklə (ekshumasiya yolu ilə əldə edilməklə) müqayisəli şəkildə DNT analizi vasitəsilə dürüstləşdirildikdən sonra bədənin konkret hissələrinin eyni şəxsə məxsusluğu barədə əsaslandırılmış fikir söyləmək və yalnız bundan sonra hansısa hüquqi nəticəyə gəlmək olardı.

Əks halda bir o qədər də uzaq olmayan tarixi keçmişimizdə erməni millətçilərinin hansı təxribatlarla siyasi niyyətlərinə cəhd etmələrinə dair coxsaylı nümunələr sadalamaq olar. Məsələn, 1988-ci il fevralın 27-28-də Sumqayıt şəhərində baş vermiş kütləvi iğtişaşlar zamanı erməni və digər millətlərin nümayəndələrinin, o cümlədən 6 azərbaycanlının qətlə yetirilməsi ilə bağlı ovaxtkı SSRİ Prokurorluğunun istintaq qrupu müəyyən etmişdi ki, həmin hadisələrin əsas təşkilatçısı məhz milliyyətcə erməni Eduard Qriqoryan olmuşdur. Ermənilərin əksəriyyəti bu hadisələr barədə qabaqcadan məlumatlı olmaqla yerli Əmanət Bankından milyon manata yaxın (həmin dövrdəki pulla) vəsait çıxarmışdır. Ermənilər tərəfindən əvvəlcədən bu hadisələrin videoçəkilişi üçün tədbirlər görülmüş və sonrakı günlər həmin çəkilişlər qərəzli şərhlərlə dünya ictimaiyyətinə çatdırılmışdır. E.Qriqoryan məhkəmə hökmü ilə 12 il azadlıqdan məhrum edilmişdir. Bu fakt ermənilərin Azərbaycanı sivil dövlət kimi nüfuzdan salmaq, siyasi institutlarımıza sarsıdıcı zərbə vurmaq niyyətindən xəbər verir. Bu yerdə yada salmaq yerinə düşərdi ki, Osmanlı imperiyasının süqutunun səbəblərindən biri də Türkiyədə yaşayan erməni milliyyətçilərinin təxribatları və törətdikləri terrorlar olmuşdur.

Bunları sadalamaqla Aprel döyüşlərində erməni hərbçilərinin bədən hissələrinin kəsilməsini elə erməni separatçılarının özlərinin həyata keçirmələrini, məqsədlərinin isə həmin dövrdə dünya ictimaiyyətində Azərbaycan dövləti haqqında kəskin neqativ imic yaratmaq və özlərinin qondarma "Artsax respublikası"na Avropa siyasi dairələrində dəstək almaq olmasını qabartmaq istərdik.

Avropa siyasətçiləri erməni millətçisi Zori Balayanın Xocalı hadisələri ilə bağlı yazdığı "əsər"ləri ilə azca tanış olsaydılar, separatçı rejimdə hansı iyrənc metodların olduğuna dair şübhələri qalmaz və bəlkə də AİHM-in qeyd edilən qərarlarına daha obyektiv yanaşardılar. Hər bir halda məhkəmə artıq qərar qəbul edib və dövlətimiz beynəlxalq hüquqi prosedurlar çərçivəsində bu ədalətsiz, qərəzli qərara münasibətini sərgiləyəcək. Çünki:

- həmin cinayət hadisələrində dövlətin və hərbçilərin nümayəndələrinin iştirakına dair heç bir mötəbər sübut məhkəməyə təqdim edilməyib;
- həmin hadisələr zamanı aktiv döyüş şəraiti mövcud idi və Azərbaycan dövləti həmin ərazidə kriminogen hadisələrə müdaxilə etmək imkanında olmayb;
- döyüş şəraitindən ötən 10 il ərzində bu məsələ qaldırılmayıb, hansısa cinayət faktı barədə Azərbaycan tərəfinə müraciət edilməyib;
- meyitin təhqir olunması erməni sepatatçılarının özləri tərəfindən gələcək siyasi məqsədlər üçün reallaşdırıla bilərdi;
- AİHM-in qərarı ağlabatan və mötəbər sübutlar olmadan qəbul edilib, məhkəmənin belə şəraitdə qərar verməsi səlahiyyəti isə hüquqi mübahisə mövzusudur.

Bunlardan əlavə, Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın indiki mərhələdə səs hüququnun olmaması da AİHM-in qərarlarının icrasından imtina edilməsi üçün müəyyən əsaslar verir.

Göründüyü kimi, Avropa siyasi institutları Azərbaycana qarşı qərəzli mövqeyini hər addımda davam etdirir ki, bu da dövlətimizin həm hüquq-mühafizə, həm də siyasi strukturlarının ayıq-sayıqlıqlarını itirməməyi, işğal olunmuş torpaqlarımızın tam azad edilməsi ilə barışmaq istəməyən bəzi xarici revanşist və siyasi qüvvələrə qarşı hüquqi və siyasi prosedurlar çərçivəsində qətiyyətli mövqe sərgiləməyə fokuslanmasının zəruriliyini ön plana çəkir.

***Müqəddəs SULTANOV,***
***Azərbaycan Respublikası Milli Məclisi Aparatı rəhbərinin Məhkəmə hakimiyyəti orqanları ilə əlaqələr sektorunun müdiri***

# İqtisadiyyat və sosial həyat

## Azərbaycan-İsveçrə iqtisadi əlaqələri daha da inkişaf edəcək

### Buna ölkəmizin əlverişli investisiya mühiti imkan verir

**Azərbaycan-İsveçrə iqtisadi münasibətləri ticarət, investisiya, enerji, sənaye və innovasiya sahələrini əhatə edən fəal tərəfdaşlığa əsaslanır. İkitərəfli əməkdaşlığın genişləndirilməsi məqsədilə bu günlərdə növbəti İsveçrə-Azərbaycan Biznes-Forumu təşkil olunub.**



Forum iqtisadiyyat naziri Mikayıl Cabbarovun İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində keçirilib. Tədbirdə hər iki ölkədən dövlət rəsmiləri ilə yanaşı, enerji, nəqliyyat və logistika, tikinti, maşınqayırma, metallurgiya, qida, turizm, səhiyyə, telekommunikasiya, konsaltinq, maliyyə, kimya, əczaçılıq və s. sahələri təmsil edən şirkətlərin nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, Azərbaycan-İsveçrə I Biznes-Forumu 2011-ci il oktyabrın 27-də Bakıda təşkil olunub və fəaliyyətə başlayıb. Həmin vaxtdan da ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişaf dinamikasına müsbət təsir göstərib. Ticarət və qarşılıqlı investisiyalar ikitərəfli iqtisadi əlaqələrin əsas istiqamətlərinə çevrilib.

İndiyədək İsveçrə tərəfindən Azərbaycan iqtisadiyyatına 844 milyon dollardan çox investisiya yatırılıb. Ölkəmizdə tikinti materialları istehsalı sahəsində İsveçrənin "Holcim" şirkəti fəaliyyət göstərir.

Budəfəki forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın məhz əlverişli biznes və investisiya mühiti, strateji coğrafi mövqeyi, nəqliyyat-logistika imkanları və Orta dəhliz çərçivəsində artan rolunu vurğulayıb. Ölkəmizdə fəaliyyət göstərən azad iqtisadi və sənaye zonalarının, eləcə də "yaşıl enerji" potensialının investorlar, o cümlədən İsveçrə şirkətləri üçün yeni əməkdaşlıq imkanları yaratdığını qeyd edib.

İsveçrə Konfederasiyasının Ticarət Sazişləri üzrə Federal Şurasının nümayəndəsi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin İkitərəfli İqtisadi Əlaqələr İdarəsinin rəhbəri Andrea Rauber Saxer çıxışında Azərbaycan-İsveçrə iqtisadi dialoqunun inkişafı, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, eləcə də işgüzar dairələr arasında birbaşa təmasların artırılmasının əhəmiyyətini bildirib.

Forum çərçivəsində Dördüncü Sənaye İnqilabı, innovasiya ekosistemləri və investisiya təşviqi sahəsində qlobal trendlər nəzərdən keçirilib, Azərbaycan və İsveçrə şirkətlərinin təqdimatları dinlənilib, investisiya prioritetləri, qlobal bazarlara çıxış imkanları və əməkdaşlıq modelləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Mikayıl Cabbarov tədbir barədə belə deyib: "İsveçrə-Azərbaycan Biznes-Forumu iki ölkənin işgüzar dairələrinin səmimi fikir mübadiləsi aparması və yeni əməkdaşlıq imkanlarını dəyərləndirməsi baxımından faydalı oldu. Tədbirdə investisiya və ticarət, enerji, nəqliyyat, rəqəmsal texnologiyalar, innovasiya və turizm sahələrində əməkdaşlığın inkişafı üçün mövcud potensial və səsləndirilən təkliflər nəzərdən keçirildi. Azərbaycanın əlverişli biznes mühiti, strateji coğrafi mövqeyi və regional bağlantıları İsveçrə şirkətləri üçün yeni imkanlar yaradır".

Onu da qeyd edək ki, səfəri zamanı Azərbaycanın iqtisadiyyat nazirini İsveçrə Konfederasiyasının prezidenti, Federal İqtisadi Məsələlər, Təhsil və Tədqiqat Departamentinin rəhbəri Gi Parmelen də qəbul edib.

Söhbət zamanı Azərbaycan-İsveçrə münasibətlərinin gündəliyindəki məsələlər müzakirə olunub. Ölkələrimiz arasında möhkəm ikitərəfli əlaqələrin qarşılıqlı hörmət və etimada əsaslandığı, tərəfdaşlığın qarşıdakı dövrdə daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu vurğulanıb. Ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi, Hökumətlərarası Komissiyanın fəaliyyəti çərçivəsində yeni istiqamətlərin müəyyənləşdirilməsi, həmçinin humanitar əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Mikayıl Cabbarovun İsveçrə Konfederasiyasının Ticarət Sazişləri üzrə Federal Şurasının nümayəndəsi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin İkitərəfli İqtisadi Əlaqələr İdarəsinin rəhbəri Andrea Rauber Saxer ilə də görüşü olub.

Aparılan fikir mübadiləsi Azərbaycan-İsveçrə iqtisadi tərəfdaşlığının inkişafı üçün prioritet istiqamətlərə yönəldilib. Belə bir inam ifadə olunub ki, iki ölkənin biznes dairələri arasında birbaşa əlaqələrin genişləndirilməsi, qarşılıqlı investisiyaların təşviqi və yeni birgə təşəbbüslərin reallaşdırılması iqtisadi tərəfdaşlığın daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcək.

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 10-cu iclası da keçirilib. Birgə komissiyanın həmsədrləri Mikayıl Cabbarov və Andrea Rauber Saxerin iştirak etdiyi iclasda Azərbaycan-İsveçrə iqtisadi tərəfdaşlığının inkişafı üçün prioritet istiqamətlər, həmçinin ticarət və investisiya əlaqələrinin mövcud vəziyyəti diqqət mərkəzində olub. Eləcə də İsveçrə Konfederasiyası ilə tərəfdaşlığın ikitərəfli formatda və beynəlxalq maliyyə qurumları çərçivəsində genişləndirilməsi məsələləri müzakirə edilib.

Beləliklə, ölkələrimiz arasında sənaye, enerji, rəqəmsal iqtisadiyyat, innovasiya, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın yeni perspektivlərinin meydana çıxdığı özünü göstərib. Eləcə də Azərbaycanın əlverişli investisiya mühiti, strateji nəqliyyat bağlantıları, "yaşıl enerji" potensialı və rəqəmsal transformasiya istiqamətində həyata keçirilən tədbirlərin xarici tərəfdaşlar üçün yaratdığı imkanlar bir daha gündəmə gəlib. Önəmli məqamlardan biri də odur ki, sözügedən görüş və tədbirlərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tətbiq olunan biznes dəstəyi mexanizmləri də diqqətə çatdırılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Orta dəhlizi TRIPP nəqliyyat təşəbbüsü ilə inteqrasiya etmək mümkündür

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun - Orta dəhlizin TRIPP təşəbbüsü ilə inteqrasiyasının mümkün olduğunu bildirib.**

AZƏRTAC Akordaya istinadla xəbər verir ki, dövlət başçısı bu barədə birinci Mərkəzi Asiya - Koreya Respublikası sammitində bildirib.



Kasım-Jomart Tokayev qeyd edib ki, Qazaxıstan öz ərazisindən tranzit daşımaların ümumi həcmini 100 milyon tona çatdırmağı qarşıya məqsəd qoyub.

Onun sözlərinə görə, son altı ildə Orta dəhliz üzrə yükdaşımaların həcmi beş dəfə artıb. Qazaxıstan yaxın perspektivdə dəhlizin ötürücülük qabiliyyətini 20 milyon tona çatdırmaq niyyətindədir.

"Fikrimizcə, Orta dəhlizin TRIPP təşəbbüsü ilə inteqrasiyasını təmin etmək mümkündür", - deyə Qazaxıstan Prezidenti bildirib.

O qeyd edib ki, bu marşrutların potensialını birləşdirərək Koreyadan Mərkəzi Asiya vasitəsilə Avropaya qədər vahid nəqliyyat-logistika zənciri formalaşdırmaq mümkündür.

Prezident vurğulayıb ki, qabaqcıl təcrübə və informasiya mübadiləsi baxımından Busan limanı ilə Qazaxıstanın Xəzər dənizindəki limanları arasında sıx əməkdaşlıq üçün böyük perspektivlər açılır.

## Asiya İnkişaf Bankının nümayəndələri Azərbaycanın dəmir yolu sisteminin inkişafı barədə məlumatlandırılıblar

**Asiya İnkişaf Bankının (AİB) Direktorlar Şurasının üzvləri Azərbaycana səfəri çərçivəsində "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-də olublar.**




QSC-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı ADY ilə Asiya İnkişaf Bankı arasında mövcud əməkdaşlıq, nəqliyyat infrastrukturunun inkişafı, dəmir yolu sektorunda həyata keçirilən layihələr və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

ADY nümayəndələri qonaqlara Azərbaycanın dəmir yolu sisteminin inkişafı, sərnişin daşımalarında tətbiq olunan müasir həllər və xidmət keyfiyyətinin artırılması istiqamətində görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, ADY ölkənin nəqliyyat bağlantılarının gücləndirilməsi, dayanıqlı və rəqəmsal nəqliyyat həllərinin tətbiqi, eləcə də sərnişinlərə rahat və təhlükəsiz xidmətlərin göstərilməsi istiqamətində ardıcıl fəaliyyət göstərir.

Daha sonra AİB Direktorlar Şurasının üzvləri ADY-nin sərnişin xidmətlərindən istifadə edərək qatarla Gəncə şəhərinə yola düşüblər.

Səfər Azərbaycanın dəmir yolu infrastrukturunun və sərnişin daşımaları sahəsində tətbiq olunan müasir yanaşmaların beynəlxalq tərəfdaşlara təqdim edilməsi baxımından xüsusi əhəmiyyət daşıyıb.

# *Azərbaycanda sahibkarlığın inkişafı:* yeni imkanlar və müasir çağırışlar

**Müasir iqtisadiyyatın dayanıqlılığı getdikcə daha çox sahibkarlığın inkişaf səviyyəsi ilə müəyyən olunur. Sahibkarlıq artıq yalnız gəlir əldə etməyə yönəlmiş biznes fəaliyyəti deyil. O, yeni iş yerlərinin yaradılmasının, regionlarda iqtisadi fəallığın genişlənməsinin, innovasiyaların tətbiqinin və iqtisadiyyatın şaxələndirilməsinin mühüm dayaqlarından birinə çevrilib. Qlobal iqtisadi münasibətlərin sürətlə dəyişdiyi, rəqəmsallaşmanın istehsal və xidmət modellərini yenidən formalaşdırdığı indiki mərhələdə çevik və rəqabətqabiliyyətli sahibkarlıq sektorunun mövcudluğu ölkələrin iqtisadi dayanıqlığı baxımından xüsusi əhəmiyyət daşıyır.**

Azərbaycan üçün də sahibkarlığın inkişafı strateji xarakter daşıyır. Neft gəlirləri uzun illər ölkənin iqtisadi inkişafı üçün güclü maliyyə bazası yaradıb. Lakin yeni mərhələnin əsas vəzifəsi iqtisadi artımın getdikcə daha çox qeyri-neft sektoruna, özəl təşəbbüsə və sahibkarlıq fəallığına söykənməsidir. Son illərdə həyata keçirilən islahatların mühüm istiqamətlərindən birinin məhz biznes mühitinin yaxşılaşdırılmasına və sahibkarlıq təşəbbüslərinin stimullaşdırılmasına yönəlməsi də bununla bağlıdır.

Vergi və gömrük inzibatçılığının təkmilləşdirilməsi, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizmlərinin tətbiqi, sənaye zonalarının və aqroparkların yaradılması bu siyasətin əsas istiqamətlərindəndir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Sahibkarlığın İnkişafı Fondunun, KOB evlərinin və digər institutların fəaliyyəti sahibkarla dövlət arasında münasibətlərin daha çevik və xidmətyönümlü əsasda qurulmasına imkan verir.

Həyata keçirilən siyasətin nəticələri son açıqlanan rəsmi statistik göstəricilərdə də aydın görünür. Son iki ilin müqayisəsi mikro, kiçik və orta sahibkarlıq sektorunda müsbət dinamikanın davam etdiyini göstərir. Bu dövrdə KOB subyektlərinin sayı 5,8 faiz, sektorda məşğulluq 6,9 faiz, yaradılan əlavə dəyər isə 3,4 faiz artıb. Bu göstəricilər yalnız sahibkarlıq subyektlərinin sayca genişlənməsini deyil, eyni zamanda onların iqtisadi fəallıqda və əmək bazarında mövqeyinin möhkəmlənməsini ifadə edir.

Xüsusilə məşğulluğun artım tempinin subyektlərin say artımını üstələməsi diqqət çəkir. Bu, sahibkarlığın yeni iş yerlərinin yaradılmasında sosial rolunun genişləndiyini göstərir. Əlavə dəyərin yüksəlməsi isə sektorun iqtisadi nəticələrinin də yaxşılaşdığına işarədir. Başqa sözlə, sahibkarlıq artıq iqtisadiyyatda yalnız kəmiyyət göstəriciləri ilə deyil, yaratdığı məşğulluq və əlavə dəyərlə də daha nəzərəçarpan mövqe qazanır.

Bununla belə, burada əsas məsələ yalnız artımın davam etməsi deyil, onun keyfiyyətinin və dayanıqlılığının təmin olunmasıdır. Sahibkarlığın növbəti inkişaf mərhələsində daha çox müəssisənin yaradılması ilə yanaşı, mövcud bizneslərin iqtisadi miqyasının genişləndirilməsi, məhsuldarlığının və rəqabət qabiliyyətinin artırılması daha böyük əhəmiyyət kəsb edir.

Bu baxımdan sahibkarlığın maliyyə resurslarına çıxışının yaxşılaşdırılması xüsusi rol oynayır. Son hesabat dövründə göstəricilərinə əsasən, Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilən layihələrin 99,8 faizi, ayrılan güzəştli kredit məbləğinin isə 93,4 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb. Eyni zamanda güzəştli kreditlə maliyyələşdirilən layihələrin 94,7 faizi, ayrılmış vəsaitlərin isə 72 faizi regionlara yönəldilib. Bu göstəricilər dövlət maliyyə dəstəyinin həm KOB sektorunun inkişafına, həm də sahibkarlığın regional coğrafiyasının genişlənməsinə xidmət etdiyini göstərir.

Regionlarda sahibkarlığın inkişafı ölkənin iqtisadi siyasətində ayrıca əhəmiyyət daşıyır. Yerli resursların iqtisadi dövriyyəyə cəlb olunması, yeni istehsal və emal müəssisələrinin yaradılması, məşğulluğun genişlənməsi və əhalinin gəlirlərinin artması regional inkişafın dayanıqlılığı üçün mühüm şərtdir. Bu baxımdan yerli xammala əsaslanan istehsalın, ixrac potensialına malik müəssisələrin və daha yüksək əlavə dəyər yaradan biznes layihələrinin təşviqi qarşıdakı dövrdə də mühüm istiqamətlərdən biri olaraq qalır.

Sahibkarlığın ölkənin iqtisadi inkişaf modelindəki rolu strateji sənədlərdə də aydın ifadə olunub. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat əsas prioritetlərdən biri kimi müəyyən edilib. İqtisadi artımın getdikcə daha çox qabaqcıl və səmərəli özəl təşəbbüslərə söykənməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbələrindən birinə çevrilməsi, sahibkarların maliyyəyə çıxış imkanlarının yaxşılaşdırılması və innovativ özəl sektorun inkişafı burada xüsusi yer tutur.



"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" da bu xətti davam etdirərək iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi, özəl sektorun fəallığının yüksəldilməsi, investisiya və ixrac imkanlarının artırılması üçün konkret tədbirlər müəyyən edir. Növbəti 2027-2030-cu illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması isə ölkənin iqtisadi siyasətində bu xəttin davamlı xarakter daşıdığını göstərir.

Yeni mərhələnin mühüm imkanlarından biri rəqəmsal transformasiya ilə bağlıdır. Elektron xidmətlərin genişlənməsi, rəqəmsal ödəniş sistemləri, onlayn satış kanalları, süni intellekt həlləri və yeni texnoloji platformalar biznesin təşkilində və bazara çıxış imkanlarında ciddi dəyişikliklər yaradır. 2026-2029-cu illər üçün rəqəmsal iqtisadiyyatın inkişaf strategiyası da sahibkarlıqda rəqəmsal infrastrukturun genişləndirilməsi, innovasiya əsaslı inkişafı və rəqəmsal bacarıqların gücləndirilməsini ön plana çıxarır. Bu imkanlar xüsusilə mikro və kiçik sahibkarların fəaliyyət xərclərinin azalması, yeni bazarlara çıxışı və rəqabət qabiliyyətinin yüksəlməsi baxımından əhəmiyyətlidir.

Digər mühüm inkişaf məkanı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarıdır. İşğaldan azad olunmuş ərazilərdə qurulan müasir infrastruktur, sənaye parkları, aqrar və xidmət layihələri, tətbiq olunan vergi və digər güzəştlər yeni sahibkarlıq təşəbbüsləri üçün geniş imkanlar yaradır. Bu ərazilərin iqtisadi dövriyyəyə qoşulması yalnız regional inkişaf baxımından deyil, yeni istehsal zəncirlərinin, investisiya layihələrinin və ixrac imkanlarının formalaşdırılması baxımından da mühüm perspektivlər açır.

Eyni zamanda mövcud inkişaf dinamikası növbəti mərhələnin vacib çağırışlarını da müəyyən edir. Mikro sahibkarların KOB strukturunda yüksək xüsusi çəkisi həmin bizneslərin bir hissəsinin tədricən kiçik, daha sonra isə orta sahibkarlıq səviyyəsinə yüksəlməsi üçün əlavə stimullara ehtiyac olduğunu göstərir. Əsas kapital qoyuluşlarında KOB-ların rolunun artırılması, uzunmüddətli və münasib maliyyə resurslarına çıxışın daha da genişləndirilməsi, texnoloji yenilənmənin sürətləndirilməsi, elmi-tədqiqat və innovasiya fəaliyyətinin sahibkarlıqla daha sıx əlaqələndirilməsi də vacib inkişaf istiqamətlərindəndir.

Burada söhbət daha çox mövcud çətinliklərdən deyil, sahibkarlığın istifadə olunmamış inkişaf ehtiyatlarının hərəkətə gətirilməsindən gedir. Azərbaycan sahibkarlığı artıq formalaşmanın ilkin mərhələsini xeyli dərəcədə geridə qoyub. İndi əsas məsələ onun keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsidir. Bu isə daha yüksək məhsuldarlıq, texnoloji yenilənmə, ixrac imkanlarının genişlənməsi, innovativ düşüncənin güclənməsi və regionlarda daha dayanıqlı biznes strukturlarının formalaşması deməkdir.

Beləliklə, Azərbaycanda sahibkarlığın inkişafını artıq yalnız biznes subyektlərinin sayındakı artımla qiymətləndirmək kifayət deyil. Yeni mərhələdə əsas hədəf daha məhsuldar, innovativ, dayanıqlı və rəqabətqabiliyyətli özəl sektorun formalaşdırılmasıdır. Dövlətin həyata keçirdiyi islahatlar, strateji sənədlərdə müəyyən olunan hədəflər, regionlarda və işğaldan azad edilmiş ərazilərdə yaranan yeni iqtisadi imkanlar bunun üçün əlverişli zəmin yaradır. Qarşıdakı dövrdə bu potensialdan daha səmərəli istifadə olunması sahibkarlığın qeyri-neft iqtisadiyyatının genişlənməsində, məşğulluğun artırılmasında və ölkənin uzunmüddətli iqtisadi dayanıqlılığının təmin edilməsində rolunu daha da gücləndirəcək.

*Yaşar MƏMMƏDOV,*
*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru*





# Mədəniyyət





# Sözün əbədiyyəti

**Bəzi şairlər dövrlərinin hadisələrini qələmə alır, bəziləri isə yaşadıqları zamanın mənəvi yaddaşına çevrilirlər. Onların sözündə bir xalqın tarixi, torpağın nəfəsi, ayrılığın ağrısı, azadlıq arzusu və insanın varlığı qarşısında düşündüyü suallar yaşayır. Belə sənətkarların yaradıcılığı ədəbi hadisə deyil, eyni zamanda milli düşüncənin, mənəvi özünüdərkin ifadəsidir.**



Məmməd Araz Azərbaycan poeziyasında məhz belə ucalıq qazanan söz ustadlarındandır. Şairin şeirlərində Vətən, sadəcə, coğrafi məkan, xəritədəki sərhəd və ya doğulub yaşanılan torpaq deyil, həm də şairin qəlbində başlayan, yaddaşından keçən, ağrısı ilə onu yaşadan böyük mənəvi dünyadır. Dağ, daş, çay, ağac, bulaq, ana dili və xalqın taleyi Məmməd Araz poeziyasında bu dünyanın ayrı-ayrı nişanələrinə çevrilir. Məmməd Arazın poeziyası oxucunu yalnız duyğulandırmır, onu düşünməyə, vətəndaşlıq məsuliyyətini dərk etməyə çağırır. Elə buna görə də şairin adı Azərbaycan ədəbiyyatında milli ruhun, vətəndaş qeyrətinin və istiqlal düşüncəsinin qüdrətli ifadəçilərindən biri kimi yaşayır.

Məmməd Araz 1933-cü ildə Naxçıvanın Şahbuz rayonunun Nursu kəndində anadan olub. Doğulduğu dağlıq mühit, xalqın zəngin folkloru, təbiətin sərt və əzəmətli mənzərələri onun poetik dünyasının formalaşmasında mühüm rol oynayıb. Şairin yaradıcılığında dağların, qayaların, çayların və doğma yurd mənzərələrinin bu qədər canlı görünməsi təsadüfi deyil. Şair təbiəti yalnız gözəllik mənbəyi kimi deyil, həm də xalqın xarakterini və taleyini ifadə edən mənəvi obraz kimi təqdim edirdi.

Məmməd Arazın yaradıcılıq yolu poeziyamızın inkişaf mərhələləri ilə sıx bağlıdır. O, şeir, publisistika və ədəbi fəaliyyətin demək olar ki, bütün sahələrində məhsuldar çalışıb, sözə məsuliyyətlə yanaşan, sənətin ictimai və mənəvi gücünə inanan sənətkar kimi tanınıb. Şairin yaradıcılığı zaman keçdikcə daha da dərinləşib, şəxsi duyğularla ictimai düşüncə, Vətən sevgisi ilə insan taleyi bir-birini tamamlayıb. Məmməd Arazın yaradıcılıq kredosunu ifadə edən misraları onun sənət dünyasına açar verir:

*Məni şeirimdə gəz bir insan kimi,*
*Qəlbimdə nə varsa ona demişəm.*
*Anadan-bacıdan gizlətdiyimi,*
*Kağızdan, qələmdən gizlətməmişəm.*

Bu misralarda şairin sənətə münasibəti aydın görünür. Şeir onun üçün yalnız bədii ifadə vasitəsi deyil, insanın özünü açdığı, daxili həqiqətini etiraf etdiyi mənəvi məkandır. "Məni şeirimdə gəz" çağırışı oxucunu şairin zahiri bioqrafiyasından daha dərin bir aləmə - onun qəlbinə, düşüncələrinə və mənəvi iztirablarına dəvət edir. Burada səmimiyyət, sadəcə, hisslərin açıq ifadəsi deyil, həm də söz qarşısında dürüstlükdür.

Məmməd Araz yaradıcılığının mühüm xüsusiyyəti Vətən anlayışını yüksək mənəvi dəyərə çevirməsidir. Onun şeirlərində Vətən sevgisi pafoslu çağırışlarla məhdudlaşmır; bu sevgi torpağın daşına, qayasına, təbiətinə, dilinə və insana münasibətdə ümumiləşir. Şair üçün Vətənə bağlılıq təkcə sevmək deyil, həm də onun ağrısını öz ağrın bilmək, taleyinə cavabdehlik daşımaqdır. Məmməd Arazın məşhur misraları bu düşüncəni son dərəcə yığcam, amma təsirli şəkildə ifadə edir:

*Vətən mənə oğul desə, nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*
*Bu torpaqsız harda, nə vaxt, nə dərdim,*
*Xəzanımdır, xəzanımdır, xəzanım.*

Bu şeirdə şair özünü Vətəndən ayrı təsəvvür edə bilmir. "Mamır olub qayasında bitərdim" ifadəsi Vətənə bağlılığın qeyri-adi poetik obrazıdır. Mamır qayaya yapışaraq onunla bir varlıq təsiri bağışlayır. Şair də öz varlığını doğma torpağın varlığı ilə birləşdirir. Burada Vətən sevgisi romantik duyğudan daha təsirlidir - insanın mənəvi mövcudluğunun şərtinə çevrilir. Məmməd Arazın "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" fikri də onun vətəndaşlıq anlayışını aydınlaşdırır. Bu misrada "daş" sözü, sadəcə, maddi varlıq deyil, eyni zamanda möhkəmlik, sədaqət, dayaq və torpağa bağlılıq rəmzidir. Şairin düşüncəsinə görə, vətəndaşlıq yalnız hüquqi mənsubiyyət yox, Vətənin taleyinə münasibətdə mənəvi mövqe tutmaqdır. Bu yanaşma onun başqa bir misrasında da özünü göstərir:

*Mənim yurdum hardan başlar?*
*- Ürəyimin kandarından.*

Şair duyğusunda, düşüncəsində Vətən xəritənin sərhədindən əvvəl insanın ürəyinin kandarından başlayır. Məmməd Arazın yurdu onun yaddaşında, duyğusunda, dilində və mənəvi kimliyində yaşayır.

*Azərbaycan!..*
*Qayalarda bitən bir çiçək...*
*Azərbaycan, çiçəklərin içində qaya...*
*Mənim könlüm bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya.*

Bu misralarda "çiçək" və "qaya" obrazlarının qarşılaşdırılması diqqəti cəlb edir. Çiçək zərifliyin, gözəlliyin, həyatın, qaya isə möhkəmliyin, əzəmətin və davamlılığın rəmzidir. Azərbaycan bu iki xüsusiyyəti özündə birləşdirən bütöv varlıq kimi təqdim olunur. Şairin könlü dünyaya Azərbaycan pəncərəsindən baxır. Deməli, milli kimlik onun üçün dünyadan təcrid olunmaq yox, dünyanı mənəvi dəyərlərin işığında dərk etməkdir.

Məmməd Arazın yaradıcılığında Araz çayı xüsusi yer tutur. Araz onun poeziyasında, sadəcə, coğrafi məkan deyil, bölünmüş Vətənin, ayrılmış talelərin və bütövlük arzusunun rəmzinə çevrilir. "Arazın nəğməsi", "Bu gecə yuxumda Arazı gördüm", "Araz üstə çinar gördüm", "Yenə Arazı gördüm", "Mən Araz şairiyəm" kimi əsərlərində bu mövzu müxtəlif poetik çalarlarla işlənib.

"Qələm gəldi əlimə - Araz gəlir dilimə" misrası Araz mövzusunun şairin yaradıcılığında nə qədər təbii və üzvi yer tutduğunu göstərir. Arazın adı şairin dilinə gələndə bütöv Azərbaycan düşüncəsi, ayrılıq nisgili və milli yaddaş danışmağa başlayır. Şair Arazı tarix kimi görür. Çayın axarı zamanın axarını, iki sahili isə ayrılmış Vətənin ağrısını xatırladır. Bu obrazın gücü ondadır ki, Araz həm təbiət hadisəsi, həm də insan taleyinin poetik ifadəsidir. Onun səsində ayrılığın harayı, axarında isə bütövlüyə doğru davam edən ümid duyulur. Araz mövzusu şairin azərbaycançılıq düşüncəsinin mühüm dayaqlarından biridir. Şairin yaradıcılığında Azərbaycan yalnız keçmişin xatirəsi deyil, gələcəyin idealıdır. Bu idealın içində milli birlik, azadlıq, ərazi bütövlüyü və mənəvi bütövlük anlayışları bir-birini tamamlayır.

Məmməd Arazın poeziyası milli istiqlal düşüncəsinin də mühüm ifadə mənbələrindəndir. XX əsrin sonlarında Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələr şairin yaradıcılığında dərin iz buraxıb. "Ayağa dur, Azərbaycan", "Ata millət, ana millət ağlama", "Bizi vətən çağırır", "Əsgər oğul", "Dilənçi qaçqın", "Kəlbəcər qaçqınlarına" kimi əsərlərdə xalqın azadlıq arzusu, Qarabağ dərdi, qaçqınlıq və köçkünlük faciəsi öz əksini tapıb.

"Ayağa dur, Azərbaycan" şeirindəki:
*Atın məni tank altına,*
*Qundaqdakı bir körpəni xilas edim.*
*Neçə "səni", neçə "məni" xilas edim.*

misraları şairin vətəndaşlıq mövqeyini qətiyyətli şəkildə ifadə edir. Burada fədakarlıq fərdi qəhrəmanlıq nümayişi kimi deyil, insan həyatını qorumaq, xalqın gələcəyini xilas etmək məsuliyyəti kimi təqdim olunur. "Bir körpə" obrazı gələcəyin, davamlılığın və ümidin rəmzidir. Şairin özünü onun yolunda qurban verməyə hazır olması Vətən sevgisinin mənəvi miqyasını göstərir. Məmməd Arazın istiqlal şeirlərində ağrı ilə mübarizə əzmi yanaşı dayanır. O, xalqın dərdini yalnız təsvir etmir, bu dərdin içindən ayağa qalxmaq iradəsi də axtarır. Buna görə şairin poeziyası həm nisgilin, həm də dirənişin poeziyasıdır.

Məmməd Arazın yaradıcılığının mühüm cəhətlərindən biri də Azərbaycan dilinin poetik imkanlarından ustalıqla istifadə etməsidir. Şairin şeirlərində sözlər təsadüfi seçilmir; hər kəlmə fikrin, duyğunun və obrazın yerinə uyğun gəlir. Şairin dili həm xalq danışığının canlılığını, həm də yüksək poetik düşüncənin dərinliyini daşıyır. Məmməd Arazın sözə münasibəti onun bu misralarında da hiss olunur: "Ürəyimsiz kəlmə yazan deyiləm". Bu fikir şairin yaradıcılıq prinsipini ifadə edir. Söz Məmməd Araz üçün yalnız texniki vasitə deyil, ürəkdən keçən həqiqətin daşıyıcısıdır. Buna görə də şairin şeirlərində xalq dilindən gələn ifadələr, təbiət obrazları, qədim sözlər və canlı danışıq intonasiyası xüsusi təbii harmoniya yaradır. Məsələn:

*Dolular qırımlı, daşlar döyənək,*
*Sən kimə gərəksən, mən kimə gərək.*

Bu misralarda sözlərin səslənişi və mənası arasında daxili uyğunluq var. "Qırımlı", "döyənək" kimi ifadələr şeirin emosional gərginliyini artırır. Şairin dili həm sərt, həm də canlıdır. O, təbiətin və insanın ağrısını eyni poetik nəfəsdə birləşdirir. Məmməd Arazın sənətkarlığı onda görünür ki, mürəkkəb fikirləri belə yaddaqalan, sadə və tutumlu ifadələrlə çatdırmağı bacarır. Şairin şeirləri xalqın dilindən doğulmuş kimi səslənir, lakin bu təbiiliyin arxasında böyük söz seçimi dayanır.

Məmməd Arazın dünya və insan taleyi haqqında düşüncələrini ümumiləşdirən ən məşhur əsərlərindən biri "Dünya sənin, dünya mənim, dünya heç kimin" şeiridir. 1976-cı ildə yazılmış bu əsər insanın dünya ilə münasibətini, həyatın ötəriliyini və sahiblik iddiasının nisbi olduğunu fəlsəfi dillə ifadə edir. Şeirin əsas misrası təkrarlandıqca adi bir cümlədən daha çox məna qazanır:

*Bir taleyin oyununda cütlənmiş zərik,*
*Yüz il qoşa atılsaq da qoşa düşmərik.*
*Bir zərrənin işığına milyonlar şərik,*
*Dünya sənin, dünya mənim,*
*Dünya heç kimin...*

"Cütlənmiş zər" obrazı insan talelərinin bir-birinə yaxınlığını, lakin nəticələrinin eyni olmadığını göstərir. İnsanlar eyni dünyanın içində yaşasalar da, hər biri öz taleyini yaşayır. "Bir zərrənin işığına milyonlar şərik" misrası isə insanın dünyadakı yerini daha geniş miqyasda düşünməyə çağırır. Hər kəs həyatın işığından pay alır, amma heç kim dünyanı əbədi olaraq öz mülkünə çevirə bilmir.

Şeirin son bəndindəki "Mən özümlə oynadığım şahmata güldüm…" misrası insanın öz iddialarına kənardan baxa bilməsi kimi səslənir. Şair burada dünyanın və həyatın mürəkkəbliyini dərk edən bir təbəssümə gəlir. Bu, sadəcə, gülüş deyil, faniliyi anlamağın doğurduğu fəlsəfi nəticədir.

Məmməd Araz 2004-cü ildə dünyadan köçdü. Lakin şairin yaradıcılığı Azərbaycan ədəbiyyatında yaşayır və yeni nəsilləri Vətən, dil, milli yaddaş, azadlıq və insan məsuliyyəti haqqında düşünməyə çağırır. Şairin şeirləri zamanın dəyişən mənzərələri içərisində mənəvi dəyərini qoruyur. Çünki həqiqi poeziya yalnız yazıldığı günün deyil, insanın dəyişməyən duyğularının da ifadəsidir. Heç kimə qalmayan dünyada heç kim də əbədi deyil. İnsan ömrü ötəridir, zaman hər kəsi öz axarına alıb aparır. Lakin sənətkarın taleyi yalnız yaşadığı illərlə bitmir. Şairin sözü xalqın yaddaşında yaşayır, misraları dillərdə səslənir, düşüncəsi yeni nəsillərin mənəvi dünyasına işıq salır. Məmməd Araz özü köçdü, əbədi olaraq sözü qaldı. Onun sözü Vətənin daşında, Arazın axarında, ana dilinin zənginliyində və Azərbaycan insanının yaddaşında yaşamaqda davam edir. Dünya sənin, dünya mənim, dünya heç kimin… Amma söz xalqın yaddaşında qaldıqca sənətkarın ömrü də əbədiyyətə qovuşur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "Üzeyir Hacıbəyli Azərbaycan musiqi mədəniyyətində əvəzsiz məktəb formalaşdırıb"

**Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinə gətirdiyi yeniliklər onun yaradıcılığının müxtəlif istiqamətlərində özünü göstərib. Bəstəkar milli musiqinin peşəkar musiqi ilə vəhdətini yaradaraq sonrakı bəstəkar nəsilləri üçün mühüm məktəb formalaşdırıb. Üzeyir Hacıbəylinin yaradıcılığında musiqi, elm və pedaqoji fəaliyyət bir-biri ilə sıx vəhdət təşkil edir. Bəstəkar "Ər və arvad", "O olmasın, bu olsun" və "Arşın mal alan" kimi əsərləri ilə Azərbaycanda musiqili komediya və operetta janrlarının inkişafına böyük töhfə verib.**



Bunu AZƏRTAC-a açıqlamasında sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı söyləyib.

O qeyd edib ki, Üzeyir Hacıbəyli Azərbaycan musiqisində qəzəl-romans janrının da əsasını qoyub. Nizaminin sözlərinə yazdığı "Sənsiz" və "Sevgili canan" romansları bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

"Bəstəkarın elmi fəaliyyəti də Azərbaycan musiqişünaslığının inkişafında mühüm mərhələ təşkil edir. O, uzun illər apardığı tədqiqatların nəticəsi olaraq "Azərbaycan xalq musiqisinin əsasları" əsərini yaradıb. Bu elmi əsər Azərbaycan musiqisinin nəzəri əsaslarının öyrənilməsi baxımından bu gün də mühüm mənbələrdən biri hesab olunur.

Üzeyir Hacıbəyli məktəbinin təsiri sonrakı bəstəkar nəslinin yaradıcılığında da aydın görünür. Fikrət Əmirov, Qara Qarayev, Cövdət Hacıyev, Sultan Hacıbəyov, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Ramiz Mustafayev və digər bəstəkarların yaradıcılığında milli musiqi ilə peşəkar bəstəkarlıq ənənələrinin vəhdəti öz əksini tapıb. Ü.Hacıbəylinin yaratdığı ənənələr sonrakı dövrlərdə də inkişaf etdirilib. Fikrət Əmirovun "Şur" simfonik muğamı, eləcə də digər bəstəkarların muğam simfonizmi sahəsində ərsəyə gətirdikləri əsərlər bu məktəbin davamlılığını göstərir.

Onun ən böyük arzularından biri Azərbaycan musiqisinin dünyada təbliği olub. Bu gün bəstəkarlarımızın əsərlərinin dünyanın müxtəlif konsert salonlarında səsləndirilməsi həmin arzunun reallaşmasının göstəricisidir. Bəstəkarın irsinin beynəlxalq səviyyədə təbliğində keçirilən musiqi festivalları və müxtəlif layihələr də mühüm rol oynayır. Üzeyir Hacıbəylinin doğum günü - 18 Sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması da onun Azərbaycan musiqi mədəniyyətindəki əvəzsiz mövqeyinin sübutudur", - deyə o əlavə edib.

Azərbaycan musiqişünaslığında Üzeyirşünaslıq istiqamətinin formalaşmasının dahi bəstəkarın irsinin tükənməzliyini göstərdiyini vurğulayan Səadət Təhmirazqızı deyib: "Musiqişünaslar daim Üzeyir Hacıbəylinin yaradıcılığına müraciət edərək yeni faktları üzə çıxarır, onun əsərlərinin müxtəlif aspektlərini araşdırırlar. Üzeyir Hacıbəyli öz xalqı və onun mədəniyyəti üçün elə böyük bir sərvət yaradıb ki, o bitib-tükənən deyil. Bizim üzərimizə düşən ən böyük məsuliyyət həmin irsi qorumaq, gələcək nəsillərə çatdırmaq və düzgün şəkildə təbliğ etməkdir".

# Bütün zamanlarda xatırlanan bəstəkar

**Azərbaycan musiqi mədəniyyətinin inkişafına böyük töhfələr vermiş, bəstələdiyi simfonik və bir-birindən maraqlı digər səhnə əsərləri ilə xalqın sevgi və hörmətini qazanmış görkəmli bəstəkar Nazim Ağalar oğlu Əliverdibəyov 1926-cı il avqustun 24-də Bakıda musiqiçi ailəsində dünyaya göz açıb. Bəstəkarın atası Ağalar Əliverdibəyov dövrünün seçilən qabaqcıl ziyalısı, muğam sənətinin mahir bilicisi və həm də ifaçısı olub. O illərin görkəmli xanəndələri, sazəndələri, musiqisevərləri Əliverdibəyovların evində tez-tez toplaşarmışlar. Onların evlərinin pəncərəsindən daim dalğa-dalğa musiqi sədaları yayılarmış.**



Böyük sənətkarın ailəsində doğulması, kiçik yaşlarından musiqinin sədaları altında böyüməsi, necə deyərlər, onunla nəfəs alması Nazim Əliverdibəyovun gələcək həyat yolunu müəyyənləşdirməyə müsbət təsir göstərib. Eşitdiyi bənzərsiz musiqilər, ifalar hələ uşaqlıq illərindən onu sehrləyib. Nazim Əliverdibəyov bu sehrin təsir dairəsinə düşüb. Zaman keçdikcə onun qəlbində musiqiyə böyük sevgi və məhəbbət yaranıb. Bu sevgi, bu məhəbbət onu özü də hiss etmədən musiqi dünyasına gətirib.

Gələcəyin görkəmli bəstəkarı olaraq Nazim Əliverdibəyov onillik musiqi məktəbinin buraxılış imtahanı zamanı özünün bəstələdiyi ilk pyeslərindən birini ifa edib. İmtahanı qəbul edən Üzeyir Hacıbəyli onu böyük maraqla sonadək dinləyib. Əsər dahi sənətkarın çox xoşuna gəlib. Üzeyir bəy şagirdin bacarığını layiqincə qiymətləndirərək Azərbaycan Dövlət Konservatoriyasına qəbul olmağı məsləhət bilib. Nazim Əliverdibəyov konservatoriyaya qəbul olandan sonra həyatının ən gözəl illərini yaşamağa başlayıb. Musiqinin sirlərini dərindən mənimsəyən Nazim Əliverdibəyov violonçeldə ifa etməyi isə sevimli müəllimi A.Şvartsdan, sonralar isə İ.Turindən öyrənib.

Bəstəkar Nazim Əliverdibəyov konservatoriyada dahi Üzeyir Hacıbəylinin sinfində dərs alıb. Yavaş-yavaş ötüb keçən illər onu musiqiçi kimi formalaşdırıb. Sonrakı illər o, simli alətlər fakültəsində təhsilini yarımçıq qoyaraq bəstəkarlığa meyil göstərib. Nazim Əliverdibəyov Üzeyir Hacıbəylinin sevimli şagirdlərindən biri olub. O, 1952-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində görkəmli bəstəkar, professor Cövdət Hacıyevin də sinfini uğurla başa vurub.

Yaradıcılıq yollarına 1940-cı illərin sonlarında başlayan bəstəkar Nazim Əliverdibəyov 30 il ərzində Azərbaycan musiqisini daha da zənginləşdirmək üçün bir-birindən maraqlı əsərlər bəstələyib. Bəstələdiyi bu əsərlər onun şöhrətini daha da artırıb, xalqa sevdirib.

Bəstəkarlıqla yanaşı, Nazim Əliverdibəyov həm də pedaqoji fəaliyyətlə də məşğul olub. Bülbül adına Orta İxtisas Məktəbində Azərbaycan musiqisini sevə-sevə gələcəyin sənətçilərinə tədris edib. Bacarığını, bilik və təcrübəsini nəzərə alaraq Nazim Əliverdibəyova yüksək etimad göstərilib. Görkəmli bəstəkar 1964-1985-ci illərdə Bülbül adına Orta İxtisas Məktəbində direktor işləyib. Eyni zamanda illər əvvəl Üzeyir Hacıbəylinin Azərbaycan Dövlət Konservatoriyasında böyük əziyyətlər bahasına yaratdığı və tədris etdiyi "Azərbaycan xalq musiqisinin əsasları" fənnindən gələcəyin musiqiçilərinə dərs deyib. Neçə-neçə musiqiçinin formalaşmasında, hazırlanmasında gərgin əmək sərf edib, onlara yol göstərib, dəyərli məsləhətlər verib. Nazim Əliverdibəyov həm də Azərbaycan Dövlət Konservatoriyasının dosenti olub. Çalışdığı illər ərzində peşəkar mütəxəssis kimi böyük hörmət və şöhrət qazanıb.

Xalq musiqisinin, xalq yaradıcılığının kök və üslubunu dərindən bilən, həssaslıqla duyan, onu daim ürəyində və qəlbində hiss edən görkəmli bəstəkar Nazim Əliverdibəyov Bülbül adına Orta İxtisas Məktəbində direktor işlədiyi illərdə tədrisdə bir sıra mühüm və uğurlu islahatlar aparıb. Onun təşəbbüsü və rəhbərliyi ilə bünövrəsi 1960-cı ildə qoyulmuş Xalq çalğı alətləri şöbəsi xeyli genişləndirilib. 1980-ci ildə isə daha uğurlu addım atılıb, şöbədə xanəndə bölməsi açılıb. Bundan sonra xalq musiqisinin və yaradıcılığının tədrisi istiqamətində imkanlar daha da artıb. Dövrünün ustad sənətkarları olan Şövkət Ələkbərova, İslam Rzayev, Arif Babayev, Əlibaba Məmmədov və başqaları məktəbdə dərs deməyə dəvət ediliblər. Hazırda xalq arasında sevilən məşhur ifaçı və xanəndələr bir zamanlar bu şöbədə təhsli alıblar.

Bəstəkar Nazim Əliverdibəyovun yaradıcılığında opera və simfoniya bəstələmələri, kino musiqisi, kamera-instrumental və vokal, uşaqlar üçün yazılmış əsərlər də mühüm yer tutur. İllərdən bəri zamanla ayaqlaşan bu əsərlər daha çox səmimiliyi, emosional ifadəliliyi ilə diqqəti cəlb edir və sevilir. Həmin əsərlərdən "Qəhrəmanlıq uvertürası", "Mingəçevir" simfonik poeması, "Cırtdan" uşaq operası, "Muğam" xoreoqrafiya lövhəsi, "Bayatı Şiraz" xoru və başqaları bu gün də sevilə-sevilə ifa olunur və dinlənilir.

Nazim Əliverdibəyov dahi bəstəkar Üzeyir Hacıbəylinin "Əsli və Kərəm", "Leyli və Məcnun" operalarını yenidən orkestrləşdirib. O, Üzeyir Hacıbəylinin nəşr edilmiş "Leyli və Məcnun", "Koroğlu" operalarının partituralarının redaktoru və tərtibçisi də olub.

Görkəmli bəstəkar Nazim Əliverdibəyov "Bayatı-Şiraz" muğamı əsasında kapella xoru üçün əsər də yaradıb. Bir müddətdən sonra isə onu orqan aləti üçün də işləyib. Böyük sevgi ilə bəslənən əsər bu gün də həm xor kapellasının, həm də orqan ifaçılarının konsert repertuarında əsas yerlərdən birini tutur.

Bütün zamanlarda xatırlanan və sevilən bəstəkar Nazim Əliverdibəyovun musiqi mədəniyyətimizə verdiyi töhfələr dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Görkəmli musiqiçi 1959-cu ildə "Əməkdə fərqlənməyə görə" medalına layiq görülüb.

Tanınmış bəstəkar, pedaqoq Nazim Əliverdibəyov 16 fevral 1986-cı ildə Bakıda vəfat edib.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Everest zirvəsinə qalxmış Vəfa Musayevanın həyatından bəhs edən filmin təqdimatı keçirilib

**Everest zirvəsinə qalxmış Azərbaycanın qadın alpinisti Vəfa Musayevaya həsr olunmuş "Sıfırı bir etdim" sənədli filminin təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov Vəfa Musayevanın Azərbaycan qadınının gücünü hər kəsə göstərdiyini bildirib.

Nazir qeyd edib ki, film Gənclər və İdman Nazirliyinin dəstəyi ilə hazırlanıb. O, idmançılar və gənclərə nümunə olan insanlar haqqında bir neçə filmin artıq çəkildiyini diqqətə çatdırıb.

F.Qayıbov Vəfa Musayevanın Everest zirvəsini fəth etməklə onlarla, yüzlərlə Azərbaycan gənc qadınına nümunə olduğunu vurğulayıb: "Filmdə də görəcəksiniz ki, bu, heç də asan bir iş deyil. Amma Vəfa xanım bu nümunəsi ilə onlarla, yüzlərlə Azərbaycan gənc qadınına nümunə oldu və olacaq".

Nazir bildirib ki, Gənclər və İdman Nazirliyi belə idmançılara hər zaman dəstək olur və bundan sonra da dəstəyini davam etdirəcək. O, Vəfa Musayevanın ötən il "Tərəqqi" medalı ilə təltif olunduğunu da xatırladıb.

Filmdə Vəfa Musayeva uşaqlıq xatirələrindən, Cəbrayıl rayonunun Balyand kəndində keçirdiyi illərdən danışıb. O, uşaqlıqdan yüksək yerlərdə olmağa xüsusi maraq göstərdiyini qeyd edib. Alpinist bildirib ki, kənddə digər qızlar evcik oynayarkən, o, qayaların üzərində oturaraq ətrafı və kəndi müşahidə etməyi sevib: "Uşaqlıqda bütün uşaqlar, əslində, mənim kimi qızlar kəndin evə daha yaxın olan tərəflərində öz gəlincikləri ilə oynayanda, onların saçlarını hörəndə mən çox yaxşı xatırlayıram ki, həmin qayanın üzərində otururdum və dağların, təpələrin arasında yerləşən kəndimizə baxırdım. O yüksəklikdə olmaq mənə o qədər xoş idi ki, çünki mən oradan hər şeyi görə bilirdim".




O, yaxın zamanda Cəbrayıla və Balyand kəndinə səfəri zamanı uşaqlıqda üzərində oturduğu qayaya yenidən qalxdığını deyib. V.Musayeva filmdə alpinist olmağın çətinliklərindən də bəhs edib. O, dağlarda olarkən özünü daha azad və sərbəst hiss etdiyini, yüksəkliklərin onun üçün xüsusi anlam daşıdığını diqqətə çatdırıb.

Filmdə alpinistin uşaqlıqdan formalaşan xarakterinin və dağlara olan marağının sonrakı həyat yoluna təsiri də əksini tapıb.

Filmin təqdimatından sonra Azərbaycan Alpinizm Federasiyasının İdarə Heyətinin üzvü Çingiz Tağızadə Vəfa Musayevanın Everest zirvəsinə qalxmasının təkcə onun şəxsi uğuru deyil, Azərbaycan alpinizmi və idmanı üçün də böyük əhəmiyyət daşıdığını söyləyib.

O qeyd edib ki, Everestə qalxmaq böyük fiziki hazırlıqla yanaşı, güclü iradə, səbir, cəsarət və məsuliyyət tələb edir. O, V.Musayevaya çətin və şərəfli yolda uğurlar arzulayıb və Azərbaycan bayrağının dünyanın ən yüksək zirvəsində dalğalandırılacağına inandığını deyib.

Azərbaycan İdman Akademiyasının rektoru Fuad Hacıyev isə V.Musayeva haqqında fikirlərini bölüşməyi özü üçün mənəvi öhdəlik hesab etdiyini bildirib.

Filmin ssenaristi və rejissoru Rüstəm Babazadə hündürlükdən qorxduğunu, lakin filmin montajı zamanı bu fobiyasının aradan qalxdığını deyib. Rejissor V.Musayevanın Everestə getməsi və zirvəni fəth etməsinin onun üçün də xüsusi təəssürat yaratdığını vurğulayıb.

# Şəhid kapitanın anası xəstəxanada ziyarət edilib

**Salyan Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov səhhəti ilə əlaqadar Salyan Rayon Mərkəzi Xəstəxanası Publik Hüquq Şəxsdə müalicə alan şəhid anası Şirinova Könül Vəkil qızını ziyarət edib. İcra başçısı ziyarət zamanı şəhid anasının sağlamlıq durumu və qayğıları ilə maraqlanıb, şəfa diləyib, hər zaman şəhid ailələrinin yanında olduğunu bildirib.**



Görüşdə RİH başçısı Vətənimiz üçün ləyaqətli övlad böyütdüyünə görə anaya təşəkkür edib. Hazırda səhhətinin yaxşılığa doğru dəyişdiyini söyləyən ana, şəhid ailələrinin üzvlərinin sağlamlığının daim diqqətdə saxlanılmasını, onların sosial müdafiəsinin davamlı olaraq gücləndirilməsini hər kəsin təqdirəlayiq hal kimi qiymətləndirdiyini bildirib və buna görə möhtərəm Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını ifadə edib. Qeyd edək ki, Könül Şirinova Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan kapitan Kamil Şirinovun anasıdır.

Kamil Əliş oğlu Şirinov 1991-ci il aprelin 9-da Salyan rayonunun Çuxanlı kəndində hərbçi ailəsində dünyaya göz açıb. Atası Əliş Şirinov I Qarabağ müharibəsinin iştirakçısıdır.

Kamil Şirinov 2006-cı ildə orta təhsilini, 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirib. Türkiyədə, Pakistanda hərbi təlimlərdə iştirak edib. 7 il xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı və həmin qrupun komandiri olub. Dostları onu zarafatla "Sarı komutan" çağırırdılar. 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanlarından idi. "Hərbi xidmətdə fərqlənməyə görə" medalını ona şəxsən Prezident İlham Əliyev təqdim etmişdi.

2020-ci il sentyabrın 29-da Füzuli uğrunda gedən qızğın döyüşlərdən birində qəhrəmancasına döyüşərək şəhid olub. Döyüş yoldaşının həyatını xilas edib, lakin bu vaxt düşmən snayperinin namərd gülləsinə tuş gəlib. Sinəsində daşıdığı Azərbaycan bayrağını döyüş yoldaşına verərək: "Bunu oğlum Türkaya çatdırın,"- deyib.

Kapitan Kamil Şirinov "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları, "Qarabağ" ordeni ilə təltif olunub (ölümündən sonra). 2 övladı yadigar qalıb. Hər il ad günü, anım günü xüsusi hörmətlə qeyd edilir. Bu xalq nəinki şəhidləri, onları boya-başa çatdıran valideynləri də əziz tutur. Dövlətimiz isə şəhidləri yetişdirən ata-analara xüsusi qayğı göstərir. Şəhidlər ölmür, onlar qəlbimizdə əbədi yaşayır. Necə deyərlər, heç nə yaddan çıxmır, heç kəs unudulmur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# "Azərenerji" və "TotalEnergies" arasında əməkdaşlıq məsələləri müzakirə olunub



**"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə "TotalEnergies" şirkətinin idarəedici direktoru Emmanuel De Gui llebonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı Azərbaycanda yeni inşa olunacaq qaz emalı zavodunun elektrik şəbəkəsinə qoşulması, bununla bağlı texniki və enerji təminatının təşkili məsələləri xüsusi diqqət mərkəzində olub.

Tərəflər qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və enerji layihələrinin səmərəli şəkildə həyata keçirilməsi istiqamətində müzakirələrin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# *"Eurosport"*: "Formula-1"də Bakı yeniliyi - Azərbaycan Qran-prisi niyə ilk dəfə şənbə günü keçiriləcək?

**Rumıniyanın nüfuzlu "Eurosport" idman nəşri "Formula-1" Azərbaycan Qran-prisinin tarixində ilk dəfə şənbə günü keçirilməsinə geniş məqalə həsr edib.**




AZƏRTAC xəbər verir ki, nəşrin Rumıniya redaksiyasında dərc olunan "Azərbaycan Qran-prisi şənbə günü keçiriləcək! Bakı Qran-prisi tarixində ilk dəfə baş verəcək bu dəyişikliyin səbəbi" sərlövhəli məqalədə yarışın təqvimindəki yeniliyin səbəbləri, Azərbaycanın milli anım günü və "Formula-1" çempionatının qarşıdakı mərhələsi barədə məlumat verilib.

Məqalədə bildirilir ki, 2026-cı il Azərbaycan Qran-prisi əvvəlcə sentyabrın 25-27-də keçirilməli idi. Lakin yarışın son gününün Azərbaycanda anım gününə təsadüf etməsi səbəbindən təqvimə dəyişiklik edilib. Beləliklə, Bakı şəhər halqasında yarış həftəsonu sentyabrın 24-26-da təşkil olunacaq, əsas yarış isə sentyabrın 26-da baş tutacaq.

"Eurosport" yazır ki, bu qərar Bakı Qran-prisinin tarixində bir ilkdir. Azərbaycan paytaxtında indiyədək keçirilmiş "Formula-1" yarışlarının əsas mərhələləri bazar gününə təsadüf etdiyi halda, 2026-cı ildə pilotlar dünya çempionatının növbəti mərhələsində şənbə günü mübarizə aparacaqlar.

Rumıniya nəşri yarışın tarixinin dəyişdirilməsinin səbəblərini izah edərkən sentyabrın 27-sinin Azərbaycan üçün xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırır. Bildirilir ki, həmin tarix Azərbaycanda anım günü kimi qeyd olunur. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində həlak olmuş hərbi qulluqçuların xatirəsi hər il bu gündə ehtiramla yad edilir.

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) rəsmi məlumatına əsasən, Azərbaycan Qran-prisinin tarixinin dəyişdirilməsi yerli təşkilatçıların və müvafiq dövlət qurumlarının müraciəti əsasında razılaşdırılıb. Nəticədə yarış həftəsonunun proqramı bir gün əvvələ çəkilib.

"Eurosport"un məqaləsində Azərbaycan Qran-prisinin 2026-cı il "Formula-1" mövsümündəki yeri barədə də məlumat verilir. Bakı mərhələsi dünya çempionatının 15-ci yarışı olacaq. Pilotlar Azərbaycan paytaxtına İspaniya Qran-prisindən sonra gələcəklər.

Nəşr Bakı yarışının özünəməxsus xüsusiyyətlərinə də diqqət yetirir. Şəhərin mərkəzi küçələrindən keçən Bakı Şəhər Halqası "Formula-1" təqvimindəki ən fərqli traslardan biri hesab olunur. Tarixi memarlıq abidələrinin yaxınlığından keçən dar döngələr, uzun düzlüklər və yüksək sürət imkanları yarışın gedişində pilotlar üçün müxtəlif çətinliklər yaradır.

"Formula-1"in rəsmi məlumatına görə, Bakı Şəhər Halqasının uzunluğu 6,003 kilometrdir. Pilotlar əsas yarış zamanı 51 dövrə vuraraq ümumilikdə 306 kilometrdən çox məsafə qət edəcəklər. Sentyabrın 24-də sərbəst yürüşlər, sentyabrın 25-də üçüncü sərbəst yürüş və sıralama turu, sentyabrın 26-da isə əsas yarış keçiriləcək.

# Bəzi yerlərdə yağış yağacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-23, gündüz 28-32 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22, gündüz 30-35, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.

## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!
## "BANK RESPUBLİKA"ASC SƏHMDARLARININ NÖVBƏDƏNKƏNAR ÜMUMİ YIĞINCAĞI

**19 oktyabr 2026-cı ildə saat 12:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin əvvəlki tarixlərdə keçirilmiş Səhmdarlarının Ümumi Yığıncağında bəzi məsələlər üzrə qəbul edilmiş qərarlara yenidən baxılması və həmin məsələlər üzrə müvafiq qərarların qəbul edilməsi haqqında.
4. "Bank Respublika" ASC-nin Müşahidə Şurasının tərkibi haqqında.
5. "Bank Respublika" ASC-nin Nizamnaməsinə əlavə və dəyişikliklərin təsdiq edilməsi haqqında.
6. "Bank Respublika" ASC tərəfindən aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan müqavilə(lər)in təsdiq edilməsi.
7. Bank Respublika ASC-nin Mükafatlandırma Siyasətinin təsdiq edilməsi haqqında.
8. Digər məsələlər.

***Bank Respublika***

# Kosovonun keçmiş prezidenti müharibə cinayətlərinə görə 25 il müddətinə azadlıqdan məhrum edilib

**Kosovo üzrə Xüsusi məhkəmə Haşim Taçini və digər üç təqsirləndirilən şəxsi 1998-1999-cu illər müharibəsi zamanı özbaşına həbs, qəddar rəftar, işgəncə və qətldə təqsirli bilib. 58 yaşlı Taçi 25 il həbs cəzasına məhkum edilib, onun əlbirləri isə 13 ildən 25 ilə qədər həbs cəzası alıblar. Taçi günahsız olduğunu bildirib.**



Xüsusi məhkəmənin qərarına əsasən, Haşim Taçi, Kadri Veseli, Yakup Krasniçi və Reçep Selimi 385 nəfərin özbaşına həbsində, 49 nəfərə qarşı qəddar rəftarda, 303 nəfərin işgəncəsində və 96 nəfərin qətlində təqsirli biliniblər.

Eyni zamanda məhkəmə prokurorluğun mülki əhaliyə qarşı geniş yayılmış və ya sistematik hücumlar barədə kifayət qədər dəlil təqdim etmədiyini və dörd nəfərin insanlığa qarşı cinayətlərdə təqsirli bilinmədiyini müəyyən edib.

Məhkəmə müəyyən edib ki, Taçi və onun əlbirləri Kosovo Azadlıq Ordusunun (KLA) siyasi və hərbi məqsədlərinə qarşı çıxan hesab etdikləri şəxslərin, o cümlədən digər qüvvələrə qoşulmuş Kosovo albanlarının, Serbiya hakimiyyəti ilə əlaqələrində şübhəli bilinən şəxslərin, qaraçılar və serblər də daxil olmaqla etnik azlıqların müəyyən üzvlərinin qanunsuz təqibinə əhəmiyyətli dərəcədə təsir göstəriblər.

Məhkəmə qurbanların cinayətkar fəaliyyətdə iştirak etdiklərinə və ya KLA üçün təhlükə yaratdıqlarına dair heç bir dəlil tapmayıb.

Prosesə sədrlik edən hakim qeyd edib ki, məhkəmə KLA-nın qanuniliyini və ya Kosovonun müstəqilliyinə nail olmaq məqsədini araşdırmır. O, sadəcə, qurumun bəzi üzvlərinin məqsədlərinə çatmaq üçün istifadə etdiyi metodları araşdırır. Hakim bildirib ki, bu məhkəmə prosesi Serbiya hərbi və hərbiləşdirilmiş qüvvələri tərəfindən Kosovo albanlarına qarşı törədilən cinayətlərə toxunmayacaq.

H. Taçi hökmdən apellyasiya şikayəti verə bilər.

O, 1990-cı illərdə Kosovo Azadlıq Ordusunun qurucularından biri olub. Məhkəmə qərara alıb ki, Baş Qərargah üzvü və Siyasi Departamentin rəhbəri kimi Taçi cinayətlərdə əsas rol oynayıb. O, həmçinin 13 parlament üzvünün həbsində və dindirilməsində, eləcə də alban fəalının həbsində və qətlində şəxsən iştirak edib.

Məhkəmə qərarına görə, Baş Qərargah üzvü, mətbuat katibi və KLA-nın rəis müavini kimi Yakup Krasniçinin də rolu bu işdə əsas olub və Taçi kimi o da 25 il müddətinə azadlıqdan məhrum edilib.

Kadri Veseli həm müharibə zamanı, həm də sonralar sülh dövründə kəşfiyyata rəhbərlik edib. Məhkəmə onu 18 il müddətinə azadlıqdan məhrum edib və qeyd olunub ki, bir çox insanın saxlanılmasına və ya öldürülməsinə əsaslanan "kəşfiyyat məlumatları" əsasən təsdiqlənməmiş şayiələrdir.

Recep Selimi KLA-nın baş müfəttişi idi və məhkəməyə görə, digər təqsirləndirilən şəxslərə nisbətən daha az təsir gücünə malik olub. O, 13 il müddətinə azadlıqdan məhrum edilib.

Bir çox kosovolu tərəfindən qəhrəman hesab edilən Haşim Taçinin tərəfdarları hökmün elan edildiyi gün Priştina və Haaqada toplaşıblar.

Kosovo 2008-ci ildə Serbiyadan ayrılıb müstəqilliyini elan etdikdən sonra o, qismən tanınmış ölkə hökumətində baş nazir, baş nazirin birinci müavini və xarici işlər naziri vəzifələrində çalışıb.

H. Taçi 2016-cı ildən 2020-ci ilə qədər Kosovo Respublikasının Prezidenti olub. Kosovo üzrə Xüsusi prokurorluq tərəfindən ittiham edildikdən sonra istefa verib və o vaxtdan bəri Haaqada həbsdədir.

O, 2020-ci ildə istefa verdikdən sonra deyib: "Mən sülh dövründə siyasi səhvlər etmiş ola bilərəm, amma heç vaxt müharibə cinayətləri törətməmişəm".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



# Aİ üçün yeni təhlükəsizlik mexanizminin yaradılması təklif edilib

**Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Avropa İttifaqının (Aİ) təhlükəsizlik böhranlarına daha çevik reaksiya verməsi üçün NATO-nun 4-cü maddəsinə bənzər yeni mexanizmin yaradılmasını təklif edib.**

AZƏRTAC xəbər verir ki, o, bu barədə Avropa Parlamentində Aİ-nin vəziyyəti ilə bağlı illik çıxışında bildirib.

Onun sözlərinə görə, mexanizm silahlı hücum həddinə çatmayan təhlükəsizlik böhranları zamanı tətbiq olunacaq. Üzv dövlətlərdən biri mexanizmi işə saldıqda bütün Aİ ölkələrinin bir araya gələrək, ümumi Avropa reaksiyasını əlaqələndirməsi, eskalasiyanın qarşısını alması və böhranın nəticələrini azaltması nəzərdə tutulur.

Komissiya rəhbəri həmçinin Avropa Təhlükəsizlik Şurasının yaradılması üzrə konkret plan təqdim ediləcəyini açıqlayıb. Onun sözlərinə görə, qitənin üzləşdiyi təhdidlərin xarakteri və miqyası belə bir formatı daha zəruri edir.

# 2035-ci ilədək Türkiyənin enerji şəbəkələrinə 28 milyard dollar investisiya yatırılması planlaşdırılır

**2035-ci ilədək Türkiyənin enerji şəbəkələrinin inkişafına 28 milyard dollar investisiya yatırılması planlaşdırılır.**



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar deyib.

A.Bayraktar elektrik enerjisinə artan tələbat fonunda milyonlarla istehlakçıya elektrik enerjisinin təhlükəsiz və fasiləsiz çatdırılmasını təmin edən müasir paylayıcı şəbəkələrin mövcudluğunun vacibliyini vurğulayıb.

"Son 20 ildə Türkiyədə elektrik enerjisi xətlərinin uzunluğu 43 min kilometrdən 77 min kilometrədək, yəni 80 faiz artıb", - deyə nazir bildirib.

Onun sözlərinə görə, Energetika Nazirliyinin prioritetlərindən biri yüksəkgərginlikli sabit cərəyan vasitəsilə elektrik enerjisinin ötürülmə texnologiyalarıdır.

"Türkiyənin yeni enerji arxitekturası"na uyğun olaraq, ümumi uzunluğu təxminən 9580 kilometr, gücü isə 28 QVt olan yüksəkgərginlikli sabit cərəyan xətləri yaradacağıq. Bundan əlavə, 15 min kilometr yeni dəyişən cərəyan elektrik ötürücü xəttini istismara verəcəyik", - deyə nazir vurğulayıb.

O, elektrikləşməni "enerji transformasiyasının fundamental elementlərindən biri" adlandırıb və əlavə edib ki, Antalyada keçiriləcək COP31 çərçivəsində dünyaya çatdıracaqları ən mühüm mesajlardan biri məhz elektrikləşməyə həsr olunacaq.

**Bakı şəhəri, Abşeron rayonu "Abşeron city" y/k, bina 240 C-də yerləşən Kərimova Mehriban Fazil qızına məxsus 60 saylı mənzilin maliyyə arayışı və müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.**

**Ali Attestasiya Komitəsi tərəfindən Səmədov Vüqar Nurəhmədoviçin adına verilmiş Fəlsəfə doktoru elmi dərəcəsinin diplomu itdiyi üçün etibarsız sayılır.**

**Sumqayıt şəhərində yerləşən şəhid ailələrinə verilən güzəştli mənzillərdən 2025-ci il 25 apreldə Əliyeva Təhminə Osman qızının adına verilmiş Şəfəq qəsəbəsi, bina 1, mənzil 54-ə məxsus evin sənədi itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3315
Sifariş 1204

Qiyməti 60 qəpik